# BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

# ВЕСТНИК БАКИНСКОГО УНИВЕРСИТЕТА

# NEWS OF BAKU UNIVERSITY

**SOSİAL-SİYASİ**
***elmləri seriyası***

***серия***
**СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК**

***series of***
**SOCIAL-POLITICAL SCIENCES**



## № 4, 2021

Bakı – 2021

## HÜQUQ

**ORCHİD ID: https://orcid.org/0000-0002-3134-8496**

# FƏRDİ MƏLUMATLAR VƏ ƏLAQƏDAR HÜQUQLAR; FƏRDİ MƏLUMATLARIN MÜHAFİZƏSİ

**A.N.İBRAHİMOVA**
***Bakı Dövlət Universiteti***
***aytakin_ibrahimli@mail.ru***

*Fərdi məlumatlarla bağlı məlumat subyektinin hüquqları fərdi məlumatlarla bağlı informasiya prosesinin mərhələlərindən asılı olaraq müəyyən olunur. Eyni zamanda, informasiya sahiblərinin də hüquq və vəzifələri həmin mərhələlər üzrə konkretləşdirilir. Ona görə də fərdi məlumatlarla bağlı informasiya proseslərinin ardıcıllıqla şərhi daha məqsədəmüvafiqdir. Bunu "fərdi məlumatların hüquqi rejimi" və ya "fərdi məlumatların həyat tsikli" adlandıra bilərik. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununda fərdi məlumatlarla bağlı müxtəlif əməliyyat və proseslərə anlayış verilsə də, bu prosesi əhatə edən vahid anlayış istifadə olunmamışdır.*

**Açar sözlər:** fərdi məlumatlar, əlaqədar məlumatlar, fərdi məlumatların mühafizəsi, fərdi məlumatların mühafizəsində dövlətin öhdəlikləri.

Fərdi məlumatların həyat tsiklinin komponentlərinə ayrı-ayrılıqda nəzər yetirəsi olsaq:

**Fərdi məlumatların toplanılması** – subyekt barəsində fərdi məlumatların sənədləşdirilmiş qaydada qanuna uyğun olaraq əldə edilməsini əhatə edir. Fərdi məlumatların toplanılmasının iki forması vardır: məcburi və könüllü.

Məcburi qaydada fərdi məlumatların toplanılmasına qanunvericiliklə müəyyən edilmiş hallarda yol verilir. Məsələn, "Biometrik informasiya haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, biometrik məlumatların toplanılması.

Könüllü formada fərdi məlumatların toplanılmasına yalnız subyekt tərəfindən verilmiş yazılı, o cümlədən gücləndirilmiş elektron imzalı elektron sənəd formasında razılıq və ya özünün yazılı təqdim etdiyi məlumatlar əsasında yol verilir.

**Fərdi məlumatların işlənilməsi** – fərdi məlumatlar üzərində aparılan əməliyyatlar (fərdi məlumatların yazılması, sistemləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, çıxarılması, adsızlaşdırılması, saxlanması, ötürülməsi, məhv edil-

məsini əhatə edir. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 9.3-9.4-cü maddəsində deyilir ki, fərdi məlumatlar dəqiq, tam olmalı və zərurət yarandıqda təzələnməlidir. Fərdi məlumatların işlənilməsi çoxsaylı əməliyyatları özündə birləşdirir ki, bu əməliyyatlara qanunverici öz münasibətini bildirmişdir:

- ***fərdi məlumatların adsızlaşdırılması*** – fərdi məlumatların, onun subyektinin kimliyini müəyyənləşdirməyə imkan verməyən vəziyyətə salınması;
- ***fərdi məlumatların verilməsi*** – fərdi məlumatların qanunvericiliklə müəyyən edilmiş qaydada sorğu əsasında maddi daşıyıcılarla və ya informasiya texnologiyaları vasitəsilə istifadəçilərə təqdim edilməsi;
- ***fərdi məlumatların yayılması*** – fərdi məlumatların kütləvi informasiya vasitələri, habelə informasiya sistemləri ilə açıqlanması və ya fərdi məlumatlarla şəxslərin hər hansı digər üsulla tanış olmasına imkan yaradılması;
- ***fərdi məlumatların transsərhəd ötürülməsi*** – fərdi məlumatların qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının dövlət sərhədindən əlaqədar beynəlxalq təşkilatlara, başqa ölkələrin dövlət və ya yerli özünüidarə orqanlarına, hüquqi və ya fiziki şəxslərinə verilməsi;
- ***fərdi məlumatların məhv edilməsi*** – informasiya sistemində fərdi məlumatların silinməsi, məzmununun sonradan bərpa edilməsi mümkün olmayan vəziyyətə salınması və ya fərdi məlumatlar olan maddi daşıyıcıların məhv edilməsi.

Fərdi məlumatların qorunmasında məlumat subyektinin onun şəxsi məlumatları üzərində aparılan əməliyyatlara razılığı, məlumat subyektinin məlumatların işlənməsi prosesində iştirak etməsini və məlumatları idarə etməsini verilənlərin işlənməsində qanuniliyi təmin edən vacib amillərdən biridir. Bir sıra münasibətlərdə bəlli vəziyyətlərdə fərdi məlumatların toplanılması, işlənilməsi və saxlanılmasından əvvəl əlaqədar şəxsin razılığının alınmasının vacib olduğu bildirilmişdir [1]. Bu cür tənzimləmələrdə icazənin verilməsinin məqsədi həyata keçirilən fəaliyyətlərin hüquqauyğunluğunu təmin etməkdədir. Beynəlxalq və regional normalar birmənalı şəkildə məlumat subyektinin razılığını ön plana çəkir. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində isə məsələyə aşağıdakı kimi münasibət bildirilmişdir:

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada fərdi məlumatların məcburi şəkildə toplanılması və işlənilməsi halları istisna olmaqla, hər hansı şəxs barəsində fərdi məlumatların toplanılmasına və işlənilməsinə yalnız subyekt tərəfindən verilmiş yazılı, o cümlədən gücləndirilmiş elektron imzalı elektron sənəd formasında razılıq və ya özünün yazılı təqdim etdiyi məlumatlar əsasında yol verilir. Subyektin fərdi məlumatların işlənilməsi üçün yazılı razılığa daxil edilməlidir: subyektin kimliyini müəyyənləşdirməyə imkan verən məlumatlar; subyektdən razılıq alan mülkiyyətçinin və ya operatorun kimliyini müəyyənləşdirməyə imkan verən məlumatlar; fərdi məlumatların toplanılması və işlənilməsi məqsədi; subyekt tərəfindən işlənil-

məsinə razılıq verilmiş fərdi məlumatların və onların işlənilmə əməliyyatlarının siyahıları; subyektin razılığının qüvvədə olma dövrü və onun geri götürülməsi şərtləri; fərdi məlumatların müvafiq informasiya sistemində müəyyən olunmuş saxlanılma müddəti başa çatdıqdan və ya subyektin ölümündən sonra onun barəsində toplanılmış fərdi məlumatların qanunvericiliklə müəyyən olunmuş qaydada məhv edilməsi və ya arxivləşdirilməsi şərtləri. Subyekt vəfat etdikdə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ölmüş elan edildikdə, xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, habelə yetkinlik yaşına çatmadığı, özü razılıq vermək iqtidarında olmadığı hallarda bu Qanunla tələb olunan razılıq müvafiq olaraq onun vərəsələri, qanuni nümayəndələri, valideynləri və ya himayəçilərindən biri tərəfindən verilir. Subyektdən onun fərdi məlumatlarının toplanılması və işlənilməsi üçün razılığın alınması haqqında sübutun təqdim olunması vəzifəsi mülkiyyətçinin və ya operatorun üzərinə düşür. Vəfat etmiş şəxslər barəsində fərdi məlumatların işlənilməsinə subyektin sağlığında qadağa qoyulmamışdırsa, həmin məlumatlar qanunvericiliklə müəyyən olunmuş hallarda işlənilə bilər. Açıq fərdi məlumatların toplanılmasını və işlənilməsini həyata keçirən mülkiyyətçi və ya operator subyektin tələbi ilə həmin məlumatların açıq fərdi məlumatlar kateqoriyasına aid olduğunu sübut etməlidir.

Məlumatın şəxsi müəyyənləşdirə bilən olub-olmaması mənasında incələnməsi üçün lazım olan digər bir məsələ isə ləqəblərdən istifadə edən verilənlərin, şifrəli verilənlərin və anonim verilənlərin olmasıdır. Ləqəbdən istifadə edilən verilənlər, xüsusilə statistik məqsədlərlə birdən çox şəxslə bağlı birdən çox məlumatın toplanılması vacibliyində, bu şəxslərin müəyyənləşdirilə bilməməsi üçün adlarının başqa adlarla dəyişdirilməsi vəziyyətində yaranan verilənlərdir. Bəzi müəlliflər şifrələnmiş məlumatların və saxta məlumatların fərdi məlumatlarla bağlı qanunvericiliyə əsasən qorunmasının maddi cəhətdən ağır və bahalı olacağını iddia edirlər (xüsusən də tibbi tədqiqatlar kimi uzunmüddətli tədqiqatlardan danışarkən) [7, s.23].

Adsızlaşdırılmış verilənlərdə aparılan əməliyyatların nəticəsində müəyyən edilə bilən fərdlə verilən arasındakı əlaqə qoparılmaqla, fərdin kimliyinin təsbiti imkansız hala gətirildiyindən, verilənlərin aid olduğu şəxslər üçün əlyetərliyi mümkün olmamaqdadır. Bu səbəblə, ədəbiyyatda adsızlaşdırılmış (anonim) verilənlər fərdi məlumatlar hesab olunmur [13, s.228]. Həmçinin 95/46/AT saylı Avropa İttifaqı Direktivinin birinci bölməsinin 26-cı maddəsində də anonim verilənlərin fərdi məlumatlar olmadığı bildirilmişdir. Milli hüquqa nəzər salsaq, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsinə müvafiq olaraq, adsızlaşdırılmış məlumatlar açıq fərdi məlumatlar kateqoriyasına daxil edilir və açıq kateqoriyalı fərdi məlumatların konfidensiallığının təmin edilməsi tələb olunmur.

Fərdi məlumatların informasiya sistemi dedikdə, fərdi məlumatların bəlli meyarlara görə tənzimlənərək işləndiyi bir qeydiyyat sistemi başa düşülür. Qısa sözlə, bu sistem qanunvericiliklə müəyyən edilmiş qaydada fərdi məlumatların

toplanılmasını, işlənilməsini və mühafizəsini təmin edən informasiya sistemidir. İnformasiya sistemləri elektron və ya adi qaydada həyata keçirilməlidir və bu zaman fərdi məlumatların təsnifləşdirilməsindən istifadə olunur. Məsələn, ad, soyad və ya şəxsiyyəti təsdiq edən sənədin nömrəsi və s. 95/46/AT saylı Avropa İttifaqı Direktivində "fərdi məlumatların informasiya sistemi" yerinə "fərdi məlumatların sənədləşdirilməsi sistemi" terminindən istifadə edilmişdir. Direktivdə fərdi məlumatların sənədləşdirmə sistemi müəyyən bir meyara görə əldə edilə bilən formada qurulmuş fərdi məlumat sistemi olaraq izah edilir. Bu verilənlər sisteminin mərkəzi və ya mərkəzi olmayan və ya funksional və ya coğrafi əsasda bölünməmiş olması əhəmiyyətli deyildir.

Fərdi məlumatların həyat tsiklində subyektlərin dairəsi də xüsusi qeyd olunmalıdır. Bura fərdi məlumatların operatoru, mülkiyyətçisi və istifadəçisi aid edilir. Qanunvericiliyə görə, fərdi məlumatların operatoru dedikdə, fərdi məlumatların toplanılmasını, işlənilməsini və mühafizəsini həyata keçirən fərdi məlumatların mülkiyyətçisi və ya onun bu funksiyaları müəyyən həcmdə və şərtlərlə həvalə etdiyi dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxs başa düşülür. 95/46/AT saylı Avropa İttifaqı Direktivində fərdi məlumatlarla işləyənlər verilənlərdən məsul olan və fərdi məlumatların istifadəçisi olaraq iki qrupa bölünürlər. Direktivdə verilənlərdən məsul olanlar – fərdi məlumatların necə və hansı məqsədlər üçün istifadəsinə təkbaşına və ya başqaları ilə birlikdə qərar verən fiziki və ya hüquqi şəxs, rəsmi dövlət qurumu, müəssisə və ya digər qurumlardır. Verilənlərdən məsul olan şəxs verilənləri müdafiə edən səlahiyyətli şəxsdən fərqlidir. Verilənləri müdafiə edən səlahiyyətli şəxs bir müəssisədə fərdi məlumatların qorunması qaydalarına riayət etməkdə məsul olan şəxsdir. Verilənlərdən məsul olan şəxs fərdi məlumatların istifadəçisindən də fərqli biridir. Direktivə görə, fərdi məlumatların istifadəçisi verilənlərdən məsul olan şəxsin təlimatına əsasən fərdi verilənləri işləyən fiziki və ya hüquqi şəxs, rəsmi qurum, təşkilat və ya digər qurumlardır. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununda fərdi məlumatların istifadəçisi yalnız özü üçün zəruri informasiyanın əldə olunması məqsədilə səlahiyyətləri daxilində mülkiyyətçi tərəfindən müəyyən edilmiş qaydada və həcmdə fərdi məlumatlardan istifadə hüququ verilmiş dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxs kimi qəbul edilmişdir.

Fərdi məlumatların transsərhəd ötürülməsi həm "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsi, həm də 1981-ci il Konvensiyası ilə tənzimlənir. 14-cü maddəyə görə, fərdi məlumatların transsərhəd ötürülməsi zamanı bu məlumatların təhlükəsizliyi mülkiyyətçi və ya operator tərəfindən təmin edilir. Fərdi məlumatların transsərhəd ötürülməsi aşağıdakı hallarda qadağan edilir:

- Azərbaycan Respublikasının milli təhlükəsizliyi üçün təhdid yaratdıqda;
- fərdi məlumatların ötürüldüyü ölkənin qanunvericiliyi həmin məlumatların Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səviyyədə

hüquqi mühafizəsini təmin etmədikdə.

Subyektin fərdi məlumatların transsərhəd ötürülməsinə razılıq verdiyi, habelə fərdi məlumatların ötürülməsinin subyektin həyat və sağlamlığının qorunması üçün zəruri olduğu hallarda fərdi məlumatların transsərhəd ötürülməsi onların hüquqi mühafizəsi səviyyəsindən asılı olmayaraq həyata keçirilə bilər.

Fərdi məlumatların ölkələr arasında ötürülməsi ilə əlaqədar beynəlxalq hüquqda da tənzimləmələr mövcuddur. Avropa Şurasının 108 saylı Müqaviləsinin 12-ci maddəsi bir dövlətdən digərinə ötürülən məlumatların şəxsi həyat səbəbi ilə qadağan edilməsini, ya da xüsusi bir icazəyə əsasən bloklanmasını qadağan edir. 181 saylı Əlavə Protokolla edilən tənzimlənməyə görə, fərdi məlumatların Müqaviləyə tərəfdar olmayan dövlətlərə və ya beynəlxalq təşkilatlara transsərhəd ötürülməsi üçün o ölkənin və ya beynəlxalq təşkilatın Müqaviləyə uyğun fərdi məlumatları müdafiə sisteminə malik olmaları vacibdir.

95/46/AT saylı Avropa İttifaqı Direktivində ümumi olaraq kifayət qədər bir müdafiə sistemi olmayan üçüncü ölkələrə fərdi məlumatların transferini qadağan edən qayda qəbul edilmişdir. Direktiv yetərli müdafiə sisteminin tənzimlənməsində xüsusilə diqqət edilməsi vacib olan şərtləri müəyyən etmişdir. Bu şərtlər verilənlərin xüsusiyyəti, emalı və müddəti, transsərhəd ötürən ölkə və transsərhəd qəbul edən ölkə, üçüncü ölkədə keçərli olan ümumi və lokal hüquq qaydaları, bu ölkədə riayət edilən qaydalar və tətbiq edilən təhlükəsizlik tədbirləridir. 2000-ci ildə Avropa Parlamenti ABŞ tərəfindən fərdi məlumatların müdafiəsində Avropa İttifaqı normalarına uyğunlaşdırmaq məqsədilə qəbul etdikləri Safe Harbor prinsiplərini fərdi məlumatların müdafiəsi baxımından uyğun bir tənzimləmə olaraq qəbul etmişdir. Safe Harbor prinsipləri Avropa İttifaqına üzv dövlətlərdə fərdi məlumatları transsərhəd ötürmək istəyən ABŞ müəssisələrinin riayət edəcəkləri prinsipləri əhatə etməkdədir [9]:

Yuxarıda da qeyd edildiyi kimi, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 8.2-ci maddəsində nəzərdə tutulan müdaxilələrin, yəni qabaqlayıcı tədbirlərin 8-ci maddəyə uyğun olub-olmadığı qiymətləndirilərkən əlaqədar dövlətə "qiymətləndirmək hüququ" adlı bəlli bir səlahiyyət verilmişdir. Buna ilk dəfə 10-cu maddə (ifadə azadlığı) əhatəsindəki Handyside (07.12.1976) qərarında toxunulsa da, bu prinsip 8-ci maddə ilə əlaqədar olaraq açılan məhkəmə işləri baxımından da keçərlidir. Həmin qərara görə: "... Dövlət qulluqçuları ölkələrindəki əhəmiyyətli güclərlə birbaşa və sürətli təmasları səbəbi ilə beynəlxalq hakimlərlə müqayisədə daha yaxşı qərar verə biləcək vəziyyətdədirlər. Bu baxımdan, vacib kütləvi ehtiyacın səviyyəsi məsələsində ilk qiymətləndirməni yerli səlahiyyətli qurumlar həyata keçirməlidir." Bu o deməkdir ki, 10-cu maddə dövlətlər üçün həm hüquq yaratma, həm də hüququ tətbiq etmə üzrə səlahiyyətlər müəyyənləşdirir. Lakin yekun qərar vermə səlahiyyəti Məhkəməyə aid olduğu üçün yerli orqanlara verilən qiymətləndirmə hüququnun doğru istifadə edilib-edilmədiyi məsələsi Məhkəmənin rəyinə əsasən, dəyişikliklərlə nəticələnə bilər. Məhkəmə qiymətləndirmə hüququna birincisi, 8-ci maddədə edilən müdaxilənin 2-ci bəndində

bildirilən dövlət maraqlarına görə yerində olub-olmadığını bildirərkən, eləcə də dövlətin bu məsələ ilə bağlı pozitiv öhdəliklərini yerinə yetirmək üçün yetərincə səy göstərib-göstərmədiyini qiymətləndirərkən öz yanaşmasını bildirir. X və Y Niderlanda qarşı məhkəmə işində [14] dövlətin öhdəlikləri ilə əlaqədar bu ifadələrə yer verilmişdir: "8-ci maddə sadəcə dövləti müdaxilə etməyə məcbur edə bilməz. Bu neqativ öhdəliklərlə yanaşı, şəxsi həyata və ailə həyatına təsirli bir şəkildə hörmət göstərilməsinin təbiətində olan pozitiv öhdəliklər də ola bilər. Bu öhdəliklər fərdlərin öz aralarındakı münasibətlər sferasında belə şəxsi həyata hörmət göstərilməsini təmin edəcək qabaqlayıcı tədbirlər görməyi əhatə edə bilər."

Axtarış və götürmə məsələlərində isə Məhkəmə Konvensiyaya tərəfdar dövlətlərin bəzi cinayətlər haqqında maddi sübut tapmaq üçün yaşayış sahələrinin axtarılması və götürmənin icrası kimi qabaqlayıcı tədbirlərə müraciət edə biləcəyini qəbul etməkdədir. Bu cür qabaqlayıcı tədbirlər normalda bir fərdin 8.1-ci maddə çərçivəsindəki şəxsi həyat və ya ailə həyatına dair hüquqlarına müdaxilə mənasına gəlməməli, mütləq şəkildə belə tədbirləri izah etmək üçün istifadə edilən səbəblər əlaqədar və yetərli olmalıdır və hədəflənən məqsədə görə qeyri-mütənasib olmamalıdır. Məhkəmə bundan başqa, əlaqədar qanunların və tətbiqlərin fərdlər üçün yetərli və təsirli müdafiə mexanizmləri təmin etməsi məsələsində məmnun olmağı da axtarmaqdadır. Məhkəmə prosesləri axtarışların "qanuni" olması ilə "özbaşınalığa və istismara qarşı üsul baxımından yetərli mexanizmlərə sahib" olması şərtlərinə fokuslanmışdır. Bu mənada, tərəf dövlətlər bildirilən mövzuda qiymətləndirmə hüququna sahib olmasına baxmayaraq, milli qanunların səlahiyyətli subyektlərə məhkəmədən alınmış axtarış qərarı olmadan axtarış əmri vermə və axtarış etmə icazəsi verdiyi vəziyyətlərdə məhkəmələr xüsusilə həssas davranmalıdır.

Məhkəməyə görə, fərdlər 8-ci maddənin qoruma altına aldığı hüquqlar məsələsində səlahiyyətli subyektlərin özbaşına müdaxiləsinə qarşı qorunacaqsa, bu cür səlahiyyətlər məsələsində çox ciddi sədlərdən formalaşan bir çərçivə olmalı və məhkəmə hər bir işdə keçərli olan xüsusi şərtlərə baxaraq haqqında bəhs edilən məhkəmə işində nəzərdən keçirilən müdaxilənin hədəflənən məqsədə uyğun olub-olmadığını qiymətləndirməlidir.

Axtarış əmri məhkəmələrə verildikdə, yəni məhkəmə nəzarətinin bir hissəsi olduqda, 8-ci maddənin tələblərini yerinə yetirəcək səviyyədə yetərli müdafiə olması ehtimal olunur. Milli qanunlar əvvəlcədən məhkəmədən qərar alınmadan yaşayış sahələrinin axtarışına icazə verildikdə, axtarış yalnız axtarışları tənzimləyən digər qanunların fərdlərin hüquqlarına yetərincə qoruma təmin etdiyi vəziyyətlərdə 8-ci maddəyə uyğun olur. Məsələn, Funke Fransaya qarşı məhkəmə işində [3] gömrük orqanları iddiaçının xaricdəki malları haqqında məlumat almaq üçün evini axtarmışlar və Fransa qanunlarına görə qanundan kənar xüsusiyyətlər daşıyan gömrük cinayətləri ilə əlaqədar olaraq xaricdəki bank hesabları haqqında sənədləri müsadirə etmişlər.

Ümumilikdə, Konvensiyanın 8-ci maddəsi əhatəsindəki şəxsi həyatın

toxunulmazlığı hüququ baxımından dövlətlərin öhdəliklərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

***Pozitiv öhdəliklər.*** Əsas hüquq və azadlıqların müdafiəsindən bəhs etdikdə uzun müddət bu hüquqların neqativ status hüquqlar əhatəsində olduğu nəzərdən keçirilərək dövlətin hər zaman müdaxilə etməmə öhdəliyi altında olduğu düşünülmüşdür. Dövlətin vətəndaşı əsas hüquq və azadlıqlar sahəsində sərbəst buraxması və bu sahəyə müdaxilə etməməsi şərt olaraq qəbul edilmişdir. Lakin bu klassik və yerli anlayış insan hüquqları anlayışının beynəlxalq səviyyədə müdafiə olunmağa başlaması ilə bərabər dəyişməyə başlamışdır. Xüsusilə, Konvensiya öhdəliklərinin tətbiq olunub-olunmadığını müəyyənləşdirən İnsan hüquqları üzrə Avropa Məhkəməsi insan hüquqlarının qorunmasında formalaşmış klassik anlayışa fərqli bir baxış tərzi gətirmişdir. Dövrün tələbindən irəli gələrək, pozitiv öhdəliklər anlayışı neqativ status hüquqlar əhatəsində dövlətin neqativ öhdəliklərinin bu hüquqların təsirli bir şəkildə istifadəsi üçün yetərli olmadığına gətirib çıxarmışdır. Məhkəmə proseslərində meydana gələn bu anlayış şəxsi hüquq və azadlıqların təsirli bir formada müdafiəsi üçün dövlətin toxunulmazlıq öhdəliklərini yerinə yetirməsinin yetərli olmadığını bildirməkdədir. Bu mənada dövlətin şəxsi hüquq və azadlıqların təsirli bir şəkildə müdafiəsi üçün bir sıra öhdəlikləri mövcuddur. Son 30 il müddətində Məhkəmə Konvensiya əhatəsində pozitiv öhdəlikləri artan bir perspektivlər araşdırmaqdadır. Pozitiv öhdəliklərin tələbləri dövlətlərin fərqli formalarda ortaya çıxan fəaliyyətlərini əhatə etməkdədir. Məhkəmənin hakimlərindən Martens "pozitiv öhdəliklər" anlayışını "tərəf dövlətlərin etməsi tələb olunan fəaliyyətlər" olaraq izah etməkdədir.

Hər nə qədər pozitiv öhdəliklər anlayışının meydana çıxma tarixini tam olaraq müəyyənləşdirmək mümkün olmasa da, şəxsi hüquq və azadlıqların müdafiəsi məsələsində inkişaf edən ehtiyaclar diqqətə alınaraq, Məhkəmə hələ də bu öhdəliklərin inkişafına həyata keçirdiyi proseslərlə töhfə verməkdədir.

Müasir dövrdə dövlətin hüquqlardan istifadə etməsinə müdaxilə etməməsi, hüquqların təsirli formada istifadəsi üçün yetərli olmayıb, dövlətin hərəkətə keçərək fərdlərə hüquqların istifadəsi üçün uyğun bir mühit təmin edilməsi vacibdir. Beləliklə, fərd hüquqlarını təsirli bir şəkildə istifadə edə biləcəkdir. Hüquqlar baxımından öhdəliklərin müəyyən edilməsi, əlaqədar hüququn əsl əhatəsini müəyyən etmək üçün olduqca əhəmiyyətlidir. BMT Konvensiyası ilə əlaqədar Steiner və Alstonun fikirləri də bu mənada qiymətləndirilməlidir. BMT-nin 1966-cı il tarixli Şəxsi və siyasi hüquqlararası Konvensiyası, 1979-cu il tarixli Qadınlara qarşı hər növ ayrı-seçkiliyin aradan qaldırılması Konvensiyası və digər insan hüquqları Konvensiyalarının məna və məzmununu anlamaq üçün dövlətlərin bu hüquqlarla əlaqədar vəzifələrini tədqiq etməklə köməklik göstərəcəkdir. Bəzi öhdəliklərə diqqət yetirsək, həm haqqında bəhs edilən hüquqların mənasını izah etməklə həm də perspektivlərini tənzimləmə və inkişaf strategiyalarına diqqəti cəlb etmək mümkün olacaqdır. Daha sonra bu tədqiqat hüququn, dövlətin əlaqədar vəzifələri daxilində həll ediləcək və beləcə hüququn məzmununu, ya da hazırlanan məzmununu açıq bir anlayış olaraq

əldə etməyimizi təmin edəcəkdir [10, s.180].

Pozitiv öhdəliklərin xüsusiyyətlərini müəyyənləşdirmək üçün Məhkəmə qərarlarının məzmununa baxmaq lazımdır. Bu mənada Şuenin yazılarında [11, s.173] Konvensiyadakı hüquqlara dair dövlətlərin pozitiv öhdəliklərinə yönələn daha nəzəri bir izah tapa bilərik. Şue pozitiv və neqativ hüquqlar arasında ənənəvi fərqi rədd edərək vurğulayır ki, ənənəvi ayrı-seçkilik dövlətin müsbət və ya mənfi vəzifələri əsasında həyata keçirilmişdir. Müəllif hər hüququn tam mənası ilə təminatı üçün bir çox vəzifənin yerinə yetirilməsinin vacibliyini bildirmişdir. O, klassik ayrı-seçkilikdə həyata keçirilən vəzifə bölgüsündə sadəcə dövlətə vəzifəni yükləmək, ya da yükləməmək şəklində sadə bir ayrı-seçkilikdən daha məzmunlu olaraq dövlət orqanlarının ayrı-ayrı vəzifələrinin müəyyən edilməsi vacibliyini bildirərək üç növ vəzifə müəyyən etmişdir:

1. Hüquqdan məhrum olmağa qoymayan vəzifələr;
2. Hüququ məhrumiyyətdən qoruyan vəzifələr;
3. Məhrumiyyət şəklində yardım vəzifəsi.

Şuenin yanaşmasının maraqlı cəhəti ondadır ki, o, həmçinin fərdlərin fiziki təhlükəsizliyi üçün də fərqli vəzifə olduğunu bildirmişdir:

1. İnsanın fiziki təhlükəsizliyinin ortadan qaldırılmaması üçün vəzifələr – Hüquqdan məhrum olmağa qadağa qoyan vəzifələr;
2. İnsanın fiziki təhlükəsizliyinin digər insanlar tərəfindən qadağan olunmasını qadağa edən vəzifələr – Hüququn yoxluğundan qoruyan vəzifələr;
3. Hüquqdan məhrum olanlara yardım vəzifəsi.

Bu mənada ayrı-seçkiliyi vəzifə halında tənzimləyən Şue bəzi hüquqların mənfi vəzifələr gətirməsinə qarşı digər hüquqların müsbət vəzifələr gətirdiyi anlayışını yanlış hesab etməkdədir. Pozitiv öhdəliklər anlayışı da xarakterik olaraq klassik ayrı-seçkiliyi rədd etməkdədir. Xüsusilə neqativ status hüquqları əsasında dövlətin mənfi öhdəliklərini aradan qaldıraraq bu hüquqların da dövlətə bir çox öhdəliklər verdiyini vurğulamaqdadır.

Şuenin yuxarıdakı izahı onu göstərir ki, əsas hüquqlar Konvensiyada qorunduğu şəkli ilə dəyişik formalardakı fərqli çətinlikləri dövlətə əlavə vəzifə olaraq yükləyər. Pozitiv və neqativ öhdəliklər arasındakı xüsusi tarazlıq bəlli hüquqlar baxımından dəyişiklik göstərsə də, əsas təməl hüquqlar üçün pozitiv öhdəliklər qalmaqdadır. Bu səbəblə, Konvensiyada tərəf dövlətlərin Konvensiyaya uyğunlaşmaq başlıca öhdəlikləri olduğu üçün pozitiv öhdəliklər altında olmaları da məntiqi olaraq qaçılmazdır.

Son olaraq qeyd etmək istərdik ki, hüquq və azadlıqlar sahəsində dövlətin pozitiv öhdəliyi "nəticə alma" öhdəliyi olmayıb, bir "üstünlük", yəni "mümkünü etmə tələbi"dir. Eyni zamanda, pozuntunun fərddən fərdə başvermə halında (üfüqi tətbiqetmə) bu pozuntuya dövlətin münasibəti onunla şərtlənir ki, dövlət faktiki olaraq müdaxilədən yenə cavabdehlik daşımaqdadır.

Pozitiv öhdəliklərlə bağlı bəzi məhkəmə qərarlarına müraciət etməyi məqsədəuyğun sayırıq:

***Şəxsi həyat və cinsi toxunulmazlıqla bağlı pozitiv öhdəliklər.*** Ruhi xəstə

olan bir şəxsə ögey atası tərəfindən təcavüz edilməsi ilə bağlı X və Y Niderlanda qarşı məhkəmə işində Məhkəmə Hollandiya cinayət hüququnun çatışmazlıqlarını və şəxsə əyani və təsirli müdafiə təmin edilməsini ön plana çəkmiş, dövlətin pozitiv öhdəliklərini yerinə yetirmədiyinə qərar vermişdir. Qərarda 8-ci maddənin məqsədinin fərdi dövlət orqanlarının özbaşına müdaxilələrinə qarşı qorumaq olsa da, bu neqativ öhdəliyə əlavə olaraq, dövlətin şəxsi həyata və ya ailə həyatına təsirli bir şəkildə hörmət göstərmənin əsasında dayanan bəzi pozitiv öhdəliklərinin də ola biləcəyini bildirmişdir. Bu öhdəliklərin şəxsi həyatın qorunması məqsədilə övladlığa götürmə qaydalarını, hətta fərdlərin öz aralarındakı münasibətləri də əhatə edəcəyini bildirmişdir. Bu qərar fərdlər arasındakı münasibətləri tənzimləmək üçün dövlətlərə pozitiv tədbirlər gətirməsi baxımından əhəmiyyətlidir. Xüsusilə dövlətlər tərəfindən uşaqlar və digər həssas qrupa daxil olan şəxslərin müdafiəsi üçün lazımi hüquqi əsasın formalaşdırılması və övladlığa götürülən uşaqların vəziyyətlərinin araşdırılaraq pis münasibətə məruz qalmalarına maneçilik göstərilməsi vacib idi. Sadəcə cinayət qanunlarında bu cür pis münasibətlərə cəza verilməsi yetərli olmayıb, fərdlərin müdafiəsi üçün lazımi xüsusi hüquq sahəsində də tənzimləmələr edilməlidir [8, s.103].

Stubbings və digərləri İngiltərəyə qarşı məhkəmə işində Məhkəmə şəxsi hüquq əhatəsində pozitiv öhdəliyin hüdudlarını müəyyən etmişdir. Qərar iddiaçı dörd qadın və uşaqları arasındakı fərqli şəxslər tərəfindən edilən ağır cinsi təcavüzə məruz qaldıqlarını iddia qaldırmaları ilə bağlıdır. İddiaçılar illər sonra psixoloji müalicə alana qədər məruz qaldıqları təcavüzün xüsusiyyətinə agah olmadıqlarını müəyyən etmişlər və təcavüzlərə qarşı hüquqi müdafiədən istifadə etmişlər. Lordlar Kamerası 1980-ci il tarixli "İddia müddəti haqqında" Akta görə, iddiaçıların altı il əvvəl 18 yaşını tamamladıqları zaman idda qaldırmalarının qadağan olunduğunu müəyyən etmişdi. Bununla yanaşı, iddiaçılar təsirli hüquq yolundan məhrum olduqlarından İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmişlər. Məhkəmə İngilis Cinayət hüququnda cinsi təcavüzün ağır bir cəza sayıldığını, bu cəzalarda iddia müddətinin tətbiq olunmadığını, cəzanın ağır olduğunu və iddia sahiblərinin bu mənada cinayət işi aça biləcəyini bildirmişdir. Ancaq şəxsi hüquq baxımından iddia müddəti qaydalarının tətbiqinin hüquqi olduğunu və Konvensiyanın 8-ci maddəsinin fərdlərin şəxsi həyatını müdafiədə hüdudsuz bir qanuni yol tutması şəklində dövlətlərə pozitiv bir öhdəlik yükləmədiyini bildirmişdir. Bu səbəblə 8-ci maddənin pozulmadığı nəticəsinə gəlinmişdir.

Stubbings qərarından göründüyü kimi, fərdlərin şəxsi həyatı qorunarkən cinayət hüququ və şəxsi hüquq bir tam olaraq qəbul edilmiş və dövlətlərə bu tam əhatəsində fərdlərin cinsi istismardan müdafiəsi öhdəliyi gətirilmişdir. Lakin məhkəmələrdə fərdlərə 8-ci maddə əhatəsində sərhədsiz bir qanuni tənzimləmənin çox geniş bir öhdəlik olacağını qəbul edərək dövlətlər baxımından bunun məhdudlaşdırıla biləcəyi bildirilmişdir.

***Fərdi məlumatların əldə olunması hüququ ilə bağlı pozitiv öhdəliklər.*** Fərdi məlumatlar şəxsi həyatın bir hissəsidir. Bu mənada, həm fərdi məlu-

matları əldə edə bilməmək şəxsi həyata müdaxilə olaraq qiymətləndiriləcəkdir, həm də başqalarının bu məlumatları əldə edə bilməməsinin şəxsi həyata müdaxilə olaraq qəbul edilməsi və vacib tədbirlərin alınması şərtdir.

Gaskin və başqaları İngiltərəyə qarşı məhkəmə işində [4] iddiaçı kiçik yaşda dövlətin müdafiəsi altına alınmış və yetkinlik yaşına çatana qədər burada qalmışdır ki, onun tələbi bu dövrə aid bütün sənədlərinin əlyetərliyinin təminatı ilə bağlıdır. Məhkəmə qərarında dövlətin 8-ci maddədən qaynaqlanan pozitiv öhdəliyi üzrə sosial xidmət mənbələrinin konfidensiallığını təmin etməkdən irəli gələn dövlət marağı ilə fərdin şəxsi həyatı haqqındakı məlumatları əldə etmək hüququ arasında ədalətli bir tarazlıq qurulub-qurulmadığını qiymətləndirmişdir. Məhkəmə fərdlərin öz uşaqlarını və ilkin inkişaf dövrlərini bilmək və anlamaq üçün lazımı məlumatları əldə etmək hüququnu tanıyaraq, bu hüququn fərdin razılığına bağlı olmasını prinsip olaraq 8-ci maddəyə uyğun hesab etmişdir. Lakin fərdin uyğunsuz olaraq icazə vermədiyi hallarda son qərarı verəcək bir səlahiyyətin olması vacibliyini də bildirmişdir. Belə bir tətbiqin olması 8-ci maddənin pozulması mənasına gələcəyi bildirilmişdir. Bu mənada dövlətlərə fərqli bir pozitiv öhdəlik yüklənmişdir.

Məhkəmə Guerra və digərləri İtaliyaya qarşı məhkəmə işin [5] əhalini yaşadıqları bölgədə olan bir kimya fabrikinin gətirdiyi risklərlə əlaqədar məlumatlandırmamaq və fabrikdə reallaşa biləcək qəzalarla əlaqədar qabaqlayıcı tədbirlər almamaq mövzusu ilə əlaqədardır. Bu məhkəmə işində Məhkəmə çevrəyə gələ biləcək ciddi zərərin şəxslərin rifahına mənfi yöndə təsir edə biləcəyi və onları şəxsi və ailə həyatlarını pozacaq şəkildə evlərində oturma hüquqlarından məhrum edə biləcək reallığı ilə 8-ci maddənin pozulacağına qərar vermişdir. Bu qərar dövlətlərə ətraf mühitin çirkləndirilməsindən mənbələnən ciddi risklərlə əlaqədar olaraq yerli əhalinin məlumatlandırılması mövzusunda dövlətlərə pozitiv bir öhdəlik yükləmişdir.

***Ad seçimi üzrə pozitiv öhdəliklər.*** Burghartz və başqaları İsveçrəyə qarşı məhkəmə işində [2] iddiaçı İsveçrə qanunlarına görə evli qadınlar soyadı olaraq ərlərinin soyadından əvvəlki soyadının istifadə hüququna malik olmalarına baxmayaraq, bu hüququn təmin olunmadığı üçün şikayət etmişdir. Məhkəmə qərarında bildirmişdir ki, Konvensiyanın 8-ci maddəsi adlar hüququnda açıq müddəalar əks etdirməməkdədir. Bu, fərdin adı, şəxsiyyətinin və ailə əlaqələrinin müəyyən edilməsində istifadə edilən bir vasitə olaraq fərdin şəxsi və ailə həyatı ilə əlaqəlidir. Bir dövlət hüququ mövzusu olaraq cəmiyyətin və dövlətin adların tənzimlənməsi mövzusu ilə maraqlanması və tənzimetmə müəyyənləşdirməsi zəruridir. Qeyd olunan məhkəmə işində iddiaçının özünə görə akademik dünyada tanınan soyadını istifadə etməsinin onun karyerasına əhəmiyyətli şəkildə təsir edə biləcəyini bildirirək, mövcud iddianın 8-ci maddənin əhatəsində olduğu bildirilmişdir. Məhkəmə bu işdə Konvensiyanın 14-cü maddəsində tənzimlənən ayrı-seçkiliyin qadağan olunması ilə mövzunu əlaqələndirərək, məsul dövlətin ərlərin soyadı məsələsində “tərəfsiz və məqbul ittihamın səlahiyyətini” təmin edə bilmədiyini qeyd etmiş və 8-ci maddənin

pozulduğuna qərar vermişdir.

Guillot Fransaya qarşı məhkəmə işində [6] 8-ci maddənin ön adlara tətbiq olunub-olunmayacağı qiymətləndirilmişdir. İddiaçı qızına "Fleur de Marie" adını vermək istəmişdir. Doğum, ölüm və evliliklərin qeydiyyatını aparan yerli orqanlar müqəddəs adların olduğu təqvimdə olmadığı üçün bu adı qeydiyyata almaqdan imtina etmişdir. Yerli orqanlar tərəfindən ön ad olaraq "Fleur-Marie" məsləhət verilmişdir. Cütlük bu vəziyyətin şəxsi və ailə həyatlarına hörmət hüququnun pozduğunu iddia etmişdir. Məhkəmə 8-ci maddənin pozulmadığına qərar vermiş və Fransız yerli orqanları iddia sahiblərinin "Fleur-Marie" adını qeydiyyata almalarına icazə vermişdir.

***Uşaq hüquqlarının qorunması üzrə poztiv öhdəliklər.*** W və başqaları İngiltərəyə qarşı məhkəmə işində [12] iddiaçı və həyat yoldaşının ailəvi problemləri mövcuddur. Bu səbəblə üçüncü oğlan uşaqlarını könüllü olaraq baxım üçün yerli səlahiyyətli orqanlara təslim etmişlər. Daha sonra yerli orqan valideynin razılığı olmadan uşağın qəyyumluğunu valideynlərindən almışdır. Övladlığa götürmə komissiyası yenə valideynə xəbər vermədən yerli orqanın qərarını təsdiqləmiş, uşağı övladlıq olaraq başqa bir ailəyə vermiş, iddiaçı və həyat yoldaşının uşaqla görüşünə məhdudiyyət qoymuşdur. Nəticə etibarilə sosial xidmət qurumu iddiaçı və həyat yoldaşının uşaqla görüşməsini tamamilə qadağan etmişdir. Bundan əlavə, qərara qarşı iddiaçı və həyat yoldaşı Ali Məhkəmədə iddia qaldırsa da, Ali Məhkəmə uşağın övladlığa götürən ailədə qalmasına qərar vermişdir.

Məhkəmə bu iş üzrə ailə həyatına hörmət hüququnun pozulmasına qərar vermiş və qərarda dövlətlərin ailə həyatına hörmət məsələsində pozitiv öhdəlikləri olduğunu bildirmişdir. Bu mənada uşaqların dövlətin müdafiəsi altına alınması və təbii valideynləri ilə görüşməsinin tənzimlənməsi ilə əlaqədar olaraq, verilən qərarların həssas və çox çətin qərar olduğu qəbul edilmiş, lakin yerli orqanların bu səlahiyyətindən istifadə edərkən sərt tətbiqin qəbul edilə bilməyəcəyi bildirilmişdir: "...Müəyyən edilməsi tələb edilən valideynlərin qərar vermə müddətinin hamısına maraqlarının müdafiəsi əsas şərtə riayət edəcək dərəcədə daxil edilib-edilmədikləridir. Edilməmişlərsə, ailə həyatlarına hörmət göstərilməmiş deməkdir və bu qərardan irəli gələn müdaxilə 8-ci maddədəki mənası ilə "məcburi" olaraq görülə bilməz."

Konvensiyanın 8-ci maddəsi əhatəsində ailə həyatına hörmət göstərmək valideynlərin təkrar bir yerə gətirilməsi məsələsində bir pozitiv öhdəlik təşkil edir. Bu öhdəlik, əsasən uşağın qulluğunu dövlət orqanına verən keçici əmrə artıq ehtiyac duyulmadığında meydana gəlir. Məhkəmə bu öhdəliyin yerinə yetirilməsi üçün zəruri saydığı vəziyyətlərdə uşağın dövlətin qulluğunda qalması və valideynlərin övladı ilə təkrar bir araya gəlməsi arasında ədalətli bir tarazlıq yaradılmalı olduğunu bildirmişdir. Məhkəmə bu tarazlığı formalaşdırmağa çalışarkən xüsusilə haqqında danışılan maraqların təbiətinə və ciddiliyinə görə valideynlərin maraqlarının qarşısına keçilə biləcək olan uşağın marağına daha çox əhəmiyyət verilməsini bildirmişdir.

Beləliklə, şəxsi həyatın toxunulmazlığı fərdin şəxsiyyətini inkişaf etdirmək və mənəvi dəyərlərini müdafiə altına almaq üçün başqaları tərəfindən bilinməsini istəmədiyi halların yaratdığı və qorunması hüquqi baxımdan zəruri olan həyat fəaliyyəti üzərindəki əsas şəxsi hüququdur. Ona görə də pozitiv öhdəliklərin yerinə yetirilməsi zamanı bu məqamlar nəzərə alınmalıdır. Ümumilikdə, insan hüquqları məsələsində dövlətin neqativ sahədə "şaquli" öhdəliyini yerinə yetirməsi ilə yanaşı, pozitiv, yəni "üfüqi" öhdəliklərinin də tənzimlənməsi əsl vəzifə olaraq qəbul edilməkdədir. Analoji öhdəliklər Azərbaycan Respublikasının qanunvericiliyində də öz əksini tapmaqdadır. Bu cür pozitiv öhdəliklər həm dövlətin informasiya siyasətinin istiqamətlərinə daxildir, həm də müxtəlif təhlükəsizlik məsələlərinin tənzimlənməsi zamanı meydana çıxır. Belə ki, fərdi məlumatlardan məsul olan şəxsin fərdi məlumatların təhlükəsizliyinə qarşı öhdəlikləri "Fərdi Məlumatlar haqqında" Qanunun 5-ci maddəsində tənzimlənmişdir. Qanunda qeyd edilir ki, fərdi məlumatlar toplanıldığı andan mühafizə olunur və bu məqsədlə daxilolma (əldə olunma) növünə görə konfidensial və açıq kateqoriyalara bölünür. Konfidensial fərdi məlumatlar qanunvericilikdə nəzərdə tutulmuş tələblərə uyğun səviyyədə mülkiyyətçi, operator və bu məlumatlara giriş hüququ olan istifadəçilər tərəfindən mühafizə olunmalıdır. Konfidensial fərdi məlumatlar qanunla müəyyən olunmuş hallar istisna olmaqla, üçüncü şəxslərə yalnız subyektin razılığı əsasında verilə bilər. Açıq fərdi məlumatlar kateqoriyasına müəyyən olunmuş qaydada adsızlaşdırılmış, subyekt tərəfindən açıq elan olunmuş və ya ümumi istifadə üçün yaradılmış informasiya sisteminə subyektin razılığı ilə onun barəsində daxil edilmiş məlumatlar aiddir. Şəxsin adı, soyadı və atasının adı daimi açıq fərdi məlumatdır. Xüsusi kateqoriyalı məlumatlar, onların xüsusiyyəti nəzərə alınmaqla, konfidensial, həm də açıq fərdi məlumatlar kateqoriyasına aid edilə bilər. Fərdi məlumatların mühafizəsi mülkiyyətçilər və operatorlar tərəfindən təmin olunmalıdır. Fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi sahəsində fəaliyyət göstərən fiziki şəxslər fəaliyyət müddətində və işdən çıxdıqdan sonra həmin məlumatların yayılmaması barədə yazılı iltizam verməlidirlər. Telekommunikasiya, poçt rabitəsi, ünvan və digər sahələr üzrə cəmiyyətin informasiya təminatını ödəmək məqsədilə ümumi istifadəli informasiya sistemlərinə subyektin yazılı razılığı əsasında onun təqdim etdiyi məlumatlar (adı, soyadı, atasının adı, doğulduğu tarix və yer, cinsi, vətəndaşlığı, telefon nömrəsi və elektron ünvanı, yaşadığı və olduğu yer, ixtisası və iş yeri, məşğul olduğu fəaliyyət növü, ailə vəziyyəti, şəkli və digər məlumatlar) daxil edilə bilər. Fərdi məlumatlar ümumi istifadəli informasiya sistemlərinə açıq mənbələrdən daxil edildikdə, həmin informasiya sisteminin operatoru daxil edilən məlumatların tərkibini və əldə edilmə mənbəyini subyektə bildirməlidir. Bu məlumatlar subyektin, məhkəmənin və ya müvafiq icra hakimiyyəti orqanının yazılı tələbi ilə həmin informasiya sistemindən təxirə salınmadan çıxarılmalıdır. Mülkiyyətçi və ya operator fərdi məlumatların mühafizəsinin (o cümlədən təsadüfi və icazəsiz məhv edilməsinin, itirilməsinin, qanunsuz müdaxilənin, dəyişdirilməsinin və digər halların qarşısının alınmasının) təmin edilməsinə zəmanət verən texniki-təşkilati tədbirlər görməlidir. Fərdi məlumatların mühafizəsinə dair tələblər müvafiq icra

hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. Fərdi məlumatların arxivləşdirilməsinə aid qaydalar Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir. Qanunun 6-cı maddəsi isə fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi sahəsində dövlət tənzimləməsinin əsas formalarını müəyyənləşdirir. Maddədə fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi sahəsində dövlət tənzimləməsi tədbirləri kimi milli informasiya məkanının fərdi məlumatlar bölümünün formalaşdırılması və onun təhlükəsizliyinin təmin olunması, bu sahədə təhdidlərin və mühafizə səviyyəsinin qiymətləndirilməsi, fərdi məlumatların toplanılmasının və işlənilməsinin hüquqi əsaslarının müəyyən edilməsi, fərdi məlumatların toplanılması və işlənilməsi zamanı əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi, fərdi məlumatların toplanılması və işlənilməsi üzrə fəaliyyətin lisenziyalaşdırılması, fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatının aparılması, fərdi məlumatların informasiya sistemlərinin, habelə müvafiq informasiya texnologiyaları vasitələrinin sertifikatlaşdırılması, fərdi məlumatların informasiya sistemlərinin yaradılması və tətbiq edilməsi sahəsində hüquqi və texniki sənədləşdirmənin standartlaşdırılması, fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin və onların layihə sənədlərinin dövlət ekspertizasının həyata keçirilməsi, dövlət idarələrarası fərdi məlumatların informasiya sistemlərinin yaradılması və idarə edilməsi sahəsində dövlət tənzimləməsi göstərilmişdir.

**ƏDƏBİYYAT**


1. Article 29 Data Protection Working Party. Opinion 15/2011 on the definition of consent, 01197/EN WP187, 13.07.2011. http://ec.europa.eu/justice/policies/privacy/docs/wpdocs/2011 /wp187 en.pdf
2. *Burghartz v.* Switzerland. 16213/90, Council of Europe: European Court of Human Rights, 22 February 1994. https://hudoc.echr.coe.int/fre?i=001-57865
3. Funke v. France. 10828/84, Council of Europe: European Court of Human Rights, 25 February 1993. https://hudoc.echr.coe.int/tur#{%22itemid%22:[%22001-57809%22]}
4. Gaskin v. United Kingdom. 10454/83, Council of Europe: European Court of Human Rights, 7 July 1989. https://swarb.co.uk/gaskin-v-the-united-kingdom-echr-7-jul-1989/
5. Guerra and Others v. Italy. 116/1996/735/932, Council of Europe: European Court of Human Rights, 19 February 1998. http://www.hrcr.org/safrica/environmental/guerra italy.html
6. Guillot v. France. 52/1995/558/644, Council of Europe: European Court of Human Rights, 24 October 1996. http://www.worldcourts.com/hrc/eng/decisions/2002.07.15_Gillot_v_France.htm
7. Lucas Bergkamp – Jan Dhont. Data Protection in Europe and the Internet: An Analysis of the European Community's Privacy Legislation in the Context of the World Wide Web // The EDI Law Review, 2000, No. 7, p.74.
8. Mowbray Alastair. The Development of Positive Obligations under the European Convention on Human Rights by the European Court of Human Rights. Hart Publishing, Oxford, 2004, p. 128.
9. Safe Harbor Privacy Principles. https://www.enisa.europa.eu/topics/threat-risk-management /risk-management/current-risk/laws-regulation/data-protection-privacy/safe-harbor-privacy-principles
10. Steiner H.J., Alston P. İntenational Human Rights in Context, Oxford University Press 2. Edition Oxford, 2000, pp. 180-181.
11. Shue Henry. Basic Rights: Subsistence, Affluence, and US Foreign Policy, Princeton University Press, Second Edition, Princeton, New Jersey, 1996, 236 p.
12. W v. the United Kingdom. 9749/82, Council of Europe: European Court of Human Rights, 8 July 1987. https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57600%22]}

13. Walden Ian. Anonymising Personal Data // International Journal of Law and Information Technology, 2002, C.10, S.2, pp. 224-237.
14. X and Y v. the Netherlands. 8978/80, Council of Europe: European Court of Human Rights, 25 March 1985. https://www.coe.int/t/dg2/equality/domesticviolencecampaign/resources/x%20and%20y%20v%20the%20netherlands_EN.asp

## ЛИЧНАЯ ИНФОРМАЦИЯ И СМЕЖНЫЕ ПРАВА; ЗАЩИТА ПЕРСОНАЛЬНЫХ ДАННЫХ

**А.Н.ИБРАГИМОВА**

### РЕЗЮМЕ

Права субъекта данных в отношении персональных данных определяются в зависимости от этапов информационного процесса, связанного с персональными данными. При этом на этих этапах уточняются права и обязанности владельцев информации. ра правильнее интерпретировать последовательность информационных процессов, связанных с персональными данными. Мы можем назвать это «правовым режимом персональных данных» или «жизненным циклом персональных данных». Хотя Закон Азербайджанской Республики «О персональных данных» определяет различные операции и процессы, связанные с персональными данными, единое понятие, охватывающее этот процесс, не используется.

**Ключевые слова:** персональные данные, связанная информация, защита персональных данных, обязательства государства в области защиты персональных данных.

## PERSONAL INFORMATION AND RELATED RIGHTS; PROTECTION OF PERSONAL DATA

**A.N.IBRAHIMOVA**

### SUMMARY

The rights of the data subject regarding personal data are determined depending on the stages of the information process related to personal data. At the same time, the rights and responsibilities of information owners are specified at these stages. Therefore, it is more appropriate to interpret the sequence of information processes related to personal data. We can call this the "legal regime of personal data" or the "life cycle of personal data." Although the Law of the Republic of Azerbaijan “On Personal Data” defines various operations and processes related to personal data, a single concept covering this process has not been used.

**Keywords:** personal data, related information, protection of personal data, obligations of the state in the protection of personal data

**UOT 35107/.08**
**UOT 342.9.07**

# DÖVLƏT İDARƏÇİLİYİNDƏ İSLAHATLAR VƏ DÖVLƏT QULLUĞU SİSTEMİNİN FORMALAŞDIRILMASININ MÜASİR İNNOVATİV METODLARI

**R.Z.RƏHİMLİ**
***Azərbaycan Respublikasının Prezidenti yanında***
***Dövlət İdarəçilik Akademiyası***
***rehimli@yahoo.com***

*Məqalədə Azərbaycanda dövlət idarəçilik sistemində islahatlar, dövlət qulluğu sisteminin formalaşdırılması, hüquqi bazasının yaradılması və bu sahədə aparılan islahatlardan bəhs olunur. Eyni zamanda dövlət qulluğu sahəsindəki islahatları sürətləndirmək, dövlət qulluğunu daha yaxşı təşkil etmək məqsədilə həyata keçirilən layihələrin və dövlət proqramlarının reallaşması nəticəsində əldə olunmuş nailiyyətlər təhlil edilmişdir. Məqalədə həmçinin, dövlət qulluğunun təkmilləşdirilməsi məqsədilə yaradılmış mərkəzlərin fəaliyyəti, dövlət qulluqçularının qiymətləndirilməsinin yeni qaydaları və dövlət idarəçiliyində islahatların əsasını formalaşdırılan milli prioritetlər ətraflı incələnmiş və gələcəkdə dövlət qulluğu sisteminin təkmilləşdirilməsi sahəsində aparılacaq islahatların mühüm istiqamətləri qeyd edilmişdir.*

**Açar sözlər:** dövlət idarəçiliyi, dövlət qulluğu sistemi, qiymətləndirmə, dövlət qulluğunda islahatlar, dövlət qulluqçularının qiymətləndirilməsi

Respublikamız yenidən müstəqillik qazandıqdan sonra ölkəmizdə müasir dünyada qəbul edilmiş dövlət idarəetmə sistemlərinə uyğun milli dövlət quruculuğu istiqamətində islahatların həyata keçirilməsinə ehtiyac duyulurdu. Yetmiş il ölkədə mövcud olmuş sovet dövlət aparatının yerində müstəqil Azərbaycanın dövlət idarəçilik aparatı formalaşmağa və ölkə həyatının bütün sahələrində islahatlar prosesinə başlanıldı. İslahatlar yalnız sosial-iqtisadi sahəni deyil, həm də inzibati idarəçilik sistemini əhatə etdi. İnzibati islahatların həyata keçirilməsi və xüsusən də dövlət qulluğunda islahatların aparılması yalnız dövlət quruculuğunun həyata keçirilməsi zərurəti ilə deyil, həm də qlobal tendensiyaların təsiri ilə şərtləndirildi.

Tarixə nəzər salsaq görərik ki, **hər bir** xalqın və dövlətin inkişafında milli liderlərin müstəsna xidmətləri olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmizin sosial-iqtisadi, siyasi, hərbi və mədəni in-

kişafında misilsiz xidmətləri vardır. Heydər Əliyev Azərbaycanda dövlət idarəçilik sistemini formalaşdırdı, onun hüquqi bazasını və gələcək perspektivlərini müəyyən etdi. Aşağıdakı sxemdən də göründüyü kimi ölkəmizdə güclü dövlətin formalaşdırılması üçün məqsədlərə hədəflənmiş, balanslaşdırılmış və mövcud şəraitə uyğun düzgün strategiya sərgiləyərək məntiqli və əsaslandırılmış daxili və xarici siyasətin həyata keçirilməsi təmin edilmiş və dövlət idarəçiliyində islahatların prioritet istiqamətləri müəyyənləşdirilmişdir. Heydər Əliyev yolunun layiqli davamçısı Prezident İlham Əliyevin müasir Azərbaycanın dövlət idarəçiliyində innovativ və yeni hibrid idarəçilik metodlarının tətbiq etməsi nəticəsində ölkəmiz  az bir zamanda dünyanın aparıcı ölkələri ilə bir sırada, bəzi hallarda isə onlardan da ön sıralarda qərarlaşdı.




**Sxem 1.** Dövlət idarəçiliyində həyata keçirilən islahatların əsas istiqamətləri

1995-ci ildə qəbul olunan Konstitusiya əsasında Azərbaycanda müasir, səmərəli dövlət qulluğu sisteminin yaradılması siyasəti strateji prioritet elan edildi və bu sahədə daha sürətli mütərəqqi inkişafı təmin etmək məqsədilə 1996-cı ildə Hüquqi İslahat Komissiyası, 1998-ci ildə isə Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradıldı. Bu Komissiyalar bilavasitə dövlət idarəçiliyi sisteminin inkişafı, dövlət qulluğu sisteminin təşkili və təkmilləşdirilməsi, dövlət qulluqçularının sosial müdafiəsinin təmin olunması istiqamətində normativ-hüquqi aktların işlənib hazırlanması ilə bağlı mühüm işlər gördü. Belə ki, Azərbaycanda dövlət idarəetməsinin mühüm ins-

titutlarından biri olan dövlət qulluğu sisteminin formalaşması istiqamətində əsaslı addımlar atıldı, dövlət aparatı təkmilləşdirildi, dövlətin məqsəd və funksiyalarını icra etməyə, iqtisadiyyatın səmərəliliyini artırmağa, vətəndaş cəmiyyətinin inkişafına yönəlmiş demokratik, dünyəvi dövlət quruluşuna müvafiq dövlət qulluğu institutu yaradıldı. Dövlətin səmərəli fəaliyyətini təmin etmək üçün yüksək ixtisaslı mütəxəssislərdən ibarət dövlət qulluqçularının hazırlanmasına da ehtiyac duyulurdu. Bu məqsədlə dövlət idarəçilik sahəsi üçün mütəxəssis hazırlanması işinin müasir tələblərə uyğun qurulması üçün 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradıldı. Ölkədə ilk dəfə Prezident yanında yaradılan bu təhsil müəssisəsinin üzərinə Azərbaycan Respublikasında dövlət qulluqçularının hazırlanması və əlavə təhsilinin həyata keçirilməsi kimi həlli vacib olan məsələlər qoyuldu. Sonrakı illərdə ölkə Prezidenti İlham Əliyev tərəfindən Akademiyanın fəaliyyətinin daha da təkmilləşdirilməsi məqsədilə Fərmanlar imzalandı. 2014-cü il 11 dekabr və 2017-ci il 22 sentyabr tarixlərində imzalanan Fərmanlarda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası dövlət qulluqçuları üçün ixtisasartırma və yenidənhazırlanma növləri üzrə əlavə təhsilinin təşkili, dövlət idarəçiliyi və icra hakimiyyəti orqanları üçün müvafiq ixtisaslar üzrə mütəxəssis hazırlığını və əlavə təhsili həyata keçirən aparıcı tədris, metodik, elm və analitik informasiya mərkəzi kimi dəyərləndirilmişdir.

Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının fəaliyyəti nəticəsində 2000-ci il iyulun 21-də "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu Qanun Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsasını qoydu, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yerini və onların hüquq və vəzifələrini müəyyənləşdirdi. Azərbaycanda Avropa Birliyinin TACIS (Technical Assistance for the Commonwealth of Independent States, Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım) Proqramı çərçivəsində dövlət qulluğu sahəsində islahatlara yardım üzrə layihənin icrasına başlanıldı və davam etdiyi 2 il müddətində ölkəmizdə dövlət qulluğu və inzibati islahatların həyata keçirilməsi üzrə konsepsiya hazırlandı. 2003-cü ildə İnzibati və yardımçı vəzifələrin təsnifat toplusunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı da imzalandı. Fərmanla Azərbaycan Respublikası Prezidentinin nomenklaturuna aid edilən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aparatlarında işləyən dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi təmin edildi. Bundan əlavə 2003-cü ildə "Dövlət qulluqçuları üçün bəzi təminatlar haqqında", 2004-cü ildə isə "Dövlət qulluqçularının pensiya təminatı haqqında" Fərmanlar imzalandı. Dövlət qulluğu sahəsindəki islahatları sürətləndirmək, dövlət qulluğunu daha yaxşı təşkil etmək məqsədilə 2005-ci ildə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradıldı. Komissiyanın əsas fəaliyyət istiqaməti Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsinə müva-

fiq olaraq vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququnun həyata keçirilməsi üçün dövlət qulluğuna qəbulun bərabərlik, şəffaflıq və müsabiqə əsasında keçirilməsi ilə bağlı idi. (Ölkə başçısının 2016-cı il 11 aprel tarixli Fərmanı ilə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ləğv olunaraq yeni yaradılan Dövlət İmtahan Mərkəzinin tərkibinə daxil edildi). Eyni zamanda 2006-cı ildə "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinin aparılması qaydaları", "Azərbaycan Respublikasının dövlət orqanlarında dövlət qulluğunun rəhbər vəzifələrinin tutulması üçün ehtiyat kadrların formalaşdırılması qaydaları", 2007-ci ildə isə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunlar qəbul edildi. Bu Qanun dövlət qulluqçuları üçün etik davranış qaydalarını və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmlərini müəyyənləşdirdi.

Dövlət idarəçiliyi fəaliyyətinin nəticələrinin proqnozlaşdırılması daha optimal nəticələrin əldə olunmasına hesablanmış tədbirlərin həyata keçirilməsini və insan resurslarından daha düzgün istifadə mexanizmlərinin işlənib hazırlanmasını asanlaşdırır. Belə ki, dövlət idarəçiliyində islahatlar həyata keçirilərkən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)", eləcə də informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı qəbul edilən digər normativ hüquqi aktlar əsasında dövlət orqanlarının əhaliyə beynəlxalq standartlara uyğun elektron xidmətlər göstərməsi sahəsində hüquqi baza formalaşdırıldı. Modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün əhaliyə elektron xidmətlərin göstərilməsinə başlanıldı və qısa zaman kəsiyində bu xidmətlər geniş vüsət aldı. Azərbaycan Respublikasında "elektron hökumət"lə bağlı ideya ilk dəfə olaraq "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" sənədində ifadə olunub. 2004-cü ildə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (indiki Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi) məhz bu mühüm strategiyanın həyata keçirilməsi üçün yaradıldı. Belə ki, nazirlik "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyası"nın həyata keçirilməsi istiqamətində 2005-2008-ci illər və 2010-2012-ci illər üçün "Elektron Azərbaycan" Dövlət proqramlarını reallaşdırıb [7]. Bu proqramlar informasiya cəmiyyətinin formalaşdırılması və elektron hökumət quruculuğu istiqamətində mühüm addım olmaqla, Azərbaycanda dövlət qulluğu sistemində innovasiyaların tətbiqi baxımından olduqca əhəmiyyətli idi. Dövlət qulluğunun müasirləşdirilməsi, şəffaflığın artırılması və idarəetmədə yeni fəaliyyət üslubunun formalaşdırılması istiqamətində mühüm tədbirlərdən biri də Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması oldu. Agentliyin nəzdində

isə "ASAN xidmət" mərkəzləri yaradıldı. Mərkəzlərin yaradılmasında məqsəd dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zəruriliyini nəzərə alaraq, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsi, elektron xidmətlərə keçidin sürətləndirilməsi idi. Artıq bu gün Azərbaycanda 21 "ASAN xidmət" mərkəzi vətəndaşlara yüksək keyfiyyətli dövlət və sosial xidmətlər göstərir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də Dövlət Agentliyinə aid olan tədbirlərin icrasına uyğun olaraq Agentliyin 2022-2024-cü illəri əhtə edən Strateji Planı hazırlanmışdır. Mövcud Strateji Planın fəaliyyət istiqamətləri Birləşmiş Millətlər Təşkilatının 2015-2030-cu illəri əhatə edən Davamlı İnkişaf Məqsədlərində müəyyən edilən 8-ci (İnklüziv və davamlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək), 9-cu (Möhkəm infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyaların inkişafına dəstək vermək), 16-cı (Ədalətli, sülhsevər və açıq cəmiyyətləri təşviq etmək) və 17-ci (Davamlı inkişaf üçün qlobal əməkdaşlığı canlandırmaq) məqsədlərinə uyğun formalaşdırılmışdır. Strateji Plan Dövlət Agentliyinin funksiyalarına uyğun olaraq innovasiyaların və qabaqcıl təcrübələrin tətbiqi ilə dövlət xidmətlərini davamlı inkişaf etdirməyə və vətəndaşların sosial, iqtisadi və ictimai rifahının yaxşılaşdırılmasına yönəlmişdir. Dövlət Agentliyi fəaliyyətini təkmil idarəçilik (good goverence) metodları əsasında formalaşdırır, əsasnaməsi və digər normativ hüquqi aktlarla ona həvalə olunmuş vəzifə və funksiyalara uyğun olaraq fəaliyyətini təşkil edir [9].

Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycanda dövlət qulluğu sisteminin formalaşdırılması istiqamətində aparılan islahatlardan biri də dövlət qulluğuna kadrların seçilməsi prosesinin təkmilləşdirilməsi olmuşdur. Belə ki, 2016-cı ildə Azərbaycanda dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi və digər məsələlərin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi yaradıldı. Mərkəzə dövlət qulluğu sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək, dövlət qulluğuna dair qanunvericiliyin icra vəziyyətini öyrənmək, dövlət qulluğu məsələləri üzrə beynəlxalq əməkdaşlığı həyata keçirmək, dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl edilməsi vəziyyətini öyrənmək, dövlət qulluqçularının reyestrini aparmaq və s. məsələlər həvalə edildi.

Dövlət idarəetməsinin mühüm institutlarından biri olan dövlət qulluğu sisteminin inkişaf etdirilməsi məqsədilə əsas hədəfləri və bu hədəflərə çatmaq üçün orta və uzun müddəti əhatə edən çoxşaxəli, ardıcıl, mərhələli tədbirləri

müəyyənləşdirmək məqsədilə 23 noyabr 2018-ci il tarixində Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" təsdiq edildi. Strategiyanın əsas məqsədi dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunu formalaşdırmaqla dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır. Strategiya dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi, dövlət qulluğunun informasiya təminatının yaxşılaşdırılması sahəsində və bir sıra əlaqəli sahələrdə əsaslı islahatların həyata keçirilməsini nəzərdə tutur. Strategiyanın icrası 2019-2021-ci və 2022-2025-ci illəri əhatə edən iki fəaliyyət planının həyata keçirilməsi ilə təmin edilmişdir. Fəaliyyət planları strategiyada nəzərdə tutulan əsas inkişaf istiqamətləri üzrə müvafiq hədəfləri, həmin hədəflərə çatmaq üçün həyata keçirilməsi tələb olunan konkret tədbirləri, icraçıları və müddətləri özündə əks etdirmişdir. Bu strategiyanın icrasının təmin olunması məqsədilə dövlət qulluqçularının rotasiya qaydalarının layihəsi hazırlanmışdır. Eyni zamanda strategiyada müəyyən olunmuş plan üzrə 2020-2021-ci tədris ilində Dövlət İdarəçilik Akademiyasında dövlət qulluqçularının əlavə təhsilinin təşkili və peşə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə rəhbər vəzifəli və digər dövlət qulluqçularının fasiləsiz təhsilinin təşkili çərçivəsində müxtəlif müddətli fokus qruplar üçün ən son yeniliklər əsasında daim yenilənən və distant formada təşkili mümkün olan təlimlər paketi formalaşdırılmışdır. Təlimlər fokus auditoriyasının xüsusiyyətləri nəzərə alınaraq distant, interaktiv formada, qısa və uzunmüddətli, tanınmış milli və xarici ekspertlərin iştirakı ilə keçirilmişdir. Təlimlərin səmərəliliyini artırmaq məqsədi ilə ayrı-ayrı nazirlik və dövlət qurumlarının maraqlı olduqları istiqamətlər müəyyən edilmiş, 2000-dən çox dövlət qulluqçuları arasında aparılan sorğu əsasında alınan nəticələr müəyyənləşdirilmiş istiqamətlər üzrə iş proqramlarının tərtibində nəzərə alınmışdır.

Dövlət qulluğu sahəsində aparılan islahatlardan biri də dövlət qulluqçuları haqqında məlumatların toplanması, təzələnməsi və təhlil edilməsi, onların qulluqda yüksəliş yolu ilə seçilməsi, yerləşdirilməsi, ixtisas dərəcələrinin artırılması məsələlərinin və dövlət qulluğu ilə bağlı digər məsələlərin həllində məlumatlardan istifadə edilməsidir. Bu məqsədlə "Dövlət Reyestri" elektron məlumat sistemi yaradılmışdır. Dövlət Reyestri Prezident Administrasiyası və DİM tərəfindən aparılır. Reyestr dövlət qulluqçuları haqqında informasiya resursu olmaqla mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, reyestr statistik məlumatların əldə edilməsi və müxtəlif təhlillərin aparılması üçün vacib bir alətdir [12].

Dövlət qulluğunda tətbiq olunan innovativ metodlardan biri də Azərbaycanda kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin

müəyyən edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Yüksəliş" müsabiqəsinin təsis edilməsi olmuşdur. "Yüksəliş" müsabiqəsi yeni nəsil idarəçiləri, liderlik müstəvisində proqressiv düşüncə, çevik idarəçilik bacarıqlarına malik peşəkarları aşkara çıxarmaq, onların potensialını lazımi sahələrə yönləndirmək, eyni zamanda, peşəkar kadrların dəyərləndirilməsi və dəstəklənməsi baxımından ölkəmiz üçün böyük əhəmiyyətli müsabiqədir. 2021-ci ilin 10-11 iyul tarixlərində "Yüksəliş" müsabiqəsinin final mərhələsinə iştirak hüququ qazanmış 112 nəfər iştirakçıdan 27-si qalib elan olunmuş və hər birinə 20 min manat məbləğində qrant təqdim edilmişdir.

Bu gün Azərbaycanda dövlət qulluqçularının sayı respublikada məşğul əhalinin cəmi altı faizini təşkil edir. Dövət Statistika Komitəsinin 2021-ci il yanvarın 1-nə olan məlumatına görə ölkədə dövlət qulluqçularının sayı 26,7 min nəfərdir. Onlardan 72, 5 faizini kişilər, 27,5 faizini qadınlar təşkil edir.




**Sxem 2.** 2021-ci ilin yanvar ayının 1-ci vəziyyətinə dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin cins üzrə bölgüsü, faizlə. *Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi "Dövlət qulluqçuları" rəsmi nəşr, Statistik məcmuə, Bakı-2021, s. 23.*

Dövlət qulluqçularının 6,3 faizi 1 ilə qədər, 25,2 faizi 1 ildən 5 ilədək, 24,4 faizi 5 ildən 10 ilədək, 17,8 faizi 10 ildən 15 ilədək, 26,3 faizi isə 15 il və daha çox qulluq stajına malikdir.

Dövlət qulluqçularının 2,7 faizini 25 yaşadək, 13,7 faizini 25-29 yaşda, 16,8 faizini 30-34 yaşda, 14,8 faizini 35-39 yaşda, 12,3 faizini 40-44 yaşda, 9,1 faizini 45-49 yaşda, 8,7 faizini 50-54 yaşda, 10,9 faizini 55-59 yaşda, 9,2 faizini 60-64 yaşda, 1,8 faizini 65 və yuxarı yaşda olan şəxslər təşkil edir.

2021-ci ildə dövlət qulluqçularının 6,4 faizi dövlət orqanlarında inzibati vəzifələrin ali - 3-cü təsnifatları, 3,5 fazi 4-cü təsnifatı, 12,3 faizi 5-ci təsnifatı, 8,4 faizi 6-cı təsnifatı, 48,8 faizi-7-ci təsnifatı, 20,6 faizi isə dövlət gulluğunun yardımçı vəzifələri üzrə işləmişlər.

Dünyanın inkişaf etmiş ölkələrində istifadə olunan dövlət qulluğu vəzifələrinin funksiyalarının məzmununa görə qruplaşdırılması prosesi Azərbaycan dövlət qulluğu sistemində də tətbiq olunmaqdadır. Xüsusən dövlət qulluğu

vəzifələrinə seçim zamanı “Qiymətləndirmə Mərkəzi” adlanan alətdən istifadə burada mühüm rol oynayır. Qiymətləndirmə mərkəzi test və müsahibələrlə yanaşı, müxtəlif səriştələrin qiymətləndirilməsi üçün praktiki tapşırıqları, təqdimatları və digər seçim alətlərini özündə ehtiva edir. Bu isə öz növbəsində Azərbaycanda dövlət qulluğuna kadrların seçilməsi sahəsində innovasiyaların tətbiqi və dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsində mühüm rol oynayır.




**Sxem 3.** 2021-ci il yanvarın 1-nə dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin yaş qruplarına görə bölgüsü, yekuna görə. *Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi “Dövlət qulluqçuları” rəsmi nəşr, Statistik məcmuə, Bakı-2021, s. 20.*




**Sxem 4.** 2021-ci il yanvarın 1-nə dövlət qulluğunun təsnifatları üzrə inzibati və yardımçı vəzifələr tutmuş işçilərin bölgüsü, yekuna görə. *Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi “Dövlət qulluqçuları” rəsmi nəşr, Statistik məcmuə, Bakı-2021, s. 13.*

Dövlət qulluğunda innovativ metodların tətbiqi sahələrindən biri də dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsidir. Xidməti fəaliyyətin qiymətləndirilməsi insan resurslarının effektiv idarə edilməsinin mühüm institutlarından olub nəticələrindən əməkdaşların gələcək inkişafının və təlim ehtiyaclarının müəyyən edilməsi, habelə vəzifədə irəli çəkilmə, rotasiya, həmçinin motivasiya barədə qərarların qəbul edilməsində istifadə edilir. Bu aspektdən baxanda dövlət qulluqçularının qiymətləndirilməsi ilə əlaqədar 2014-cü ildən etibarən Azərbaycan Respublikasında həyata keçirilən prosesi təkmilləşdirmək məqsədilə Nazirlər Kabinetinin 06 aprel 2021-ci il tarixli “Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Qərarı mühüm əhəmiyyət kəsb edir. Yeni Qaydalara əsasən dövlət qulluqçusunun cari fəaliyyətinə nəzarətin həyata keçirilməsi, onun potensial imkanlarının aşkara çıxarılması və həmin imkanlardan səmərəli istifadə edilməsi, dövlət qulluqçusunun peşə səriştəliyini artırmağa stimullaşdırılması və onun əlavə təhsilə ehtiyacının, habelə tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi məqsədilə “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 30-1.1-ci maddəsinə əsasən onun xidməti fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilir. Qaydalara əsasən Ali kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ali-üçüncü təsnifatlarına uyğun dövlət qulluğu vəzifələrini tutan dövlət qulluqçularının, stajçı kimi və sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxslərin, habelə təqvim ilinin sonunadək müvafiq vəzifədə faktiki olaraq 6 (altı) aydan az müddətdə qulluq keçən dövlət qulluqçularının xidməti fəaliyyəti qiymətləndirilmir. Yeni Qaydalara görə dövlət qulluqçusunun fəaliyyət səmərəliliyi bilavasitə rəhbəri tərəfindən hər ilin yanvarın 1-dən dekabrın 31-dək olan dövrü əhatə edən müddət ərzində qiymətləndirilir.

Dövlət qulluqçusunun il ərzində xidməti fəaliyyəti aşağıdakı meyarlar üzrə qiymətləndirilir:




Rəhbər vəzifə tutan dövlət qulluqçularının fəaliyyəti bu Qaydanın 4.7-ci bəndində göstərilənlərə əlavə olaraq, aşağıdakı meyarlar əsasında qiymətləndirilir:




Dövlət orqanının rəhbəri tərəfindən qiymətləndirilmənin nəticəsi əsasında dövlət qulluqçusu mükafatlandırıla və ya vaxtından əvvəl ixtisas dərəcəsi verilə bilər, dövlət qulluqçusunun fəaliyyətinin və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə əlavə təhsilə və ya xüsusi təlimlərə cəlb edilə bilər, qiymətləndirilmə zamanı aşağı qiymət alıbsa və növbəti qiymətləndirmə zamanı göstəricilər dəyişməyibsə dövlət qulluqçusunun bilik və bacarıqlarına uyğun digər analoji vəzifəyə və ya aşağı inzibati vəzifəyə keçirilə bilər [15].

Qeyd etdiyimiz kimi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30-1-ci maddəsinə əsasən, inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyəti hər ilin sonunda qiymətləndirilir. 2020-ci ildə də dövlət orqanlarında xidməti fəaliyyətin qiymətləndirilməsi həyata keçirilmişdir. Mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan orqanlar, yerli icra hakimiyyəti orqanları və məhkəmələr üzrə inzibati vəzifələrin üçüncü-yeddinci təsnifatlarına uyğun olan inzibati vəzifə tutan 11261 dövlət qulluqçusunun xidməti fəaliyyəti qiymətləndirilmiş, onlardan 2228-nin fəaliyyəti əla, 6603-nün fəaliyyəti yaxşı, 2395-nin fəaliyyəti qənaətbəxş, 35-nin fəaliyyəti isə qeyri-qənaətbəxş qiymətləndirilmişdir. Xidməti fəaliyyətin qiymətləndirilməsi üzrə aşağıdakı cədvəldə daha geniş məlumat verilmişdir.




**Diaqram 1.** *Mənbə: http://dim.gov.az/center/hesabatlar/ Müraciət vaxtı: 11 avqust 2021-ci il.*

Xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticəsinə uyğun olaraq 63 dövlət qulluqçusu rəhbər vəzifələrin tutulması məqsədilə ehtiyat kadrlar siyahısına daxil edilmiş, 11 dövlət qulluqçusuna vəzifə maaşının 1 misli, 6 dövlət qulluqçusuna qiymətli hədiyyələr, 6 dövlət qulluqçusuna isə növbəti ixtisas dərəcəsi verilməsi üçün müvafiq təqdimat verilmişdir.

2020-ci ildə dövlət qulluqçularının etik davranış qaydalarına əməl edilməsi vəziyyəti barədə diaqrama nəzər salaq:




**Diaqram 2.** Mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumları üzrə tətbiq edilmiş intizam tənbeh tədbirləri. *Mənbə: http://dim.gov.az/center/hesabatlar/ Müraciət vaxtı: 11.08.2021-ci il.*

Diaqram 2-də gördüyümüz kimi mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumlarında tətbiq edilmiş 1245 intizam tənbeh tədbirindən 887-si töhmət, 304-ü dövlət qulluğundan azad edilmə, 34-ü vəzifə maaşının azadılması, 11-i ixtisas dərəcəsinin bir pillə aşağı salınması, 4-ü həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilmə, 3-ü daha aşağı təsnifatdan olan vəzifəyə keçirilmə olmuşdur. Ümumilikdə 2020-ci ildə «Dövlət qulluqçularının etik davranış qaydaları haqqında» Azərbaycan Respublikasının Qanununun müddəalarının tələblərini pozan 1245 dövlət qulluqçusu barədə intizam tənbeh tədbiri tətbiq edilmişdir. Həmin intizam tənbeh tədbirlərindən 1044-ü mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət qurumlarında, 201-i isə yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları barədə tətbiq edilmişdir.




**Diaqram 3.** Mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumları üzrə pozulmuş etik davranış qaydaları. *Mənbə: http://dim.gov.az/center/hesabatlar/ Müraciət vaxtı: 11.08.2021-ci il.*

Diaqram 3-də isə görürük ki, mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumlarında qulluq keçən dövlət qulluqçularına tətbiq edilən intizam tənbeh tədbirlərinin təhlili zamanı müəyyən olunmuşdur ki, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun 4-cü (Vicdanlı davranış) maddəsinin tələblərinin pozulması üzrə 10, 5-ci (Peşəkarlıq və fərdi məsuliyyətin artırılması) maddəsinin tələblərinin pozulması üzrə 370, 6-cı (Loyallıq) maddəsinin tələblərinin pozulması üzrə 20, 8-ci (İnsanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət. Hüquqi şəxslərin işgüzar nüfuzuna hörmət) maddəsinin tələblərinin pozulması üzrə 150, 9-cu (Mədəni davranış) maddəsinin tələblərinin pozulması üzrə 5, 10-cu (Əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməsi) maddəsinin tələblərinin pozulması üzrə 453, 11-ci (Qərəzsizlik) maddəsinin tələblərinin pozulması üzrə 2, 12-ci (Maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi) maddəsinin tələblərinin pozulması üzrə 110, 13-cü (Korrupsiyanın qarşısının alınması) maddəsinin tələblərinin pozulması üzrə 117, 14-cü (Hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər) maddəsinin tələblərinin pozulması üzrə 3, 15-ci (Maraqlar toqquşmasının qarşısının alınması) maddəsinin tələblərinin pozulması üzrə 1, 16-cı (Əmlakdan istifadə) maddəsinin tələblərinin pozulması üzrə 1, 17-ci (Məlumatlardan istifadə) maddəsinin tələblərinin pozulması üzrə 1 intizam tənbeh tədbiri tətbiq edilmişdir.

Yuxarıda da qeyd etdiyimiz kimi son illər informasiya texnologiyalarının dövlət idarəçiliyində bir çox xidmətlərin həyata keçirilməsində, dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasında rolu və əhəmiyyəti nəzərə çarpacaq qədər artmışdır. 20-ci əsrin sonunda informasiya texnologiyalarının inkişafı dövlətlə yeni bir əlaqə formasına - elektron hökumətə yol açdı. Hesab edilirdi ki, dövlətlə bu ünsiyyət formasının yalnız daha səmərəli və daha az xərc tələb edən

idarəetməyə deyil, həm də vətəndaşlarla hökumət və yerli hakimiyyət orqanları arasındakı münasibətlərdə köklü dəyişikliklərə səbəb olacaqdır. Bu gün dünya ölkələri sanki dövlət idarəçiliyinin rəqəmsallaşması yarışına qatılıblar. Qlobal dünyada baş verən sürətli dəyişikliklər, ölkələri məcbur edir ki, öz rəqabətqabiliyyətliliyini qorumaq üçün dövlət idarəçiliynin bütün sahələrində rəqəmsallaşma siyasətini həyata keçirsinlər. 2020-ci ildə dünyanın əksər ölkələrinə sürətlə yayılmağa başlayan və ölkələrin iqtisadiyyatına mənfi təsir göstərən qlobal pandemiya demək olar ki, bütün bəşəriyyəti qlobal və köklü dəyişikliklər yoluna qədəm qoymağa sövq etdi. Bu gün yaşadığımız postindustrial dövr demək olar ki, həyatımızdan tədricən yeni dəyişiklik - rəqəmsallaşma vasitəsilə sıxışdırılıb çıxarılır. Cəmiyyət idarəetmədə yeni yanaşmalar tələb edən böyük həcmdə informasiya ilə üzləşdiyindən "rəqəmsal" reallıqlara keçmək məcburiyyətindədir. Lakin unutmamalıyıq ki, idarəetmənin əsas vasitəsi məhz bürokratik aparatdır və bu aparatın da əsas aktorları yeni nəsil dövlət qulluqçularıdır. Nəticə etibarilə bir çox ölkələr hələ də prosesləri tam olaraq anlaya bilməyib və sadəcə dövlət aparatını genişləndirirlər. Dövlət aparatının genişləndirilməsi qarşıya çıxan çətinliklərin həllində panaseya deyil. Zaman sübut edir ki, dövlət idarəçiliyinin səmərəli fəaliyyətinin  yeganə yolu peşəkar "yeni nəsil" idarəçi kadrların yetişdirilməsi və gələcəyin idarəetmə üsulu olan rəqəmsallaşmadır.

Yenidən müstəqillik qazanmasından cəmi otuz il keçməsinə baxmayaraq Azərbaycanda demokratik prinsiplər əsasında sivil dövlət idarəetmə sistemi və modern dövlət aparatı yaradılmış, dövlət idarəçiliyinin və dövlət qulluğunun normativ-hüquqi bazası formalaşdırılmış, vətəndaş cəmiyyətinin inkişafına yönəlmiş demokratik, dünyəvi dövlət quruluşuna müvafiq dövlət qulluğu institutları təsis edilmişdir. Dövlət qulluğu institutunun formalaşdırılması və onun bütün əsas cəhətlərinin qanunvericilik yolu ilə tənzimlənməsi bütövlükdə dövlət idarəçiliyinin optimallaşdırılması, dövlətin möhkəmləndirilməsi və vətəndaş cəmiyyətinin inkişafında əhəmiyyətli müsbət dəyişikliklərə nail olunması, bazar iqtisadiyyatının formalaşdırılması prosesinə və iqtisadi tərəqqiyə yardım edilməsi, göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, dövlət resurslarından istifadənin rasionallaşdırılması işinə yönəldilmişdir. Hazırda Azərbaycanda demokratik dövlətin inkişafında yeni mərhələ, innovasiya mərhələsi yaşanmaqdadır. Bu mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi kursunun effektiv həyata keçirilməsi üçün yeni təfəkkürlü, müasir dövlət inzibatçılığının texnologiyası, dövlət qərarlarının qəbul edilməsi nəzəriyyəsi, siyasi və sosial proqnozlaşdırma metodologiyası, strateji menecmentin xüsusiyyətləri, innovasiyalı proseslərin idarə edilməsi əsaslarını dərindən bilən gənc kadrların formalaşdırılmasına ehtiyac duyulur.

# ƏDƏBİYYAT


1.Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı: Qanun, - 2021, 46 s.
2.Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı http://www.e-qanun.az/framework/3457
3.Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı 3 yanvar 1999-cu il, № 60. http://www.e-qanun.az/framework/1756
4. Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında" Fərmanı, 11 dekabr 2014-cü il, №387 http://www.e-qanun.az/framework/30770
5. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 3 yanvar tarixli 60 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 22 sentyabr 2017-ci il № 1600 http://www.e-qanun.az/framework/36506
6. «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu. - Bakı: Hüquq ədəbiyyatı, - 2001, 40 s.
7. Rəcəb Rəhimli "Dövlət İdarəçiliyinin rəqəmsal gələcəyi: dünya trendləri və müasir dövlət qulluğu" Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə Elmi-nəzəri jurnalı, № 2 (70), -Bakı: Təhsil, -2020, s.173-186
8. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 13 iyul 2012-ci il. № 685.
9. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 2022-2024-cü illər üçün Strateji planı http://vxsida.gov.az/az/page/Strateji-plan-2022
10. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 11 aprel 2016-cı il. № 860. http://www.e-qanun.az/framework/32559
11. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya. 23 noyabr 2018, http://e-qanun.az/framework/40748
12.Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinin aparılması Qaydaları Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 21 iyun tarixli 420 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. http://reyestr.dim.gov.az/yeni/
13. "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1354 nömrəli Sərəncamı. 26 iyul 2019-cu il. http://e-qanun.az/framework/42996
14.Dövlət Statistika Komitəsinin 2021-ci il Hesabatı. https://www.stat.gov.az/news/index.php?id=4614
15. "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. 6 aprel 2021-ci il, № 89. http://e-qanun.az/framework/47192
16. 2020-ci ildə dövlət qulluqçularının xidməti faliyyətinin qiymətləndirilməsi nəticələri http://dim.gov.az/

## РЕФОРМЫ В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ И ИННОВАЦИОННЫЕ МЕТОДЫ ФОРМИРОВАНИЯ СИСТЕМЫ ГОСУДАРСТВЕННОЙ СЛУЖБЫ

**Р.З.РАГИМЛИ**

### РЕЗЮМЕ

В статье нашли отражение реформы в системе государственного управления Азербайджана, а также вопросы формирования системы государственной службы, создания ее юридической базы и реформ, проведенных в этой области. В то же время исследованы достижения реализации проектов и государственных программ, нацеленных на ускорение реформ государственной службы и улучшение организации в этой области. В статье также рассматривается деятельность центров, созданных с целью совершенствования государственной службы, новые правила оценки государственных служащих и национальные приоритеты, составляющие основу реформ в области государственного управления, а также отмечены важные направления будущих реформ по совершенствованию системы государственной службы в целом.

**Ключевые слова:** государственное управление, система государственной службы, оценка, реформы в государственной службе, оценка государственных служащих

## REFORMS IN PUBLIC ADMINISTRATION AND INNOVATIVE METHODS OF FORMING THE SYSTEM OF CIVIL SERVICE

**R.Z.RAHIMLI**

### SUMMARY

The article discusses the reforms in the system of public administration in Azerbaijan, the formation of the civil service system, the creation of a legal framework, and reforms carried out in this area. The author also analyzes the achievements of implementation of projects and government programs aimed at accelerating civil service reforms and better organization of the public service. The article examines the activities of the centers established to improve the civil service, the new rules for assessing civil servants, and the national priorities that form the basis of public administration reforms and highlights important areas for future civil service reforms.

**Keywords:** public administration, civil service system, assessment, civil service reforms, assessment of civil servants

**УДК 343.3, 347.9**

# СУДЕБНАЯ ЗАЩИТА ЛИЧНЫХ (НЕИМУЩЕСТВЕННЫХ) ПРАВ НЕСОВЕРШЕННОЛЕТНИХ

**С.Г.АЗИЗОВА**
***Бакинский Государственный Университет***
***sabinaazizova1@gmail.com***

*Азербайджанская Республика обладает солидной законодательной базой и положительной судебной практикой в области защиты прав и законных интересов несовершеннолетних. Форма судебной защиты гражданских прав имеет приоритетное значение. В статье автор обосновывает вывод, что защита прав и интересов несовершеннолетних в гражданском процессе Азербайджанской Республики основывается на международных стандартах. Однако существует еще необходимость дальнейшего совершенствования как законодательной базы в области гражданского судопроизводства, так и организационных форм защиты личных (неимущественных) прав и законных интересов несовершеннолетних.*

**Ключевые слова:** несовершеннолетние, личные (неимущественные) права несовершеннолетних, судебная защита прав несовершеннолетних, семейное право, гражданско-процессуальное право.

Понятие несовершеннолетних в законодательстве Азербайджанской Республики соответствует международно-правовому определению ребенка, содержащемуся в ст.1 Конвенции ООН о правах ребенка 1989г. Несовершеннолетние, т.е. лица, не достигшие 18-летнего возраста, составляют более одной трети населения Азербайджана. Защита прав и законных интересов несовершеннолетних является конституционным положением и представляет приоритетное направление в деятельности всех трех ветвей власти.

Самым важным гарантом защиты прав и интересов несовершеннолетних в гражданских и семейных отношениях является механизм защиты их прав в судебном порядке. Под механизмом защиты прав и интересов несовершеннолетних в гражданских и семейных отношениях в судебном порядке имеется ввиду деятельность суда в гражданском судопроизводстве по восстановлению нарушенных (или оспариваемых) прав несовершеннолетних на основании Конституции и гражданского, семейного и гражданско-процессуального законодательств, а также моральных принципов и норм [12, 5].

В судебной практике в области защиты прав и интересов несовершеннолетних наиболее часто встречаются следующие вопросы: определение отцовства; передача детей на воспитание или определение места жительства при раздельном проживании родителей; взыскание алиментов на содержание детей; осуществление родительских прав по отношению к ребенку, проживающему с другим родителем; осуществление прав на общение с ребенком близких родственников; лишение или ограничение родительских прав; восстановление родительских прав и т.п.

Как следует из статистических данных министерства юстиции Азербайджанской Республики, число рассмотренных в судах гражданских дел, затрагивающих те или иные права и интересы несовершеннолетних, растет из года в год: 2005г. – 8.727; 2010г. – 12.592; 2015г. – 20.959; 2016г. – 21.913; 2017г. – 24.140; 2018г. – 26.635; 2019г. – 29.749; 2020г. – 23.852 дел. Большинство из указанной категории гражданских дел составляют дела о расторжении брака: 2005г. – 6.466; 2010г. – 7.921; 2015г. – 11.281; 2016г. – 12.094, 2017г. – 13.063; 2018г. – 13.582; 2019г. – 15.430; 2020г. – 13.023 дел. Далее следуют установление факта признания отцовства или установление отцовства в судебном порядке: 2005г.– 432; 2010г. – 621; 2015г. – 963; 2016г. – 852; 2017г. – 845; 2018г. – 815; 2019г. – 820; 2020г. – 642 дела, а затем идут дела об усыновлении или об отмене усыновления: 2005г. – 702; 2010г. – 571; 2015г. – 526; 2016г. – 502; 2017г. – 541; 2018г. – 498; 2019г. – 439; 2020г. – 81 дело. Для Азербайджана не характерна высокая доля гражданских дел, связанных с лишением (или ограничением) родительских прав: 2005г. – 116 (4); 2010г. – 80 (21); 2015г. – 100 (78); 2016г. – 123 (86); 2017г. – 118 (103); 2018г. – 128 (35); 2019г. – 133 (21); 2020г. – 98 (5) дела [3]. В указанных рядах снижение числа дел по той или иной категории в 2020 году, скорее всего, является нетипичным и объясняется строгим карантинным режимом, действующим с марта 2020 года.

Роль судебных органов, обеспечивающих восстановление прав и законных интересов несовершеннолетних, нарушенных в результате социальных конфликтов и семейных споров, имеет большое значение. В этой связи хотели бы подчеркнуть, что создание ювенальных судов привело бы к специализации судей, занимающихся защитой прав и законных интересов несовершеннолетних, что позволило бы более оперативно рассматривать дела указанных категорий. К сожалению, в отличие от РФ, Казахстана и ряда других стран, в судебной системе Азербайджана не предусмотрено создание специализированных ювенальных судов [5, 23-25].

К наиболее значимым личным (неимущественным) правам несовершеннолетних можно отнести: право жить и воспитываться в семье; право на общение с родителями и другими родственниками; право выражать свое мнение; право на имя, отчество и фамилию.

Рассмотрим каждое из вышеуказанных личных прав несовершеннолетних несколько подробнее.

*Право ребенка жить и воспитываться в своей семье* является одним из самых важных прав ребенка и гарантировано как нормами международного права (ст.7, 8, 10 Конвенции ООН о правах ребенка 1989 г.; ст. 23 Международного Пакта о политических и гражданских правах 1966 г.; ст. 6, 8, 14 Европейской Конвенции о правах и основных свободах человека 1950 г. и ст. 5 Протокола №7 к ней; ст.13, 17, 20 5 Конвенции СНГ о правах и основных свободах человека 1995 г.; ст.2, 6, 12, 16, 17 Всеобщей Декларации прав человека 1948 г.) [8], так и внутригосударственного (ст. 24, 32, 34, 42, 46 Конституции Азербайджанской Республики; ст.7-9, 11, 17, 22, 25 Закона «О правах ребенка» 1998 г.; ст.6, 25, 27, 33, 35 ГК; ст.29, 43, 44, 46, 48, 49, 57, 58, 116, 122, 134, 139, 140 СК; ст.305, 307, 345-351 ГПК) [1; 6; 7; 9].

Ребенок имеет право жить вместе со своими родителями, и никто не может этому воспрепятствовать - ни государственные органы, ни частные лица. В соответствии с международными стандартами, местом жительства несовершеннолетних, не достигших 14 лет, устанавливается место жительства их законных представителей. Несовершеннолетние, достигшие четырнадцати лет, вправе избрать место своего жительства с согласия их законных представителей. Право на совместное проживание с родителями несовершеннолетнего, достигшего возраста 14 лет, естественно, сохраняется. Место жительства ребенка при раздельном проживании родителей определяется соглашением родителей. А при отсутствии согласия - разрешается судом исходя из прав и интересов детей и с учетом мнения детей (привязанности детей к братьям и сестрам, каждому из родителей, поведения и других личных качеств родителей, возраста ребенка, создания условий для его развития и воспитания) (ст.60.4 СК).

Право ребенка жить и воспитываться в семье не может быть реализовано лишь в исключительных случаях, когда совместное проживание с родителями противоречит интересам ребенка, в частности, при лишении родителей родительских прав или при ограничении их в родительских правах (ст.49.4 СК). С учетом важности данного вопроса для интересов ребенка, решение о его раздельном проживании с родителями может быть принято только судом с соблюдением установленных необходимых процедур и условий (66.3 СК).

Право ребенка жить и воспитываться в семье является широким понятием и кроме права на семейное воспитание и совместное проживание с родителями, также включает в себя такие права ребенка, как:

а) право знать своих родителей;
б) право на заботу родителей;
в) право на воспитание своими родителями;
г) право на обеспечение его интересов и всестороннее развитие;
д) право на уважение его человеческого достоинства.

Право ребенка знать, насколько это возможно, своих родителей и

право на их заботу вытекает из требований ст.7 Конвенции ООН «О правах ребенка» 1989 года и обусловлено тем, что возникновение взаимных прав и обязанностей родителей и детей основывается на происхождении детей от данных родителей (ст.43 СК). Право ребенка знать своих родителей на практике может быть ограничено случаями, когда получение сведений о родителях является невозможным. Это возможно по субъективным причинам (когда ребенок при рождении был тайно брошен родителями) и по объективным причинам (когда в результате стихийных бедствий у родившегося ребенка безызвестно пропали родители).

Защита прав и интересов детей в случаях утраты родительского попечения (в случаях смерти родителей, лишения их родительских прав, ограничения их в родительских правах, признания родителей недееспособными, болезни родителей, длительного отсутствия родителей, уклонения родителей от воспитания детей или от защиты их прав и интересов, в том числе при отказе родителей взять своих детей из учреждений социальной защиты населения, воспитательных учреждений, лечебных учреждений, родильных домов и других аналогичных учреждений, а также в других случаях) возлагается на соответствующий орган исполнительной власти, а именно обеспечивается органом опеки и попечительства в установленном законом порядке (ст.114 СК). При этом согласно ст.116 СК, предпочтение отдается семейным формам воспитания детей, оставшихся без родительского попечения: передача их на усыновление, в приемную семью или под опеку (попечительство). А когда отсутствует возможность устройства ребенка на воспитание в семью, подлежат передаче в учреждения социальной защиты населения, воспитательные, лечебные и другие аналогичные учреждения, предусмотренные для детей, оставшихся без попечения родителей, или детей-сирот. Очень важным является следующее положение, закрепленное в ст.116.3 СК: «При устройстве ребенка должны учитываться его этническое происхождение, принадлежность к определенной религии и культуре, родной язык, наиболее благоприятные условия для его образования и воспитания» [11, 73].

Важной гарантией защиты прав (прежде всего, жизни и здоровья, достоинства) ребенка в семье также является следующее положение: при непосредственной угрозе жизни ребенка или его здоровью соответствующий орган исполнительной власти вправе немедленно отобрать ребенка у родителей (одного из них) или у других лиц, под опекой (попечением) которых он находится (ст.72.1 СК). Данное действие осуществляется соответствующим органом исполнительной власти, о чем составляется соответствующий акт.

*Право ребенка на общение с родителями и другими родственниками* провозглашено в ряде международных (ст.9 Конвенции ООН о правах ребенка 1989г.; ст.23 Международного Пакта о политических и гражданских правах 1966г.; ст.6, 8, 14, 17 Европейской Конвенции о правах и основных

свободах человека 1950г.; ст.2 Всеобщей Декларации прав человека 1948г.) и находит свою регламентацию во внутригосударственных нормах (ст.34 Конституции Азербайджанской Республики; ст.18 Закона «О правах ребенка» 1998г.; ст.6, 17 ГК; ст.50, 48, 61, 62, 63, 134, 141 СК; ст.305, 307, 345-351 ГПК).

С правом несовершеннолетних детей жить и воспитываться в семье неразрывно связано и закрепленное ст.50 СК Азербайджанской Республики право детей на общение с обоими родителями, дедушкой, бабушкой, братьями, сестрами и другими родственниками, что создает необходимые предпосылки для полноценного воспитания и образования детей.

Таким образом, закон провозглашает право ребенка на общение с родственниками с обоих сторон. При этом в числе родственников, кроме родителей, прямо называются братья, сестры, бабушки и дедушки как со стороны отца, так и со стороны матери. Но этот список носит неисчерпывающий характер, т.к. в законе указывается и на «других родственников», имеющих право на общение с ребенком, что дает возможность включения в эту категорию и более дальних родственников. Таким образом, суд может обеспечить ребенку право общения с любым родственником. Общение ребенка с родственниками должно отвечать интересам ребенка и это общение может проводиться в различных формах (личные встречи, письменно, по телефону, при помощи современных средств связи, например, по скайпу и т.д.). Как правило формы общения с ребенком зависят от возраста ребенка, места жительства ребенка и его родственников, наличия или отсутствия конфликтов в семье и от других конкретных обстоятельств.

Следует отметить, что по законодательству Азербайджанской Республики право ребенка на общение с обоими родителями сохраняется также в случаях:

а) расторжения брака родителей;

б) признания брака родителей недействительным;

в) раздельного проживания родителей, в том числе при их проживании в разных государствах.

Лишение родителей права на общение с ребенком и, соответственно, лишение ребенка права на общение с родителями, законом предусматривается в строго установленных случаях: в судебном порядке — при лишении или ограничении родительских прав (ст.65 и 68 СК). А также в административном порядке — при отобрании ребенка у родителей органом опеки и попечительства из-за непосредственной угрозы жизни ребенка или его здоровью (ст.72 СК). Родителям, родительские права которых ограничены судом, могут быть разрешены контакты с детьми, если это не оказывает на детей вредного влияния (ст.71.1 СК).

*Право ребенка на защиту*. Законодательство Азербайджанской Республики (ст.26, 46, 53, 57, 60, 61, 71 Конституции; ст.4, 12, 27, 30-42 За-

кона «О правах ребенка» 1998г.; ст.6, 17, 20, 23 ГК; ст. 51, 7, 18, 19, 21, 45, 47, 59, 64-74, 114, 132 СК; ст.4, 5, 16, 49, 59, глава 44-1 ГПК,) в полном соответствии с международными стандартами (ст.6, 20, 22, 24, 26, 32 Конвенции ООН о правах ребенка 1989г.; ст.2, 14, 16, 24 Международного Пакта о политических и гражданских правах 1966г. и Протокол №1 к нему; ст.6, 13, 14 Европейской Конвенции о правах и основных свободах человека 1950г.; ст.6, 17, 20 Конвенции СНГ о правах и основных свободах человека 1995г.; ст.6, 7, 8, 16, 25, 26 Всеобщей Декларации прав человека 1948г.) не только наделяет ребенка соответствующими правами, но и предусматривает гарантии их осуществления.

Одной из таких гарантий является закрепление права ребенка на защиту своих прав и законных интересов в ст.12 Закона от 19 мая 1998 года. В ней указывается, что «при нарушении прав и законных интересов детей, в том числе при невыполнении родителями (одним из них) своих обязанностей по обучению, воспитанию ребенка или злоупотреблении родительскими правами, ребенок имеет право для защиты своих прав обратиться в соответствующие органы исполнительной власти, а по достижении 14 лет - в суд» [9].

Ст.51.2 СК устанавливает, что непосредственная защита прав и законных интересов ребенка должна осуществляться родителями или лицами, их заменяющими (то есть усыновителями, опекунами, попечителями, приемными родителями). Защита прав и интересов детей в случаях смерти родителей, лишения их родительских прав, ограничения их в родительских правах, признания родителей недееспособными, болезни родителей, длительного отсутствия родителей, уклонения родителей от воспитания детей или от защиты их прав и интересов, в том числе при отказе родителей взять своих детей из учреждений социальной защиты населения, воспитательных учреждений, лечебных учреждений, родильных домов и других аналогичных учреждений, а также в других случаях отсутствия родительского попечения возлагается на соответствующий орган исполнительной власти (ст.114.1 СК).

Закон Азербайджанской Республики 1998 года предусматривает специальные меры, направленные на защиту прав несовершеннолетних, особо нуждающихся в государственной защите (глава IV, ст.30-42). Так, в ст.30 указывается, что «на основе специальных программ государство обеспечивает защиту детей, проживающих в зоне военных действий, эпидемий, стихийных и экологических бедствий, или подвергшихся воздействию этих явлений, а также детей-сирот, детей из неполных (где один из родителей отсутствует) и малообеспеченных семей, детей шехидов» (т.е. воинов, павших в бою с агрессором). В категорию несовершеннолетних, нуждающихся в особой защите отнесены также усыновленные дети (ст.32); дети с ограниченными возможностями здоровья (ст.35); дети, совершившие административные проступки (ст.40) или преступление

(ст.42), содержащиеся в специальных воспитательных учреждениях (ст.41) [9].

*Право ребенка выражать свое мнение* также находит свое закрепление в международных (ст.11, 12, 13 Конвенции ООН о правах ребенка 1989г.; ст.19 Международного Пакта о политических и гражданских правах 1966г.; ст.10 Европейской Конвенции о правах и основных свободах человека 1950г.; ст.11 Конвенции СНГ о правах и основных свободах человека 1995г.; ст.18 Всеобщей Декларации прав человека 1948г.) и внутригосударственных (ст.47, 57 Конституции; ст.14, 15, 26 Закона «О правах ребенка» 1998г.; ст. 6, 17, 20, 23 ГК; ст.44, 52, 54, 60, 61, 62, 67, 124, 125, 127, 132, 134, 145 СК; ст.104, 194, 197 ГПК) нормах.

В соответствии с положениями Конвенции о правах ребенка 1989 года, ст. 52 СК предоставляет ребенку право выражать свое мнение при решении в семье любого вопроса, затрагивающего его интересы, а также быть заслушанным в ходе любого судебного расследования или административного разбирательства. Ребенок правомочен довести до сведения родителей и других членов семьи свои соображения по тому или иному вопросу, связанному с его интересами, в любой доступной для него форме. В СК Азербайджанской Республики, в отличие от СК РФ, прямо указано, что мнение ребенка, достигшего 10-летнего возраста, обязательно учитывается в суде, если оно не противоречит его интересам. Установление предела возраста в 10 лет за признанием права ребенка выражать свое мнение также, на наш взгляд соответствует ст.12 Конвенции о правах ребенка 1989 года, в которой это право признается за ребенком, способным сформулировать собственные взгляды: «С этой целью ребенку, в частности, предоставляется возможность быть заслушанным в ходе любого судебного или административного разбирательства, затрагивающего ребенка, либо непосредственно, либо через представителя или соответствующий орган, в порядке, предусмотренном процессуальными нормами национального законодательства» [8, т.2, 52].

Право ребенка выражать свое мнение с 10 лет находит свое закрепление также в ряде других норм СК, ГК и ГПК Азербайджанской Республики. Так, имя или фамилия ребенка, достигшего 10-летнего возраста, могут быть изменены только с его согласия (ст.54.4 СК); восстановление родительских прав в отношении ребенка, достигшего 10-летнего возраста, возможно только с его согласия (ст.67.6 СК); при усыновлении ребенка, достигшего 10-летнего возраста, необходимо его согласие (124.5 СК); фамилия, отчество, а также имя усыновляемого ребенка, достигшего 10-летнего возраста, могут быть изменены только с его согласия (ст.125.3 СК); запись усыновителей, в качестве родителей усыновленного ребенка, достигшего 10-летнего возраста, возможно только с его согласия (ст.127.2 СК); имя и фамилия ребенка, достигшего 10-летнего возраста, в отношении которого отменяется усыновление, может быть изменены с его

собственного согласия (ст.134.11 СК); ребенок достигший 10-летнего возраста, может быть передан в семью-попечитель только после получения его согласия (ст.145.3 СК).

Во всех вышеуказанных случаях законодатель указывает конкретно на возраст (10 лет) несовершеннолетнего как участника гражданско-процессуальных отношений и обязательность учета его мнения.

В некоторых других случаях законодатель без указания возраста несовершеннолетнего требует только учета мнения ребенка. Например, спор между родителями о месте жительства ребенка при их раздельном проживании (ст.60.4 СК), передача ребенка родителю, проживающему отдельно (ст.61.4 СК), спор между родственниками по поводу общения с ребенком (ст.62.3 СК), дело о восстановлении родителей в родительских правах (ст.67.5) решаются с учетом мнения ребенка.

Таким образом, ребенок вправе выражать свое мнение тогда, когда он достигает определенного уровня развития, позволяющего ему выразить собственную точку зрения на тот или иной вопрос, непосредственно касающийся его интересов (выбор образовательного учреждения, формы обучения, организация досуга и т. п.). С этого же момента он вправе быть заслушанным в ходе любого судебного или административного разбирательства. В зависимости от возраста ребенка его мнению законом придается различное правовое значение. Так, формулировка «учет мнения ребенка» при решении вопроса, затрагивающего его интересы, предполагает, что его мнение будет заслушано, а при несогласии родителей или других лиц с мнением ребенка им следует объяснить ему - по каким причинам его точка зрения не может быть принята во внимание. Однако в указанных законом случаях после достижения ребенком 10-летнего возраста учет его мнения является обязательным.

Следует отметить, что законодатель указывает и на исключения из учета мнения ребенка при некоторых обстоятельствах, если этого требуют интересы ребенка. Так, в случае, если ребенок жил в семье желающего усыновить его до подачи заявления об усыновлении и считает его своим родителем, усыновление может быть исполнено и без согласия ребенка (ст. 124.6 СК). В этом случае также не требуется согласия усыновляемого ребенка, достигшего 10-летнего возраста, на изменение фамилии, отчества, а также имени (125.3 СК) или же на запись в книгах регистрации рождения, как родителей усыновленных (127.2 СК).

В развитие права несовершеннолетних на собственное мнение, Закон Азербайджанской Республики «О правах ребенка» 1998 года также провозглашает права несовершеннолетнего на свободу совести, мышления и слова (ст.14) и на свободу получения информации (ст.15).

Довольна интересная интерпретация относительно права несовершеннолетних на собственное мнение дается в мусульманском праве. Так, по мусульманскому праву при прекращении брака между родителями

вопрос с кем из родителей остаются дети решается в зависимости от пола ребенка. Так, достигшие возраста семи лет девочки в любом случае передаются от матери на попечении отца. Но при решении вопроса относительно мальчиков при достижении ими возраста семи лет дается право выбора: сын сам решает с кем оставаться – с матерью или отцом [4; 10].

Таким образом, провозглашенное в ст.19 Международного Пакта о политических и гражданских правах 1966 года, ст.10 Европейской Конвенции о правах и основных свободах человека 1950 года, ст.18 Всеобщей Декларации прав человека 1948 года право ребенка выражать свое мнение, в мусульманском праве было признано за ребенком еще в VII веке. Правда, в специфической форме: только за несовершеннолетними мужского пола, достигшими семилетнего возраста.

*Право ребенка на имя, отчество и фамилию* провозглашается и гарантировано как международными (ст.7 Конвенции ООН о правах ребенка 1989г.; ст.24 Международного Пакта о политических и гражданских правах 1966г.; ст.24 Конвенции СНГ о правах и основных свободах человека 1995г.; ст.15 Всеобщей Декларации прав человека 1948г.), так и внутригосударственными нормами Азербайджанской Республики (ст.34, 52, 53 Конституции; ст. 10 Закона «О правах ребенка» 1998г.; ст.26 ГК; ст.44, 46, 53, 54, 125, 134, 168, 177, 189, 191 СК; ст.305, 307, 345-351 ГПК).

В ст.7 Конвенции ООН о правах ребенка 1989 года и в ст.10 Закона Азербайджанской Республики «О правах ребенка» 1998 года устанавливается, что «ребенок регистрируется сразу же после рождения и с момента рождения имеет право на имя и на приобретение гражданства» [6; 5]. Право ребенка на имя, отчество и фамилию закреплено также в ст.53 СК.

Право ребенка на имя, включающее собственно имя, фамилию и отчество, появляется у ребенка с момента рождения одновременно с правом на приобретение гражданства. В соответствии со ст.53.2 СК имя ребенку дается по соглашению родителей. Отчество ребенку присваивается по имени отца или по имени лица, записанного в качестве отца ребенка. Фамилия ребенка определяется фамилией родителей (ст.53.3 СК). При разных фамилиях родителей ребенку присваивается фамилия отца или фамилия матери по соглашению родителей. При отсутствии соглашения между родителями относительно имени и (или) фамилии ребенка возникший спор разрешается соответствующим органом исполнительной власти (ст.53.4 СК).

Имя, фамилия и отчество ребенка указываются в записи акта о рождении и в свидетельстве о рождении (ст.168 СК), а в последующем вносятся в удостоверение личности гражданина Азербайджанской Республики — основной документ, удостоверяющий личность, который выдается с 16-ти лет. Но с недавнего времени одним из важных фактов уважения прав несовершеннолетнего, как полноправного гражданина, является возможность получения им официального «взрослого документа»

(удостоверения личности гражданина Азербайджанской Республики) с более раннего возраста по желанию родителей.

Изложенный порядок присвоения фамилии, имени и отчества ребенку соблюдается и при установлении отцовства лица, не состоящего в браке с матерью ребенка (по совместному заявлению родителей в орган загса, по заявлению только отца ребенка в орган загса, по решению суда).

В тех случаях, когда отцовство не установлено, фамилия ребенку может быть присвоена только по фамилии матери. В случае рождения ребенка от матери, не состоящей в браке, и при отсутствии совместного заявления родителей об установлении отцовства или решения суда, в свидетельстве о рождении вместо фамилии отца ребенка записывается фамилия матери. Имя отца и дедушки ребенка записывается по указанию матери (ст.46.3 СК).

Законодательство Азербайджанской Республики допускает в определенном законом порядке изменение имени и фамилии ребенка. В соответствии со ст.54.1 СК изменение имени и фамилии ребенка исходя из интересов ребенка на фамилию другого родителя возможно лишь по совместной просьбе родителей до достижения ребенком 18-летнего возраста и только с разрешения соответствующего органа исполнительной власти [11, 43-44].

В случае раздельного проживания родителей и при желании родителя, проживающего с ребенком, дать ему свою фамилию соответствующий орган исполнительной власти решает этот вопрос с учетом мнения другого родителя и исходя из интересов ребенка. В случае невозможности установления места пребывания другого родителя, при лишении его родительских прав, признании недееспособным, а также в случае, если он без уважительной причины уклоняется от содержания воспитания ребенка, учитывать мнение данного родителя необязательно (ст.54.2 СК).

Во всех случаях перемены имени и (или) фамилии ребенка по совместной просьбе родителей или только по просьбе одного родителя является обязательным согласие ребенка на изменение его фамилии и имени после достижения им 10 летнего возраста (ст. 54.4 СК), когда он уже может самостоятельно дать оценку последствий изменения своей фамилии.

Законодатель допускает изменение фамилии, имени и отчества несовершеннолетнего и при его усыновлении. Суд, рассматривая дело об усыновлении, по просьбе усыновителя усыновляемому ребенку присваивает фамилию усыновителя и новое имя, о чем указывает в решении суда. Если усыновитель мужчина, отчество ребенку дается по его имени, если усыновитель женщина, отчество дается по ее указанию, за исключением случаев сохранения прав и обязанностей отца ребенка в отношении ребенка (ст.125.1, 176 СК). При этом фамилия, отчество, а также имя усыновляемого ребенка, достигшего 10-летнего возраста, могут быть из-

менены только с его согласия (ст.125.3 СК). В случае отмены судом усыновления, вопрос о сохранении имени и фамилии, присвоенных ребенку при усыновлении, также решается судом (ст.134.10, 178 СК).

Таким образом, анализ гражданского, гражданско-процессуального и семейного законодательств Азербайджанской Республики показывает, что регламентация судебной защиты личных (неимущественных) прав несовершеннолетних, основанная на конституционных положениях, в целом соответствует международным стандартам в области защиты прав ребенка. Несмотря на то, что Европейская Конвенция об осуществлении прав ребенка 1996 года еще не ратифицирована законодательным органом Азербайджанской Республики, процессуальные права несовершеннолетних в достаточной степени закреплены в действующем гражданском судопроизводстве.

**ЛИТЕРАТУРА**


1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı: Hüquq ədəbiyyatı, - 2014, - 75 s.
2. Azərbaycan Respublikası Ədliyyə nazirliyinin rəsmi saytı. URL: https://justice.gov.az/
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi saytı. URL: https:// www.stat.gov.az/source/
4. Cəfərli N., Rəsulov R. Müsəlman hüququnun əsasları. Dərslik. - Bakı: Elm və təhsil, - 2011, - 270 s.
5. Азизова С.Г. Специализированные ювенальные суды как важный элемент механизма защиты прав несовершеннолетних // Материалы VII Международной научно-практической конференции «Безопасность человека в условиях глобализации: современные правовые парадигмы». - Киев, 2017, - с.23-25
6. Гражданский Кодекс Азербайджанской Республики. - Баку: Hüquq Yayım Evi, - 2015, - 736 с.
7. Гражданско-Процессуальный Кодекс Азербайджанской Республики. - Баку: Hüquq Yayım Evi, - 2015, - 472 с.
8. Действующее международное право. В трех томах / Состав. Ю.М.Колосов, Э.С.Кривчикова. - Москва: МНИМП, - т.1, 1999, 864 с.; т.2, 1999, 832 с.; т.3, 1999, 832 с.
9. Закон Азербайджанской Республики «О правах ребенка» от 19 мая 1998 года. URL: https://www.legal-tools.org/doc/4264c3/pdf/
10. Садагдар М.И. Основы мусульманского права. - Москва: Ун-т дружбы народов, - 1968, - 159 с.
11. Семейный Кодекс Азербайджанской Республики. - Баку: Hüquq Yayım Evi, - 2016, - 240 с.
12. Чашкова С.Ю., Чефранова Е.А. Вопросы подсудности семейно-правовых споров // Современное право, - 2003, № 11, - с. 47-55


## YETKİNLİK YAŞINA ÇATMAYANLARIN ŞƏXSİ (QEYRİ-ƏMLAK) HÜQUQLARININ MƏHKƏMƏ MÜDAFİƏSİ


**S.H.ƏZİZOVA**


**XÜLASƏ**


Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanların hüquq və qanuni mənafelərinin müdafiəsi sahəsində müvafiq qanunvericilik bazası və müsbət məhkəmə təcrübəsi mövcuddur. Mülki hüquqların müdafiəsi sahəsində məhkəmə icraatı mühüm əhəmiyyət kəsb edir. Məqalədə müəllif Azərbaycan Respublikasının mülki prosesində yetkinlik yaşına çatma-

yanların hüquq və mənafelərinin müdafiəsinin beynəlxalq standartlara uyğyn gəlməsi qənaətini əsaslandırır. Bununla belə, həm mülki ədalət mühakiməsi sahəsində qanunvericilik bazasının, həm də yetkinlik yaşına çatmayanların şəxsi (qeyri-əmlak) hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin təşkilati formalarının daha da təkmilləşdirilməsinə hələ də ehtiyac duyulur.

**Açar sözlər:** yetkinlik yaşına çatmayanlar, yetkinlik yaşına çatmayanların şəxsi (qeyri-əmlak) hüquqları, yetkinlik yaşına çatmayanların hüquqlarının məhkəmə müdafiəsi, ailə hüququ, mülki prosessual hüquq.

## JUDICIAL PROTECTION OF PERSONAL (NON-PROPERTY) RIGHTS OF MINORS

**S.H.AZIZOVA**

### SUMMARY

The Republic of Azerbaijan has a legislative base and positive judicial practice in the field of protecting the rights and legitimate interests of minors. The form of judicial protection of civil rights is of paramount importance. In the article, the author substantiates the conclusion that the protection of the rights and interests of minors in the civil process of the Republic of Azerbaijan is based on international standards. However, there is still a need to further improve both the legislative framework in the field of civil justice and the organizational forms of protecting the personal (non-property) rights and legitimate interests of minors.

**Keywords:** minors, personal (non-property) rights of minors, judicial protection of the rights of minors, family law, civil procedural law.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2021*

**UOT 343.21.7**

# POSTSOVET ÖLKƏLƏRİNİN CİNAYƏT QANUNVERİCİLİYİNDƏ HAKİMİYYƏT NÜMAYƏNDƏSİNƏ QARŞI MÜQAVİMƏT GÖSTƏRMƏ VƏ YA ZOR TƏTBİQETMƏ ƏMƏLLƏRİNƏ GÖRƏ MƏSULİYYƏTİN TƏNZİMLƏNMƏSİ

**Y.D.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***ismayilov.yunis@yahoo.com***

*Məqalədə postsovet ölkələrinin Cinayət Qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə əməllərinə görə məsuliyyətin tənzimlənməsi məsələləri təhlil olunmuşdur. Qeyd edilmişdir ki, keçmiş sovet respublikalarının Cinayət Qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı normalar öz əksini tapmışdır. Eyni zamanda, postsovet ölkələrinin Cinayət Məcəllələrinin xeyli dərəcədə bir-birinə oxşarlığı vurğulanmış və bu oxşarlığın idarəetmə qaydası əleyhinə edilən cinayətlərlə bağlı, o cümlədən, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı normalara aid olduğu bildirilmişdir. Tədqiqat işində postsovet ölkələrinin Cinayət Məcəllələrinin, o cümlədən, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı normaların arasında müəyyən fərqli cəhətlər də təhlil edilmişdir.*

**Açar sözlər:** *hakimiyyət nümayəndəsi, müqavimət, məsuliyyət, cinayət, zor tətbiqetmə, qanunvericilik, məcəllə.*

Hüquq sahəsi daxil olmaqla dövlətlərin ictimai münasibətlər sistemində baş verən dəyişikliklər onların hər biri üçün müstəsna dərəcədə mühüm əhəmiyyətə malikdir. Dövlətlərin hüquq sahəsində əməkdaşlığı, qanun yaradıcılığı və tətbiqi sahəsində bir-birinin təcrübəsini nəzərə alması zəruridir və qarşılıqlı surətdə zənginləşməyə xidmət edir. Xarici ölkələrin cinayət qanunvericiliyinin öyrənilməsi və müqayisəli təhlili də zəruri və əhəmiyyətli bir işdir. Bu baxımdan xarici ölkələrin cinayət qanunvericiliyinin hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə haqqında normalarının öyrənilməsi həm elmi, həm də praktik cəhətdən aktual məsələdir. Belə ki, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı araşdırmalarda müqayisəli tədqiqatların aparılmasının, xarici ölkələrin qanunvericiliklərinin öyrənilməsinin, onların qiymətli cəhətlərinin və qüsurlarının aşkar edilməsinin xüsusi əhəmiyyəti vardır. Bunlar aşağıdakılardır:

1) xarici ölkələrin cinayət qanunlarında nəzərdə tutulan hakimiyyət nü-

mayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə cinayəti haqqında hüquq normalarının öyrənilməsi cinayət hüququnun tədqiq edilən məsələ ətrafında biliklərin daha da dərinləşdirilməsinə kömək edir;

2) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı normalarının təkmilləşdirilməsi üzrə ən yaxşı hüquqi qərarların qəbul edilməsi üçün, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı milli qanunvericiliyin sonrakı təkmilləşdirilməsi və yeniləşməsi üçün əsas yaradır;

3) hazırkı dövrdə milli qanunvericiliklərin hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı normalarının bir-birinə yaxınlaşdırılması kimi mühüm problemin həllinə kömək edir. Xarici ölkələrin cinayət qanunvericiliklərinin təhlili göstərir ki, ayrı-ayrı xarici ölkələrin cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı normaların bir-birinə uyğunlaşdırılması baxımından müəyyən məqamlar vardır. Hazırkı şəraitdə cinayətkarlıqla mübarizə sahəsində vahid hüquqi məkanın yaradılması olduqca zəruridir və bu, baxılan problemi daha da aktuallaşdırır. Müstəqil Dövlətlər Birliyi ölkələrinin cinayət qanunvericiliyi üzrə hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı normaları nəzərdən keçirək və onların müqayisəsini aparaq.

Postsovet ölkələrinin cinayət məcəllələri xeyli dərəcədə bir-birinə oxşardır. Eyni dərəcədə bütün bunlar idarəetmə qaydası əleyhinə edilən cinayətlərlə bağlı normalara, o cümlədən hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı normalara aiddir. 17 fevral 1996-cı il tarixli Model Cinayət Məcəlləsinin 33-cü fəslinin 310-cu maddəsində “Hakimiyyət nümayəndəsinə qarşı zor tətbiqetmə”yə görə məsuliyyət müəyyən edilmişdir. Həmin maddənin birinci hissəsinin dispozisiyasında deyilir: “Xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə və ya onun yaxın qohumlarına həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiqetmə və ya belə zor tətbiqetmə ilə hədələmə” [2]. Model Cinayət Məcəlləsinin 310-cu maddəsinin ikinci hissəsində birinci hissədə göstərilən şəxslərə həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməyə görə məsuliyyət müəyyən edilir. Model Cinayət Məcəlləsinin 310-cu maddəsinin qeydində vəzifəli şəxsin anlayışı müəyyən edilmişdir [2].

Rusiya Federasiyasının 13 iyun 1996-cı il tarixli Cinayət Məcəlləsinin 318-ci maddəsində tədqiq edilən cinayətə görə məsuliyyət nəzərdə tutulmuşdur. Həmin maddə “Model Cinayət Məcəlləsi”nin 310-cu maddəsinin təkrarıdır [1, s. 220], fərq yalnız hakimiyyət nümayəndəsinin anlayışını müəyyən edən “Qeyd” hissəsi ilə bağlıdır. Rusiya Federasiyası Cinayət Məcəlləsinin 318-ci maddəsinin qeydində hakimiyyət nümayəndəsi anlayışı Model Cinayət Məcəlləsinin 310-cu maddəsinin qeydi ilə müqayisədə daha aydın və dəqiq verilmişdir [8].

Qırğızıstan Respublikasının 2 fevral 1997-ci il tarixli Cinayət Məcəlləsində hakimiyyət nümayəndəsinə qarşı zor tətbiqetməyə görə məsuliyyət 48-ci fəslin 355- ci maddəsində [180], Tacikistan Respublikasının 21 may 1998-ci il tarixli Cinayət Məcəlləsində 31-ci fəslin 328-ci maddəsində [185], 12 iyun 1997-ci il tarixli Türkmənistan Cinayət Məcəlləsinin 25-ci fəslin 211-ci maddəsində müəyyən edilmişdir **[9].** Bu maddələr 1996-cı il Rusiya Federasiyası Cinayət Məcəlləsinin 318-ci maddəsinin eynidir. Yeganə fərq ondan ibarətdir ki, Qırğızıstan Respublikası Cinayət Məcəlləsinin adı çəkilən maddəsi "Hakimiyyət nümayəndəsini hədələmə və ya ona qarşı zor tətbiqetmə", Türkmənistan Cinayət Məcəlləsinin sözügedən maddəsi isə "Hüquq mühafizə orqanının işçisini və ya hərbi qulluqçunu öldürməklə hədələmə və ya zor tətbiqetmə" adlanır. Qazaxıstan Respublikasının 16 iyul 1997-ci il tarixli Cinayət Məcəlləsində hakimiyyət nümayəndəsinə qarşı zor tətbiqetməyə görə məsuliyyət 14-cü fəslin 321-maddəsində müəyyən edilmişdi [4]. Bu maddə MDB ölkələrinin Model Cinayət Məcəlləsinin 310-cu maddəsinin təkrarı idi.

Qeyd edək ki, 16 iyul 1997-ci il tarixli Qazaxıstan Respublikası Cinayət Məcəlləsinin 319-cu maddəsinin 3-cü hissəsində Qazaxıstan Respublikası Parlamentinin deputatının vəzifəsini yerinə yetirməsinə mane olmaq məqsədilə ona və yaxın qohumlarına hər hansı formada təsir göstərməyə görə məsuliyyət müəyyən edilirdi. Həmin əmələ görə iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması, yaxud həmin müddətdə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulurdu. Qazaxıstan Respublikasının Cinayət Məcəlləsində, həmçinin hakimiyyət nümayəndəsini təhqir etməyə görə məsuliyyət müəyyən edilirdi (maddə 320). Hakimiyyət nümayəndəsinin anlayışı da məhz 320-ci maddənin qeydində verilmişdi. Bu anlayışda yalnız dövlət orqanlarının xidməti tabeçiliyində olmayan şəxslərə münasibətdə qanunla müəyyən edilmiş qaydada sərəncamverici səlahiyyətlərə malik vəzifəli şəxsləri hakimiyyət nümayəndəsi hesab edilirdi. Burada yerli özünüidarə orqanlarının adı çəkilmirdi. 03 iyul 2014-ci il tarixli, 467 maddədən ibarət olan Qazaxıstan Respublikasının yeni Cinayət Məcəlləsi qüvvəyə mindikdən sonra 16 iyul 1997-ci il tarixli Qazaxıstan Respublikasının Cinayət Məcəlləsi qüvvədən düşdü (Adı çəkilən Məcəllə 1 yanvar 2015-ci il tarixdən qüvvəyə minmişdir). Qazaxıstan Respublikasının yeni Cinayət Məcəlləsinin 16-cı fəsli (372-406-cı maddələr) idarəetmə qaydası əleyhinə olan cinayətlərə həsr olunmuşdur. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı normalar sözügedən Məcəllənin 380, 380-1 və 380-2-ci maddələrində öz əksini tapmışdır [5]. Sözügedən Məcəllənin 380-ci maddəsi "Hakimiyyət nümayəndəsinə qarşı zor tətbiqetmə", 380-1-ci maddəsi "Hüquq mühafizə orqanının əməkdaşının, xüsusi dövlət orqanının əməkdaşının, hərbi qulluqçunun, heyvanlar aləminin mühafizəsini həyata keçirən dövlət inspektorunun, heyvanlar aləminin mühafizəsi üzrə xüsusi təşkilatın inspektorunun həyatına sui-qəsd etmə", 380-2-ci maddəsi isə "Heyvanlar aləminin mühafizəsini həyata keçirən dövlət inspektoruna qarşı və ya heyvanlar aləminin mühafizəsi üzrə xüsusi

təşkilatın inspektoruna qarşı zor tətbiqetmə" adlanır. Ukraynanın 5 aprel 2001-ci il tarixli Cinayət Məcəlləsinin XV fəslinin 342-ci maddəsində "Hakimiyyət nümayəndəsinə, hüquq mühafizə orqanı işçisinə, ictimai qaydanın və ya dövlət sərhədinin mühafizəsi üzrə ictimai birləşmənin üzvünə və ya hərbi xidmətçiyə müqavimət göstərmə"yə görə məsuliyyət müəyyən edilmişdir [10]. Qeyd edilən maddədə göstərilən şəxslərə qarşı onlara həvalə edilmiş səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı edilmiş yalnız fəal hərəkətlərə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Milis işçisinə, ictimai qaydanın və ya dövlət sərhədinin mühafizəsi üzrə ictimai birləşmənin üzvünə və ya hərbi xidmətçiyə, onların ictimai qaydanı mühafizə üzrə vəzifələrini yetirməsi zamanı müqavimət göstərmə Ukrayna Cinayət Məcəlləsinin 342-ci maddəsinin 2-ci hissəsi ilə tövsif edilir.

Yuxarıda göstərilən şəxslərə qarşı edilən hərəkətlər zor tətbiqetmə ilə müşayiət edildikdə və ya həmin şəxslər açıq-aşkar qanunsuz hərəkətlər etməyə məcbur edildikdə əməl Ukrayna Cinayət Məcəlləsinin 342-ci maddəsinin 3-cü hissəsi ilə tövsif edilir. Qeyd edək ki, baxılan cinayətlə bağlı Ukrayna Cinayət Məcəlləsinin fərqli cəhətlərindən biri də həmin cinayətin törədilməsinə görə məsuliyyətin 14 yaş müəyyən edilməsidir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 315-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti üçün qanunverici 16 yaş müəyyən etmişdir. Ukrayna Cinayət Məcəlləsinin bir özünəməxsus xüsusiyyətinə də toxunaq. Belə ki, hakimiyyət nümayəndəsini və ya hüquq-mühafizə orqanı işçisini girov götürməyə görə Ukrayna Cinayət Məcəlləsində müstəqil 349-cu maddə nəzərdə tutulmuşdur. Göstərilən əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində adamları girov götürməyə görə məsuliyyət müəyyən edən 215-ci maddə ilə tövsif edilir. Belarus Respublikasının 9 iyul 1999-cu il tarixli Cinayət Məcəlləsinin 33-cü fəslində (İdarəetmə qaydası əleyhinə olan cinayətlər) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 315-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkiblərinə oxşar olan tərkiblər aşağıdakı üç maddədə nəzərdə tutulmuşdur: 1) 363-cü maddə – "Milis işçisinə və ya ictimai qaydanı mühafizə edən başqa şəxsə müqavimət göstərmə"; 2) 364-cü maddə – "Milis işçisinə zor tətbiqetmə və ya zor tətbiq etməklə hədələmə"; 3) 366-cı maddə– "Xidməti vəzifəsini yerinə yetirən vəzifəli şəxsə və ya ictimai borcunu yerinə yetirən başqa şəxsə zor tətbiqetmə və ya zor tətbiq etməklə hədələmə" [3].

Belarus Respublikası Cinayət Məcəlləsinin 363-cü maddəsinin birinci hissəsində milis işçisinə və ya ictimai qaydanı mühafizə edən başqa şəxsə ictimai qaydanın mühafizəsi üzrə öz vəzifəsini yerinə yetirməyə müqavimət göstərməyə görə, 363-cü maddəsinin ikinci hissəsində həmin şəxslərə zor tətbiqetmə və ya zor tətbiqetmə hədəsi ilə müşayiət edilən müqavimət göstərməyə, yaxud zor tətbiqetmə və ya zor tətbiqetmə hədəsi yolu ilə açıq-aşkar qanunsuz olan hərəkətləri yerinə yetirməyə məcbur etməyə görə məsuliyyət nəzərdə tutulmuşdur. Belarus Respublikası Cinayət Məcəlləsinin 364-cü maddəsində milis işçisinin qanuni fəaliyyətinə mane olmaq və ya onu bu fəaliyyətin xarak-

terini dəyişməyə məcbur etmək, yaxud xidməti fəaliyyətini yerinə yetirməsinə görə ondan intiqam almaq məqsədilə milis işçisinə və ya onun yaxın qohumlarına zor tətbiqetməyə və ya belə zor tətbiqetmə hədəsi ilə hədələməyə görə məsuliyyət müəyyən edilmişdir. Belarus Respublikası Cinayət Məcəlləsinin 366-cı maddəsinin birinci hissəsində xidməti vəzifəsini yerinə yetirən vəzifəli şəxsin və ya ictimai qaydanı qorumaq və ya hüquq pozuntularının qarşısını almaq üzrə ictimai vəzifəsini yerinə yetirən başqa şəxsin qanuni fəaliyyətinə mane olmaq və ya onu bu fəaliyyətin xarakterini dəyişməyə məcbur etmək, yaxud xidməti fəaliyyətini yerinə yetirməsinə görə ondan intiqam almaq məqsədilə həmin şəxslərə və ya onların yaxın qohumlarına zor tətbiqetməyə və ya belə zor tətbiqetmə hədəsi ilə hədələməyə, onların əmlakını məhv etməyə və ya zədələməyə görə məsuliyyət müəyyən edilmişdir. Sözügedən Cinayət Məcəlləsinin 366-cı maddəsinin ikinci hissəsində həmin hərəkətlərin Belarus Respublikasının Prezidentinə qarşı törədilməsinə görə cinayət məsuliyyəti təsbit olunmuşdur.

Özbəkistan Respublikasının 22 sentyabr 1994-cü il tarixli Cinayət Məcəlləsinin XV fəslinin (İdarəetmə qaydası əleyhinə olan cinayətlər) 219-cu maddəsində vətəndaşlıq borcunu yerinə yetirən hakimiyyət nümayəndəsinə müqavimət göstərməyə görə məsuliyyət nəzərdə tutulmuşdur **[7].** Qeyd edilən müqavimət göstərmə xidməti vəzifəsini həyata keçirən hakimiyyət nümayəndəsinin və ya vətəndaşlıq borcunu yerinə yetirən şəxsin qanuni fəaliyyətinə qarşı fəal şəkildə mane olmada ifadə edilir. Moldova Respublikasının 18 aprel 2002-ci il tarixli Cinayət Məcəlləsinin XVII fəslinin (Hakimiyyət və dövlətin təhlükəsizliyi əleyhinə olan cinayətlər) 349-cu maddəsində "Vəzifəli şəxsə və ya ictimai borcu yerinə yetirən şəxsə qarşı hədələmə və ya zor tətbiqetmə"yə görə məsuliyyət müəyyən edilmişdir. Həmin maddənin birinci hissəsində göstərilir ki, "hədələyən və ya başqa şəxsin maraqları naminə xidməti və ya ictimai fəaliyyətini dayandırmaq, yaxud onun xarakterini dəyişdirmək məqsədi ilə polis əməkdaşını və ya başqa vəzifəli şəxsi, yaxud onların yaxın qohumlarını öldürməklə, bədən xəsarəti yetirməklə və ya sağlamlığına zərər yetirməklə, yaxud əmlakını məhv etməklə hədələmə, habelə şəxsin cinayətin, yaxud ictimaiyyət əleyhinə əməlin xəbərdar edilməsində və ya qarşısının alınmasında iştirakı ilə bağlı həmin şəxsin özünə, yaxud onun yaxın qohumlarına belə hədə gəlmə 600-dən 1350-dək şərti vahid həcmində cərimə və ya 180 saata qədər cəmiyyətin xeyrinə haqqı ödənilməyən əmək və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır**"** [6].

Moldova Respublikası Cinayət Məcəlləsinin 349-cu maddəsinin ikinci hissəsində qeyd edilən cinayətin tövsifedici əlamətləri verilmişdir. Bunlara 349-cu maddənin birinci hissəsində göstərilən əməlin aşağıdakı hallarda törədilməsi aiddir:

a) "həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiqetməklə;

b) çoxlu şəxslərin həyat və ya sağlamlığı üçün təhlükəli olan vasitələrlə əmlakı məhv etməklə;

c) külli miqdarda zərər vurmaqla törətmə;

d) digər ağır nəticələrə səbəb olmaqla" [6].

Beləliklə, yuxarıda deyilənləri yekunlaşdıraraq aşağıdakı nəticələrə gəlmək olar: Bütün Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərinin cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı normalar öz əksini tapmışdır. MDB-nin üzvü olan ölkələrin cinayət məcəllələri xeyli dərəcədə bir-birinə oxşardır. Eyni dərəcədə bütün bunlar idarəetmə qaydası əleyhinə edilən cinayətlərlə bağlı normalara, o cümlədən hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı normalara aiddir. Bununla belə, müəyyən fərqli cəhətlər də vardır. Məsələn, Ukrayna Cinayət Məcəlləsinə əsasən, sözügedən cinayətin subyekti cinayəti törədənədək 14 yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər. Amma digər MDB ölkələrində nəzərdə tutulmuş cinayətin subyekti üçün qanunverici 16 yaş müəyyən etmişdir. Bundan başqa, Ukrayna cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsini və ya hüquq-mühafizə orqanı işçisini girov götürməyə görə müstəqil 349-cu maddə 80 nəzərdə tutulmuşdur. Amma göstərilən əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində adamları girov götürməyə görə məsuliyyət müəyyən edən 215-ci maddə ilə tövsif edilir.

**ƏDƏBİYYAT**

1. Исмаилов, Ю.Д. Некоторые вопросы уголовному законодательству Азербайджанской Республики и Российской Федерации // - Днепропетровск: Журнал Право и суспильство, Днепропетровский Государственный Университет, - 2011. № 5, - с. 219-222.
2. Модельный Уголовный кодекс. Рекомендательный законодательный акт для Содружества Независимых Государств: [Электронный ресурс] http://docs.cntd.ru/document/901781490
3. Уголовный кодекс Республики Беларусь от 9 июля 1999 года (с изменениями и дополнениями по состоянию на 26.05.2021 г.): [Электронный ресурс] / https://online.zakon.kz/Document/?doc_id=30414984#pos=6;-106
4. Уголовный кодекс Республики Казахстан от 16 июля 1997 года / - СПб.: Юридический центр Пресс, - 2001. - 466 с.
5. Уголовный кодекс Республики Казахстан от 03 июля 2014 года (с изменениями и дополнениями по состоянию на 02.07.2021 г.): [Электронный ресурс] / https://online.zakon.kz/Document/?doc_id=31575252#pos=5;-106
6. Уголовный кодекс Республики Молдова от 18 апреля 2002 года (с изменениями и дополнениями по состоянию на 23.04.2021 г.): [Электронный ресурс] / https://online.zakon.kz/Document/?doc_id=30394923#pos=4259;-56
7. Уголовный кодекс Республики Узбекистан от 22 сентября 1994 года (с изменениями и дополнениями по состоянию на 16.08.2021 г.): [Электронный ресурс] / https://online.zakon.kz/Document/?doc_id=30421110#pos=5;-106
8. Уголовный кодекс Российской Федерации от 13 июня 1996 года (с изменениями и дополнениями по состоянию на 22.08.2021 г.) / - Москва: Эксмо, - 2021. - 256 с.
9. Уголовный кодекс Туркменистана от 12 июня 1997 года (с изменениями и дополнениями по состоянию на 22.08.2021 г.): [Электронный ресурс] / https://online.zakon.kz/Document/?doc_id=31295286#pos=1655;-38
10. Уголовный кодекс Украины от 5 апреля 2001 года (с изменениями и дополнениями

по состоянию на 21.07.2021 г.): [Электронный ресурс] / https://online.zakon.kz/Document/?doc_id=30418109

## РЕГУЛИРОВАНИЕ ОТВЕТСТВЕННОСТИ В УГОЛОВНОМ ПРАВЕ СТРАН СНГ ЗА СОПРОТИВЛЕНИЕ ИЛИ ПРИМЕНЕНИЕ СИЛЫ В ОТНОШЕНИИ ГОСУДАРСТВЕННОГО ДОЛЖНОСТНОГО ЛИЦА

**Ю.Д.ИСМАИЛОВ**

**РЕЗЮМЕ**

В статье анализируется регулирование ответственности в Уголовном Законодательстве постсоветских стран за акты сопротивления или применения силы в отношении государственного должностного лица. Отмечено, что уголовное законодательство бывших республик СССР содержит нормы о сопротивлении или применении сиды в отношении государственного должностного лица. В то же время было отмечено, что Уголовные Кодексы постсоветских стран очень похожи друг на друга, и что эти сходства касаются правил государственного управления, в том числе сопротивлении или применении силы в отношении государственного должностного лица. В исследовании также анализируются некоторые отличия Уголовных Кодексов постсоветских стран, в том числе о сопротивлении или применении сиды в отношении государственного должностного лица.

**Ключевые слова:** представитель власти, сопротивление, ответственность, преступление, применение силы, кодекс

## REGULATION OF LIABILITY IN THE CRIMINAL LAW OF THE CIS COUNTRIES FOR ACTS OF RESISTANCE OR USE OF FORCE AGAINST A GOVERNMENT OFFICIAL

**Yu.D.ISMAILOV**

**SUMMARY**

The article analyzes the regulation of liability in the criminal law of post-Soviet countris countries for acts of resistance or use of force against a government official. It was noted that the Criminal Ltgislation of the former Soviet republics contained norms on resistance or use of force against a government official. At the same time, it was noted that the Criminal Codes of the post-Soviet countries are very similar to each other, and that these similarities relate to the rules of governance, including resistance or use of force against a government official. The study also analyzes certain differences between the Criminal Codes of post-Soviet countries, including the norms on resistance or use of force against a government official.

**Keywords:** representative of the government, resistance, responsibility, crime, use of force, legislation, code

## SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA

**UOT 364.044**

# SOSİAL SAHİBKARLIQ – CƏMİYYƏTİN İNKİŞAFINA İSTİQAMƏTLƏNƏN YENİ SOSİAL XİDMƏT SAHƏSİDİR

**E.S.İSMAYILOVA**
***Bakı Dövlət Universiteti***
***eliza_ismayilova@yahoo.com***

*Azərbaycan Respublikasının sosial rifahı istiqamətində dövlətin apardığı sosial-iqtisadi islahatlar son dövrlər əhalinin həyat səviyyəsinin yüksəldilməsi məqsədlərini həyata keçirir. Bu məqsədlər sırasında regionların umumi inkişafı, işsizlik, məşğulluq, yoxsulluğun azaldılması, aztəminatlı ailələrə dəstək, eləcə də ölkədaxili miqrasiya prosesi və bu məsələrdən doğan sosial problemlərin həllinə yönəlik vəzifələrin yerinə yetirilməsini daha da aktual edib. Ölkənin sosial-iqtisadi inkişaf strategiyasında prioritet kimi müəyyən edilmiş, regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, əhalinin sosial təminat və təlabatının dayanıqlı və davamlı olması məqsədiylə həyata keçirilən sosial islahatlar paketinə yeni yanaşmanı zəruri edir. Tədqiqatın nəticəsi olaraq "sosial sahibkarlıq" və sosial müəssisələrlə bağlı risk və məsuliyyəti öz üzərinə götürə biləcək hüquqi və fiziki şəxslərin formalaşmasında dövlətinin dəstəyinə ehtiyacın olmasını nəzərdə tutub. Bu isə region əhalisinin kəndli-fermer təsərrüfatlarının inkişafına, aztəminatlı ailələrin daha səmərəli və dayanıqlı sosial təminatına töhfə verə biləçək bir sahə kimi özünü beynəlxalq təcrübələrdə artıq təsdiq etmişdir.*

**Açar sözlər**: insan, rifah, sosial sahibkarlıq, ləyaqətli həyat, məsuliyyət

İnsan inkişaf konsepsiyasının əsasında onun rifahına yönələn dövlətin sosial siyasəti, sosial xidmətin səviyyəsi və innovativ modeli durur. İnsanların həyat keyfiyyətinin yuksəldilməsi dövlətimiz tərəfindən ən ali prinsip kimi qəbul olunmuş və bu istiqamətdə davamlı olaraq yeni, innovativ sosial tədbirlərin, proqram və layihələrin həyata keçirildiyinin son illər tez-tez şahidi oluruq. Cəmiyyətin müxtəlif sosial sahələrini əhatə edən imkan və bacarıqların artırılması, ədalətli və ləyaqətli, sülh və əminamanlıq şəraitində təhlükəsiz həyat tərzinə nail olmaq dövlətimizin ümdə məqsədlərindən biridir. Məhz bu məqsədi maddi və mənəvi cəhətdə tamamlayan, milli təhlükəsizliyimizin əsasında duran insan, cəmiyyət və dövlət anlayışlarını tam mənasında dogruldan 44 günlük Vətən müharibəsinin Zəfər Qələbəsindən sonra yurd-yuvamızda yeni həyat qurmaq əzmi, bizdə cəmiyyətimiz üçün yeni baxış, innovativ fəaliyyət və xidmət modellərinin ərsəyə gəlmə zərurətini yaradır.

Otuz ilə yaxın bir müddət ərzində Ermənistanın işğalı nəticəsində ərazimizin 20%-i, şəhərlərimiz, kəndlərimiz, vəhşicəsinə darma-dağın olmuş, nəinki

yer üstü mal-mülklərimiz, eləcə də yeraltı sərvətlərimiz talan olunmuş, qızıl mədənləri, digər filiz yataqları, meşə zolaqları da barbarcasına yağılanmışdır. Bütün bunların nəticəsində bir milyondan çox insanlar öz yurd-yuvalarından, yaşadıqları evlərindən zorla çıxarılmış, milyonlarca insanların maddi və mənəvi haqları ermənilər tərəfindən oğurlanmışdır. Bu faciənin qurbanı olmuş hər bir fərd, onun yaşadığı mühüt dağıdılmış və məhvə məhkum olunmuşdu. Hər bir fərdin insan haqqı, onun yaşadığı cəmiyyətin milli-mənəvi dəyərləri, bütövlükdə isə dövlətimizə dəyən küllü miqdarda ziyanın ödənilməsi hər hansı bir hesablamalarla ifadə olunsa da onun insanlığa vurduğu ziyanı, mənəvi tərəfini heç nə ilə ölçmək mümkün deyil.

Bütün deyilənlər Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ədalətli formada hərb yolu ilə artıq tarixə qovuşmuşdur. Azad olunmuş torpaqlarımıza öz sahiblərinin qayıdışı prosesinə başlanılmışdır. “Böyük Qayıdış” proqramı çərçıvəsində Qarabağ və Şərqi Zəngəzurda əhalinin yenidən məskunlaşması, infrasturukturun yaradılması, orada yaşayacaq insanların ləyaqətli həyat şəraiti ilə təmin olunması və bütövlükdə bölgənin yüksək səviyyəli inkişaf istiqamətləri artıq müəyyənləşmişdir.

Qarabagda həyta keçirilməsi nəzərdə tutulan “Ağıllı şəhər” və “Ağıllı kənd” layihələrində əhalinin illər əvvəl itirilmiş maddi və mənəvi haqlarının bərpasına yeni baxış və yeni yanaşmaları tələb edir. Bu baxımdan bu ərazilərdə müsir dünyanın sosial-iqtisadi həyatını möhkəmləndirən – *sosial sahibkarlıq,* onun müxtəlif fəaliyyət modellerinin tətbiqinə başlamaq bölgədə olduqca əhəmiyyətli faydaları ilə yanaşı yeni bir sosial xidmət modeli kimi də dəyərləndirilə bilər. Nobel Sülh Mükafatı laureatı professor Məhəmməd Yunisinin təbirincə desək, “*sosial sahibkarlıq* – insanlığın ən aktual ehtiyaclarına xidmət edən yeni kapitalizm növüdür”. Burada müasir dövrün və cəmiyyətin ictimai-iqtisadi formasiyasından asılı olaraq sosial sahibkarlığın inkişafına təsir edəcək bir neçə amilləri nəzərə alsaq, işçi qüvvəsinə bazarın tənzimlədiyi əmək haqqının ödənilməsi, daha yaxşı iş şəraitinin təmin olunması, iş və yaşam həyatında daha rifahlı və uzunmüddətli fəaliyyəti öz əksini tapmış olur. Sosial sahibkarlıq insanların sosial həyatındakı problemlərin aradan qalxmasını təmin etməklə yanaşı sosial biznes ilə qarşılıqlı əlaqələrin qurulması nəticəsində özünün ən yüksək inkişaf mərhələsinə də çata bilər. Sosial sahibkarlıq həm də ökləmiz tərəfində qəbul olunan “2015-2030-cu illərdə Dayanıqlı İnkişaf Məqsədləri“ proqramına da öz töhfəsini vermiş olar. Sosial sahibkarlar sosial müəssisələrin biznes fəaliyyətini genişləndirərək yeni sosial model tətbiq etməklə yeni xidmət sahələrinin inkişafına kömək edər. Bununla da sosial sahibkarlığa marağın artması, sosial-iqtisadi inkişaf, yeni sosial xidmət sahələrinin artması, yeni iş yerlərinin yaranması, eləcə də əhalinin sosial məmnunluğu artaraq cəmiyyətin rifahı yüksələr. Butun bu deyilənləri nəzərə alaraq “sosial sahibkarlıq” və onun inkişafıyla bağlı olan bütün sahələr bu gün dünyada və ölkəmizdə aktullığını artırır.

Azərbaycan cəmiyyəti üçün “sosial sahibkarlıq” yeni bir anlayış olsa da bunun bizim iqtisadiyyat üçün formaca fərqli olan kollektivləşmə kimi tarixi və praktik nümunələri olmuşdur. Müasir cəmiyyətin sosial-qitisadi həyatına son illərdə daxil olan “sosial sahibkarlıq” sahəsində beynəlxalq səviyyədə həm nəzəri, həm də praktik cəhətdən nümunələrinin olmasına baxmayaraq ölkəmizdə bu sahə ilə bağlı hələ ki, qanunvericilik bazası yoxdur. Söhbət “sosial sahibkarlıq”dan gedirsə, demək əvvəlcə onun məhsulu olan sosial müəssisənin nə olduğundan daha sonra isə onun sahibindən danışmalıyıq. Sosial sahibkarlıq və sosial müəssisələrin inkişafiyla bağlı dünyanın bir çox alim və tədqiqatçılar tərəfindən bu anlayışlara formaca müxtəlif olsa da, demək olar ki, mənaca çox oxşar ifadələr irəli sürülmüşdür. Cəmiyyətin sosial-iqtisadi inkişafiyla bağlı amerika və avropa alimlərindən Jill Kickul, Tomas S Lyouns, A.M.Peredo, M.McLean Azərbaycanda isə Urxan Ələkbərovun “Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları”, Mürtəza Həsənovun “Qloballaşan dünyada sosial müəssisələrin yeri və rolu (Azərbaycan nümünələri)”, Abil Bayramovun “Azərbaycanda sosial sahibkarlıq: mövcud vəziyyət və inkişaf üçün islahatların əsas istiqamətləri”, Rəcəb Rəhimlinin “Davamlı inkişafda sosial müəssisələrin rolu” adlı tədqiqatlarında bu aktual mövzuyla bağlı geniş tədqiqat işləri aparmışlar. Bəşəriyyətin, sivilizasiyanın saglam və davamlı inkişafı naminə fəaliyyət göstərən bir çox beynəlxalq təşkilat və fondlar tərəfindən də “sosial sahibkarlıq” və “sosial müəssisə” anlayışlarına izahlar verilmişdir. “ABŞ-da, sosial müəssisə – “ilk olaraq öz sosial mühiti üçün faydalı olan, lakin biznes modeli istifadə edən təşkilata deyilir”. Sosial müəssisələr birbaşa öz məhsul və xidmətlərinə sosial ehtiyacları olanlara və ya işlə təmin etdikləri qüsurlu adamlara ünvanlanıb”[1].

Ölkəmizdə “sosial müəssisə” anlayışı Azərbaycan Respublikasının “Məşğulluq haqqında” Qanununda öz əksini tapıb. Qanunun 1.1.20-ci maddəsinə əsasən, sosial müəssisə – sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün yaradılan ixtisaslaşdırılmış hüquqi şəxsdir. Qanun sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin dairəsinə əlilliyi olan şəxsləri, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları, 20 yaşadək gəncləri, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynləri, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları tərbiyə edən valideynləri, pensiya yaşına iki ildən az qalmış şəxsləri, cəzaçəkmə yerlərindən azad edilmiş şəxsləri, məcburi köçkünləri aid edir.[2]

İstər beynəlxalq , istərsə də yerli qanunvericilikdə “sosial müəssisə” anlayışından aydın görünür ki, sosial müəssisə ilk dəfə əhalinin daha həssas qrupları üçün nəzərdə tutulmuşdur. Lakin zaman keçdikcə bu müssisələr inkişaf edərək əhalinin aztəminatlı ailələrini, yoxsul, daha aşağı təminatlı kateqoriyalarını da öz əhatə dairəsinə alaraq ölkədə işsizliyin qarşısının alınması, məşğulluğun təmin olunmasında olduqca səmərəli bir sahəyə çevrilib.

Göründüyü kimi dünya və ölkəmiz üçün son dövrlərdə aktual olan sosial

sahibkarlıq və sosial müəssisələrin inkişafı məsələsi ilkin olaraq dövlətin dəstəyi olmadan sürətli inkişaf yolunu tuta bilməz. Xüsusilə bizim kimi qisa müddət ərzində bir iqtisadi formasiyadan digər bir iqtisadi formasiyaya keçən ölkələr üçün bu çox zəruri hal olaraq qalır. Dünyanın inkişaf etmiş ölkələrində ABŞ, Avropa Birliyi dövlətlərində müxtəlif formada sosial sahibkarlıqla məşğul olan çoxsayda müəssisələr vardır ki, onlar öz ölkəsinin iqtisadiyyatına və sosial sferasına əhəmiyyətli dərəcədə gəlir və rifah gətirir. Bu deyilənlərlə bağlı kifayət qədər beynəlxalq nümunələr vardır.

Fazle Abed (Banqladeş) dünyanın ən böyük ictimai quruluşunun qurucusudur. Bu quruluşun 30 mindən çox işçisi var. Abed, təhsil, səhiyyə, sosial və maliyyə işləri mövzusunda yeni fikirlərin ortaya çıxmasında liderlik etmişdir. Ayrıca yerli inkişaf üçün bölgə insanlarına səlahiyyət və ehtiyacı olan milyonlarla adama da xidmət göstərmişdir. Onun araşdırmaları başqa ölkələr tərəfindən sürətlə nümunə olaraq alınmış, onun modeli bütün dünyaya yayılmışdır. Fazle Abed, araşdırmalarının yayılması üçün bir çox təhsil proqramları təşkil etmiş və kitablar çap etdirmişdir. Dünyanın bir çox böyük "sosial müəssisə" sahibləri birləşərək dünyada sosial problemlərin daha sadə və asan həll yollarının tapılıb təqdim olunması üçün birlikdə çalışmağı qarşılarına məqsəd qoymuşlar. Onlardan;

Fazle Abed, Peter Eigen, Oded Grajev, Alice Tepper Marlin və Ashoka qurucusu Bill Drayton bir araya gələrək Sosial Sahibkarlıq Qlobal Akademiyasını qurdular. Türkiyədə Ashoka 22 fevral 2004-cü il tarixində rəsmi olaraq fəaliyyətə başlamışdır.[4]

Hər il təşkil edilən müsahibələr vasitəsilə yeni sosial sahibkarlar "Ashoka Türkiyə" ailəsinə qatılmaqdadır.[5]

Azərbaycanda bəs bu "sosial sahibkarlığın" inkişafı üçün dövlətin apardığı sosial-iqtisadi islahatlar, layihə və proqramların bu işə cəlb olunmasına hansı istiqamətlərdə daha çox fayda verə bilər sualına nəzər yetirək.

Bildiyimiz kimi əhalinin sosial rifahının yaxşılaşdırılması məqsədilə son üç ildə ölkə başçısı cənab İlham Əliyevin birbaşa verdiyi fərman və sərəncamlar əsasında sosial islahatlar paketi hazırlanıb ki, bu da illik maliyyə dəyəri 5 milyard (təxminən 3 milyard ABŞ dolları) manat olan üç əsas sosial sahəni özündə ehtiva edib. Belə ki, bu islahatlar nəticəsində həmin dövr üçün sosial ödənişlər 65 faiz, minimum pensiya 2,2 dəfə, minimum əmək haqqı 2,3 dəfə illik əmək haqqı isə 2 dəfədən çox artmışdır. 2021-ci ildə ölkə üzrə 202000 ailə üzvü 47000 aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımla təmin olunmuşdur ki, bu yardımın orta aylıq məbləği son bir ildə 17 faiz artırılmışdır. Qeyd etmək lazımdır ki, COVİD-19 pandemiyasıyla əlaqədar ötən il ölkə əhalisinin təxminən 4.6 faizini və ya 466 min nəfərin aylıq və birdəfəlik sosial müavinətlə təmin olunduğu haqqında Azərbaycan Respublikası Dövlət Statistikası tərəfindən hesabat yayımlanmışdır.[6]

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci ilin əvvəlinə verdiyi məlumata əsasən hər beş ildən bir ölkə üzrə aztəminatlı ailələrə

ödənilən dövlət sosial yardıma diqqət etsək görərik ki,

| Göstərilən illər | 2011 | 2016 | 2020 | 2021 | 2022 | qeyd |
|---|---|---|---|---|---|---|
| ÜDSY təyin olunmuş ailələrin sayı | 122781 | 105009 | 72170 | 77269 | 47000 | |
| ÜDSY təyin olunmuş ailə üzvlərinin sayı | 552514 | 451538 | 298881 | 323996 | 202000 | |
| O cümlədən, qadın | 277562 | 215001 | 159088 | 172436 | ---- | |
| Uşaqlar: nəfərlə | 274265 | 226434 | 162561 | 174319 | --- | |
| Bir nəfərə düşən orta aylıq ÜDSY-nin məbləği, manat | 24,12 | 35,49 | 50,03 | 57,10 | 94,22 | |
| Cəmi ödənilmiş məbləğ | 13 mln 327 min | 16 mln 025 min | 14 mln 953 min | 18 mln 500 min | 19 mln 032 min | |

Данный тип сверхсистем приходит на смену религиозной системе ценностей, и, описывается Сорокиным как синтез идеациональной и сверхчувственной систем. Ядром идеациональной культуры являетсяистина. Поиск истины осуществляется путем некого сочетания чувственного и сверхчувственного способов познания. Устройство идеального общества на основе идеалистической культуры описывается в сочинениях Платона, Аристотеля и Фомы Аквинского.

**Чувственная сверхсистема.**

Чувственнаясверхсистема опирается на восприятие действительности посредством чувств и ощущений. Познание мира происходит посредством рациональности и  интеллекта, опираясь на человека как на главную ценность. Устройство чувственной фазы полностью отличается от идеационального. Центром внимания выступают взаимоотношения людей, их чувства и эмоции.

**Влияние кризиса образования на смену типов культуры.**

П. Сорокинмногократно отмечает в своих работах моральную слабость современной школы, проявлениями которой можно считать возрастание преступности при одновременном росте образованности в обществе, увеличение доли грамотных преступлений в общем объёме числа совершаемых преступлений. К сожалению, на исходе XX века тенденция, описанная учёным не только не ослабевает,но и нарастает. Неудовлетворительность результатов образования указывает, по мысли П. Сорокина, на несовершенство принципов, лежащих в основе системы образования. Таким образом, учёный поднимает тему, приобретшую чрезвычайную актуальность в последнее время,-тему кризиса образования.Кризис образования, о котором так много сейчас пишут,-это кризис просвещенческой педагогической модели. Для неё характерны отраслевая направленность, ориентация на науку (сциентизм и эмпиризм) и на полезность знания. Отражая требования эпохи, просвещенческая образовательная модель ставила задачу формирования человека знающего. Последовательная ориентация на предмет, дисциплину, отражавшие бурный расцвет эмпирической науки, приводили к постепенному вытеснению гуманитарной и гуманистической проблематики из процесса обучения. Сложившаяся в последние три столетия система образования–это система получения нового знания (причём часто на основе крайне прагматического подхода), а не воспитания. Она не формирует в человеке чувство ответственности за своё поведение, за других людей, за мир в целом.Беспомощность перед хаосом фактов и дезориентация в окружающем мире, по мысли учёного, суть следствия оторванности эмпирического аспекта реальности от других ценностей жизни, ценностей добра и красоты. Этически нейтральная наука и связанное с ней образование не могут разрешить острых противоречий в мире. Несмотря на огромные успехи современного образования (количество школ всех видов, резкое возрастание процента грамотности, числа научных открытий и изобретений), количество войн, кровавых революций, тяжких преступлений и связанных с ними человеческих жертв, не уменьшились. XX столетие вошло в историю одновременно и как самое научное и образованное, и как самое кровавое из двадцати пяти прошедших веков греко-римской и западноевропейской истории.

Подвергая критическому анализу образовательную модель нового времени и те её основания, которые пришли в противоречие с современ-

ным состоянием мира, П. Сорокин вместе с тем убеждён, что в самом кризисе образования проявляется периодичная смена типов культуры, а значит и систем истины в истории. Неизбежно появление новых форм культуры, которые и обеспечат дальнейшую творческую эволюцию человечества.Каковой будет образовательная система будущего, П. Сорокин нигде прямо не пишет. Но изучение его работ, посвящённых проблемам альтруизма и христианской любви, позволяет предположить, что задачей образования должно стать, прежде всего, нравственное воспитание человека, формирование ценностных установок. Человечество, считает П. Сорокин, поставлено перед ультиматумом: «погибни от своих собственных рук или поднимись на более высокий моральный уровень посредством благодати творческой любви» [7, с.1054].

Рассмотрение науки и образования в таком контексте очень созвучно сегодняшним размышлениям о цене научно-технического прогресса, об «одномерности» современного человека, о необходимости гуманизации образования, о формировании аксиологического мышления, как важнейшей задаче педагогики. Это ещё раз подчёркивает масштабность и многогранность личности учёного, подтверждает правомерность и необходимость изучения его взглядов на проблему образования. Рассматривая образование как фактор культурной динамики, П. Сорокин затронул целый спектр проблем, звучащих очень злободневно в современной социокультурной ситуации: социальные функции образования, взаимосвязь образования и интенсивности творчества культурных ценностей, роль образования в формировании типических черт личности, проблема производства интеллектуальной элиты, кризис классической педагогической модели, нравственный компонент в образовании и др.

**Информация к размышлению.**

Следует отметить, что анализ, связанный с теоретическим обоснованием и анализом социокультурной динамики, показал противоречивость в ценностных установках и их принципиальную конфликтность. Такая гетерогенная ситуация создает сложности при осуществлении культурной политики. Современное научное сообщество постоянно сталкивается с преднамеренными и непреднамеренными искажениями в понимании «картины мира» и оценке происходящих социокультурных процессов. Неосознанность или злонамеренное искажение происходящего в мире становится смертельно опасной угрозой, особенно если учитывать темп, ритм и гетерогенность происходящих процессов. Все вышеупомянутые факторы отнюдь не положительно сказываются на нынешнем состоянии общественного развития. Именно по этой причине, изучение социокультурных процессов в современных условиях, все также требует усилий и остается актуальным по сей день[11].

**Заключение.**

Отметим, что специфика культуры заключается именно в том, что она не выдвигает никаких лозунгов, так как она в них не нуждается. К большому сожалению, даже общество, провозгласившее своим идеалом свободу, всяческими путями пытается ограничить ее. Культура является обителью свободы, которая заключается в ее внутренней сути и необъятности творческих возможностей индивида. Главной задачей современного общества должно быть стремление к сохранению культурной свободы, в отсутствии которой культура задыхается и гибнет. Наиболее эффективным решением в данном случае является поддержание культурной политики на государственном уровне. Одним из решающих факторов в формировании так называемого культурного иммунитета выступает система образования, которая посредством современных образовательных программ воздействует на массовую культуру. Следует создать самые благоприятные условия для творчества человеческого духа.

**ЛИТЕРАТУРА**

1. Болдуин, Д.М. Духовное развитие с социологической и этической точки зрения. Исследование по социальной психологии. Том 1. Личность. – Москва: Либроком, - 2011.
2. Кребер, А.Л. и Клакхон С. Культура: критический обзор концепций и определений // Статьи Пибоди Муз., 1952, 47, № 1 Кребер А.Л. и Клакхон С. Культура: критический обзор концепций и определений // Статьи Пибоди Муз., 1952, 47, № 1, с. 181.
3. Малиновский Б. Избранное. Динамика культуры. с. 190 – 191.
4. Парсонс Т. Система современных / обществ / Пер. с англ. Л.А.Седова и А.Д.Ковалева. - Москва: Аспект – Пресс, 1997.
5. Рэдклифф - Браун А.Р. Взгляд Уайта на науку о культуре // Личность. Культура. Общество. – Том X. – Вып. 3 – 4( 42 – 43). – с. 75 – 86.
6. Сорокин, П.А. Система социологии // Социальная аналитика. Учение о строении сложных социальных агрегатов. Т.2. - Москва: Наука, - 1993.
7. Социальная и культурная динамика: Питирим Сорокин; Пер. с англ. В. В. Сапова. — Санкт-Петербург: Изд-во Рус. Христиан.гуманитар. Ин-та, 2000. — 1054 с. (Социология: Университет.б-ка / Ин-т социологии РАН, Междунар. ин-т Н. Кондратьева — П.Сорокина).
8. Спенсер, Г. Основания социологии. СПб., 1998. Т.1, 2.
9. Тойнби, А. Постижение истории. - Москва: Политиздат, - 1991.
10. Хорошкевич, Н. Г. Неоднозначность массовой культуры [Текст] / Н.Г.Хорошкевич // Социологические исследования. – 2011. – №11. – с. 111- 117.
11. http://edoc.bseu.by:8080/bitstream/edoc/9560/2/Sociokulturnaja_dinamika_v_uslovijah_globalizaciipdf_ocr.pdf

## SOSİOMƏDƏNİ DİNAMİKA FƏLSƏFİ-METODOLOJİ TƏDQİQAT OBYEKTİ KİMİ

**D.N.ƏLİYEVA**

**XÜLASƏ**

Bu məqalədə sosial və mədəni sistemlərin dövri dəyişmələri ilə səciyyələnən sosiomədəni dinamika fenomeni öyrənilir. Dövri inkişaf modeli çərçivəsində sosiomədəni dinamika mexanizmi fəaliyyətinin izahedici hipotezi qurulur. Öncəki mədəni modelinin və onda qoyulmuş idrak prinsiplərinin tükənməsi problemini ilk qaldıran rus-amerikan sosioloqu Pitirim Sorokinin baxışlarına xüsusi diqqət yetirilir. Üç əsas supersistem nəzərdən keçirilir: ideal, həssas və idealist. Bundan başqa, mədəniyyət anlayışının mahiyyəti, onun subyekti və spesifik xüsusiyyətləri açıqlanır. Mədəni dinamika haqqında iki əsas model (təkamülçü və posttəkamülçü) nəzərdən keçirilmişdir. Müxtəlif mədəni konsepsiyalar araşdırılır və tanınmış xarici müəlliflərin mədəni sisteminin xüsusiyyətləri ilə bağlı fikirləri təhlil edilir. Bundan başqa, sosiomədəni sistemin birfaktorlu və çoxfaktorlu konsepsiyaları nəzərdən keçirilir. Sosial sistemin cavab verməli olduğu əsas tələblər müzakirə olunur. Müasir şəraitdə sosiomədəni proseslərin tədqiqinin vacibliyi vurğulanır.

**Açar sözlər:** mədəni sistem, sosial sistem, sosiomədəni dinamika, müasir şəraitdə sosiomədəni proseslərin öyrənilməsi.

## SOCIO-CULTURAL DYNAMICS AS AN OBJECT OFPHILOSOPHICAL AND METHODOLOGICAL RESEARCH

**D.N.ALIYEVA**

**SUMMARY**

This article studies in detail the phenomenon of socio-cultural dynamics, characterized by cyclical changes in social and cultural systems. Within the framework of the cyclic model of development, an explanatory hypothesis of the functioning of the mechanism of socio-cultural dynamics is built. Special attention is paid to the views of the russian-american sociologist Pitirim Sorokin, who was one of the first who raised the problem of the exhaustion of the previous cultural model and the principles of cognition inherent in it. Three main supersystems are considered: ideational, sensual and idealistic. In addition, the essence of the concept of culture, its subject and specific features are revealed. Also, there is a consideration of two main models of ideas about the dynamics of culture, which include: evolutionist and post-evolutionist models. Various concepts of culture are investigated and the views of well-known foreign authors on the specifics of the cultural system are analyzed. In turn, the concepts of the socio-cultural system are also studied, namely: one-factor and multifactor systems. The main requirements that the social system must meet are discussed. The importance of the study of socio-cultural processes in modern conditions is emphasized.

**Key words:** culture, cultural system, social system, socio-cultural dynamics, research of socio-cultural processes in modern conditions.

**UOT 327**

# MÜHARİBƏ VƏ DİSKURS: ELİN GÜCÜ, DİLİN GÜCÜ

**V.B.CƏFƏROV**
***Bakı Dövlət Universiteti***
***veliyullacafarov@mail.ru***

*Məqalədə müharibə dövrü üçün səciyyəvi olan diskursların elmi-nəzəri tədqiqi nəticəsində müəllif "hibrid diskurs" anlayışının daha effektiv olduğu qənaətinə gəlir. Bütövlükdə isə müharibə və siyasət diskursları binar anlayışlar kimi təqdim olunur. Məqalədə müharibə diskurslarına beynəlxalq münasibətlər və siyasət müstəvisində linqvistik və praqmatik yanaşma diqqət mərkəzində dayanır.*

**Açar sözlər:** müharıbə, diskurs, siyasət, hibrid diskurs, qələbə, dialoq, beynəlxalq münasibətlər, kommunikativ proses, kommunikativ davranış

Ötən əsrin sonuna doğru bir çox elm sahələrində (fəlsəfə, dilçilik, psixologiya, sosiologiya və s.) yeni, mənası axıra qədər bilinməyən "diskurs" termini dövriyyəyə buraxıldı. Yüksək işləkliyi və populyarlığı ilə diqqət çəkən diskursun İndinin özündə elmi ədəbiyyatda diskursun hamılıqla qəbul olunan bitkin açıqlaması yoxdur. Biz də diskursun açıqlamasını tapmaq cəhdində olmadığımızı etiraf edərək, mövcud bilgilər bazasında xalqımızın şanlı tarix səhifəsi olan "44 günlük" (27.09.2020-10.11.2020) müharibə diskurslarının beynəlxalq münasibətlər müstəvisində linqistik və praqmatik analizinə kreativ yanaşma sərgiləmək məqsədindəyik. Müharibədə qazandığımız parlaq qələbəyə aparan yol məhz Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diskurslarında öz aydın əksini tapmışdır.

Müharıbə dövründə hərbi diskurs və eləcə də digər diskurslar siyasi diskursun bir qolu və yaxud "müharibə haqqında siyasi diskurs" kimi xarakterizə olunur. Bu o deməkdir ki, siyasi diskurs "ana diskurs" statusunda qalmaqla öncüllüyü özündə saxlayır. Çünki, bir vaxtlar hərbi nəzəriyyəçi, general **Karl fon Klauzevitçin** yazdığı kimi "...müharibə siyasətin qeyri vasitələrlə davamıdır" (6). Bu incəliyi amerikalı tədqiqatçı **Ceffri Maykls** "...münaqişə dövründə diskurs həm birbaşa, həm də dolayı təsirə malikdir. Müharibə və siyasət fərqli sosial hadisələr olsa belə aralarındakı bağlılıq inkarolunmazdır. Bəzən siyasət silahlı qarşıdurma səviyyəsində qavranılır və gerçəkləşdirilir. Bəlkə də elə bu səbəbdən siyasi leksikonda "...müharibə terminləri daha işlək olur. Odur ki,

müharibə aparılması prinsipləri "müharibə dilindən" təcrid oluna bilməz" şəklində diqqətə yönəldilir. Bir sözlə, "Müharibə o deməkdir ki, insanlar bir-biri ilə danışır" (12, s.35-45).

Yaşadığımız sürətlə dəyişən dünyada baş verən proseslər siyasətçilər tərəfindən çox müxtəlif terminlərlə ifadə olunur. Təbii ki, dildən istifadə olunmaqla. Bu özünəməxsus yürüşdə "diskurs" anlayısı, demək olar ki, birincilik qazanıb. İnsanların fəaliyyət istiqamətlərinin müxtəlifliyi, yeni texnologiyaların həyatın bütün sferalarına nüfuz etməsi, qloballaşan dünyanın problemlərinin boyartımı və gerçəkdə baş verən çeşidli proseslər də birbaşa diskursların çoxsaylılığına dəlalət edir.

Diskurs anlayışının çoxmənalı şərh olunduğunu nəzərə alsaq, ilk növbədə, real zaman biçimində insanın gerçək olanları təsvir etmək məqsədi daşıyan müəyyən formalı sosial aktivliyi, daha doğrusu, kommunikasiya aktı olduğunu qeyd etməliyik. Dilçilər iddia edirlər ki, diskurs ünsiyyət, kommunikasiya, mətn, dialoq anlayışları ilə yaxınlığı olan anlayışdır. Bütün bunların nə dərəcədə doğru olduğu isə böyük elmi mübahisələrə yol açır.

Belə qənaət var ki, "diskurs mətndir və mətndən kənar heç nə yoxdur" **(*'il n'y a pas de hors texte')."*(Jak Derrida)** deyimində böyük bir ideya yaşayır**.** Bununla yanaşı "Bütün diskurslar mətndir. Bunun əksi isə mümkünsüzdür" və yaxud "Diskurs ölçülərinə görə cümlədən böyük nitq vahididir" kimi fikirlər də ardıcıl dövriyyəyə buraxılır. Bir şərtlə ki, mətn bir-birini tamamlayan iki kommunikativ vahiddən, yəni iki cümlədən az olmamalıdır. Aydındır ki, mətn də bilavasitə nitq (yazılı və ya şifahi) və dil fəaliyyəti ilə bağlıdır. Diskurs mətnin hüdudları ilə məhdudlaşdırıla bilməz, çünki diskursun təhlili zamanı söhbət yalnız deyiləndən yox, həm də deyilməyən və ya deyilə bilməyən haqqında da gedir.

Bizim üçün diskurs kommunikativ proses olaraq informasiya mübadiləsinə xidmət edirsə, onun dialoq anlayışı ilə sinonimliyi daha ağlabatandır. Xüsusilə bu halda kommunikasiyanın funksiyalarının realizasiyası üçün imkanlar daha genişdir. Bəzi hallarda elmi əsas olmadan diskursu sifahi tələffüz olunan nitq, mətni isə yazılı nitq adlandırmaqla problemin aradan götürülməsinə imza atmağa cəhd edirlər.

İstənilən diskursun əsas göstəricilərindən biri də tərəflərin qarşılıqlı birgə fəaliyyətində informasiyanın interperitasiyasıdır. Adresat adresantı öz istədiyi kimi başa düşmək cəhdində olduğundan məqam daxilində subyektlər arasında kommunikasiya qırılır. Tərəflər bir-birini başa düşmək istəyindən uzaqlaşır. Danışıqların gerçəkləşməsi istəyi maraqların ziddiyyəti, eyni dərəcədə diskurs müxtəlifliyi ilə bağlı olur. Diskursu birbaşa dil adlandırmaq da doğru deyildir. Diskurs eyni zamanda söyləmin anlaşılmasının sınırlarını cızmaq və bu prosesdə müəyyən gercəkliyin dərk olunması istiqamətindəki cəhdləri özündə ehtiva edir" (**Roksana Doti**). Məhz bu açıqlamadan formalaşan qənaət bundan ibarətdir ki, diskurs, həqiqi mənada, dialoqdur və kommunikativ akt kimi danışan və dinləyənin iştirakını tələb edir. **E.Kubryakova** yazır ki,"...Uzun illər ingilis

dilli mənbələrdə diskurs "nitq fəaliyyəti" və yaxud "kommunikativ fəaliyyət" kimi təsvir olunub" (7, s.5-13). Başqa bir müəllif isə "...ingilislər və amerikalılır diskursu dialoq anlayışı ilə eyniləşdirirlər" (11, s.128) fikrini bölüşür.

Elmi mənbələrdəki qeyri-müəyyənlik ücbatından ayrı-ayrı müəlliflər diskurs anlayışını öz bildikləri və istədikləri kimi şərh edir, yeni-yeni çalarlarla zənginləşdirməyə meyllənirlər. Bu məqamla bağlı ünlü tədqiqatçılardan **Deyk van T.** "…diskurs anlayışı da dil, cəmiyyət, ideologiya anlayışları kimi qəlizdir. Etiraf olunmalıdır ki, çətin sərh olunan, qəliz anlayışlar həmişə populyar olur. Diskurs da onlardan biridir" (4, s.4) fikri diqqətəlayiqdir.

Əksər tədqiqatlarda diskurs bir neçə mənada şərh olunur:

1. Nitq anlayışına ekvivalent anlayış, yəni konkret deyim (ifadə, söyləm);
2. Ölçülərinə görə frazadan böyük nitq parçası;
3. Dinləyiciyə təsir göstərə bilən ifadə;
4. Adi söhbət;
5. Dil vahidlərinin aktuallaşdığı nitq parçası;
6. Nitqin formalaşması şərati və s.

Ümumiyyətlə, məntiq, fəlsəfə, sosiologiya, politologiya və diplomatiyada diskurs kommunikasiya, ünsiyyət anlamındadır və iki cür başa düşülməlidir:

1. "Kommunikasiya mühitində yazılı mətn va yaxud şifahi nitq şəklində gerçəkləşən konkret kommunikativ hadisəni əks etdirən termin";
2. Bütövlükdə hər hansı ümumi mövzu ilə bağlı olan mətn və yaxud diskursda cəmləşən, tematik cəhətdən bağlılığı olan mətnlərin toplusu kimi şərh olunan termin".

Diskurs o zaman formalaşır ki, real zaman içində yazılı mətni oxuyan, yaxud dinləyən tərəfin təfəkküründə informasiyanın təsiri altında adresantın düşüncəsinə müvazi olan məna və assosiasiyalar oyanır. Bu qarşılıqlı anlaşma deməkdir. Əslində diskurs peşə fəaliyyət sferasından kənar baxılmayan bir hadisədir. Digər tərəfdən isə diskurs zaman və məkan çərçivəsindəki konvensional səciyyəli davranış və fasiləsiz dialoq kimi şərh oluna bilər. Bizim bu səpkili yanaşmamızın nəticəsi olaraq, şərti qaydada ayrı-ayrılıqda hərbi, siyasi, diplomatiya, idman və s. diskurslarından danışa bilərik. Gerçəkdə isə diskurslar inteqrasiyaya meyllidir və bu əsasda "hibrid diskurs" termini daha uğurlu sayıla bilər.

Məqalədə müharibədən əvvəl, müharibə dövründə və həm də müharibədən sonrakı dövrdə Prezidentin diskurslarını tədqiq etmək qarsıya məqsəd qoyur. Məhz bu dövrlərdəki diskurslar qələbəmizin "Zəfər salnaməsi" kimi qiymətlidir. Hərbi-siyasi diskurs reallığı şərh etməklə inandırmaq, təsir göstərmək məqsədi daşıyan effektiv kommunikativ davranış formasıdır.

Dünya düzəninin nizamsızlığı, dəyişdikcə - dəyişən "oyun qaydaları" beynəlxalq münasibətlərin aktorları olan dövlətləri üz-üzə qoyur, maraqların kəsişmə koordinatlarında qarşıdurmalar, münaqişələr və müharibələr baş qaldırır. Bəzən həqiqiliyi təsdiqini tapmayan ziddiyyətli normativlər ətrafında tərəflərin "diskurs müharibəsi" başlayır. Amerikalı filosof **U.Gey** bu fikri bir qə-

dər də tamamlayaraq göstərir ki, "...Kim diskursa nəzarət edirsə, müharibə və sülh həqiqətlərinin insanlar tərəfindən dərk olunması üçün təsir imkanları da yüksək olur. Bilməliyik ki, diskurs hərb və sülh davranışının, tam mənasında, təməl daşıdır" (8, s.29). Hərbi – siyasi diskurs əslində siyasi, hərbi və publisistik diskursların inteqrasiya olunduğu «hibrid diskursdur».

Qeyd etmək lazımdır ki, qlobal həyatın və sosial münasibətlərin bütün diskursları bir-birinə çox yaxındır, hətta aralarında sərhəd yox kimidir. Hibrid diskurslar ən azı iki diskursun qovuşmasını tələb edir. Bu zaman diskurslardan biri "ana diskurs", digərləri isə "yardımçı diskurslar" kimi təsəvvür olunmalıdır. "Ana diskurs" məzmunu, "yardımçı diskurslar" isə formanı müəyyənləşdirir və ifadə edir (10, s.15-21). Reallıqların və həqiqətlərin indiki mənzərəsini olduğu kimi əks olunması subyektlərin bağlandığı diskurs rejimindən qaynaqlanır. Azərbaycan Respublikası Prezidentinin "Valday" klubundakı "Qarabağ Azərbaycandır. Nida işarəsi!" diskursu yalnız adi sözlərdən formalaşan nitq parçası deyildir. Bu siyasi diskurs dövlətimizin qüdrətinin və onun başçısının qətiyyətinin zaman və məkan daxilində translyasiyasıdır. İnformasiyanın təkünvanlı fenomen olmadığını qeyd etsək Prezidentin diskursunun gələcək davranış haqqında "start informasiyası" olduğu bir həqiqətdir və "İnformasiya İnformasiyadan doğur" deyimi öz təsdiqini tapır.

Razılaşaq ki, diskurs mürəkkəb kommunikativ hadisədir və mətndən başqa ekstralinqvistik faktorların (fon bilgiləri, tələbat, adresantın məqsədləri və s.) təsirinə məruz qalır. Mətnin qavranılmasında sadalananların xüsusi rolu qeyd olunmalıdır. **A.Mol** yazır ki, insanlar 30 min işarədən artıq mətni qavramaqda çətinlik çəkirlər. Bu ona işarədir ki, fikrin yığcam ifadə olunmasına çalışmaq lazımdır. Bu yanaşmada məqam, hadisə, tərəflərin informasiyaya olan ehtiyacı diqqətdən kənarda qaldığı göz qabağındadır. Müharibə günlərində ön cəbhədən xəbərləri, xüsusi buraxılışlarda Azərbaycan Respublikası Prezidenti Ali Baş Komandan İlham Əliyevin şəhər və kəndlərimizin işğaldan azad olunması xəbərini çatdırarkən bölüşdüyümüz sevinc anları ölçüyəgəlməzdir.

Məhz müharibə faktorunun təsiri altında "diskursiv səxsiyyət" formalaşması zərurətə çevrilir. Diskursiv şəxsiyyət kommunikativ səlahiyyətliliyi çərçivəsində adresatın informasiya ehtiyaclarını ödəyən, hadisə və prosesləri, faktları məntiqi ardıcıllıqla şərh etmək bacarığı olan, hər bir sifahi və yazılı məlumatın məsuliyyətini daşıyan etibarlı mənbədir. Həqiqətən, bir çox hallarda "interperitasiya faktlardan da təsirli olur" (**Dora Yanou**). Xüsusilə hərb dövrü üçün olduqca zəruri sayılan odur ki, "...Danışan kimdir, kimin üçün və nədən danışır, niyə danışır və nə dərəcədə effektiv danışır?" (9).

Diskurs həmişə ünvanlıdır (dinləyici yoxsa danışan, yəni adresatsız adresant yoxdur) və istənilən söyləmin həqiqi mənası yalnız konteks daxilində, konkret məqamda və konkret məkanda təsdiqlənir, diskursun məqam daxilində dil işarələrindən yazılı və sifahi istifadə olunmaqla məqsədyönlü və şüurlu fəaliyyət (ünsiyyət, kommunikasiya) olduğunu heç bir şəkildə inkar edə bilməsək də, bəzi tamamlamalara ehtiyac olduğunu etiraf etməliyik. Çünki ünsiyyət, xü-

susilə şifahi formada, verbal və qeyri-verbal vasitələrin iştirakından kənar təsəvvür oluna bilməz. Diskurs müstəvisində yanaşsaq birmənalı şəkildə “qeyri-verbal diskurs” haqqında da düşünməliyik. Aydındır ki, hibrid diskursun bir qolu da məhz qeyri-verbal diskursdur. Tədqiqatlarda canlı ünsiyyət aktında insanların dildən yalnız 35 % həddində istifadə etdiyi göstərilir. Belə olduqda, yerdə qalan 65% qeyri-verbal vasitələrin (jestlər, mimika, baxışlar və s.) payına düşür (2, s.13).

Müharibə dövründə həyata vəsiqə alan “Dəmir yumruq” diskursu Prezidentin televiziya ilə xalqa müraciətlərində özünə yer alan kinesik vasitədir və deyilənlərlə (mətnlə) koqurentlik təşkil edir, yəni üst-üstə düşür. Qeyd olunmalıdır ki, xalqımızın qələbə əzmini, real gücünü, hər an düşməni susdurmaq iqtidarında olan müasir ordusunun, hərbi arsenalının olduğunu təcəssüm etdirir. “Dəmir yumruq” isə daha geniş auditoriyaya ünvanlanan çoxmənalı, çoxvektorlu transsərhəd bir kateqoriya kimi Azərbaycanın zaman və məkan daxilində ucalan haqq səsidir. Hər bir jest mahiyyət etibarilə “sözdür”. Biz sözlərdən cümlə qurmaqla gerçək olanları, qəlb döyüntülərimizi ifadə edirik. Hətta ola bilər ki, sadə bir jest mətn qədər geniş olsun. Diqqətlə yanaşsaq görərik ki, canlı kommunikasiya məqamında qeyri-verbal diskurslar verbal diskursları qabaqlayır. Bu rəqabətin elmi-psixoloji əsasları hələ də öyrənilməmişdir.

Azərbaycan Respublikası Prezidenti Ali Baş Komandan İlham Əliyevin çıxışlarında qələbə rəmzi olan **“Dəmir yumruq”** ifadəsi məhz bu əsasda əbədiyaşarlıq qazanmışdır.

- ***“Dəmir yumruq”*** *ifadəsini mən bir neçə dəfə şəhər və kəndlərin işğaldan azad edilməsi ilə bağlı Azərbaycan xalqına müraciətimdə istifadə etmişəm. (.........) Ancaq bu, birdən deyil, hərbi əməliyyatların gedişində baş verdi”.*

- *“Dəmir yumruq****”, sadəcə, güc deyil, bu, birlikdir****”.*

- *“Müharibə onların yadından çıxmasın. Unutmasınlar ki,* ***dəmir yumruq yerindədir****. Bu səfərlərə son qoyulmalıdır. Biz xəbərdarlıq edirik, əgər belə təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq.”*

Haqqında fikir bolüşəcəyimiz “Zəfər diskursu” da hibrid diskurs kimi hərbi, siyasi, publisistik, KİV duskurslarının ortaqlığından formalaşır. Gerçək odur ki, çoxçeşidli olmaqla yanaşı heç bir diskurs universal səciyyəli deyildir. Bu onunla izah olunur ki, “...diskurslar gerçəklikdən qaynaqlanır və müəyyən tarixi bir şəraitdə bir növ cəmiyyətin sifarişi kimi başa düşülməlidir”.

*-Biz Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına* ***heç vaxt imkan verməyəcəyik.***

*-Heç vaxt imkan verə bilmərik ki, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək,* ***onu yerindəcə məhv edəcəyik.*** *Bunu hər kəs bilməlidir.*

*-Ancaq bu dövr ərzində mənim üçün ondan da vacib məsələ* ***torpaqlarımızın qaytarılması idi, ərazi bütövlüyümüzün bərpası idi.***

Hərbi-siyasi diskurs dövlət və hökumət başçılarının, siyasi elitanın həm müharibə öncəsi, həm də müharibə dövründə, hərbi əməliyyatların müxtəlif

mərhələlərindəki çıxışları, xalqa müraciətləri, mətbuata verdikləri müsahibələr, bəyanatlar, beynəlxalq konfranslarda və görüşlərdə səsləndirdiyi fikirlər formalaşdırır. Bu zaman əsas məqsəd birmənalı şəkildə müharibəyə çağırış deyildir. Başlıca məqsəd gələcək atılacaq addımların legitimləşməsi, ordunun döyüş ruhunun formalaşması, xalqın dəstəyinin qazanılması, vətənpərvərlik ruhunun cilalanmasına yönələn strategiyadır. 30 ilə yaxın bir dövrdə Ermənistan və Azərbaycan arasında baş verənlər də bu sırada uzunmüddətli münaqişə olaraq 44 günlük müharibədə bizim qələbəmizlə tamamlandı. Təcavüzkar Ermənistanın "Qarabağ Ermənistandır. Nöqtə." diskursu "Qarabağ Azərbaycandır! Nida işarəsi!" diskursu qarşısında təslim oldu.

Təbii ki, siyasətçilərin çıxışlarını təhlil edərək, onların auditoriyanı inandırmaq üçün istifadə etdikləri arqumentasiya, strategiya və taktikalarını müəyyən etmək olar. Çıxışların tədqiqi, bir tərəfdən, siyasətçinin gələcək hərəkətlərini və niyyətlərini proqnozlaşdırmağa, digər tərəfdən isə dinləyicilərə təsir üsullarını təyin etməyə imkan verir.

Son dövrlərdə dövriyyəyə buraxılan "qeyri-hərbi müharibə" anlayışı əslində imkan verir ki, biz də "qeyri-hərbi diskurs" terminini sonsuz diskurslar cərgəsinə calaqlayaq. Bu seçimlə şərti razılaşmalı olsaq, birmənalı şəkildə qeyri-hərbi vasitələr sırasında informasiya məfhumunun əsl çəkisinə xüsusi diqqət yönəltməliyik. Nəzərə alsaq ki, informasiyasız kommunikasiya yoxdur, eləcə də diskursu kommunikasiya adlandırmaq heç bir mübahisə yaratmır. Bu incəliyə Qədim Çin hərb təlimlərində (Sun Tsızı e.ə. VI-V əsr) verilən önəm "...Müharibədə silahsız doyüşməyi bacaran tərəf qalib gəlir!" şəklində ifadə olunurdu. "....Bunun üçün rəqibin" planlarını alt-üst etmək", "müttəfiqlərindən uzaqlaşdırmaq" və sonda "ordusunu məhv" etmək lazımdır" (3). Qeyd olunmalıdır ki, analoji məntiq bir qədər fərqli şəkildə digər mənbələrdə də özünə yer alır. Müharibə qaçılmaz olduqda düşmən ordusunu məhv etmək, ehtiyatlarını qənimət kimi ələ keçirmək və ən başlıcası ictimai rəyi öz xeyrinə formalaşdırmaq tələb olunur.

Bir çox mənbələrdə hərbi-siyasi diskursun "Prezident diskursu" kimi tədqiq olunmasına da cəhd olunur. Biz "hibrid diskurs" və onun əlamətləri ilə bağlı fikirlərimizdə bu istiqaməti nəzərdən qaçıra bilmərik. Prezident legitim səlahiyyətlərin daşıyıcısı, həm də xalqın lideri və dövlətin simvoludur. Dövlətin daxili və xarici fəaliyyətinin əsas istiqamətlərinin müəyyən edilməsi və onların icrasına yönələn cəhdlər və gerçəklikdə baş verənlərə münasibəti əks etdirən diskurslar zaman içində davranışın formatını (məzmununu və formasını) ortaya qoyur. Bunun nəticəsidir ki, hərb dövründə insanlar yalnız siyasi liderlərin dilindən səslənənləri ciddi sayırlar (**D.Bostdorf**)1

Bizim Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin hərbi-siyasi diskurslarında izlədiyimiz əsas məqamlar aşağıdakılardır:

1. Azərbaycanın suveren dövlət olaraq ərazi bütövlüyünün təmin olunması;

2. Torpaqlarımızın bir qarışının da danışıqların predmeti olmayacağı;

3. Qarabağın Azərbaycanın tarixi torpaqları və ayrılmaz tərkib hissəsi olmasını dünya birliyinə çatdırmaq;

4. Münaqişəni danışıqlar yolu ilə beynəlxalq hüququ norma və prinsipləri əsasında həll etmək;

5. Azərbaycanın güclü dövlət olmasını diqqətə çatdırmaq;

6. Ordumuzun hər an torpaqlarımızı işğaldan azad etmək iqtidarında olması.

Odur ki, hərbi-siyasi diskursun funksiyalarını sistemləşdirərkən ünsiyyətin (kommunikasiyanın) funksiyalarına söykənməklə aşağıdakıları daha zəruri sayırıq:

Deyilənlərin əyani təsviri məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyevin müxtəlif televiziya, qəzet və jurnalların təmsilçilərinə verdiyi müsahibə materiallarına diqqət yetirək:

**1.İnformativ -** hər gün öz xalqını cəbhədəki, son vəziyyətlə bağlı məlumatlandırmaq. Dövlətin qəbul etdiyi qərarların, atacağı addımların mahiyyətini bəyan etmək.

*- Biz torpaqlarımızı nəyin bahasına olsa, qaytaracağıq.* ***Ya dinc yolla, ya da müharibə yolu ilə****, lakin qaytaracağıq.*

*- Həm bizə qarşı yönəlmiş açıqlamalar, eyni zamanda, addımlar onu göstərirdi ki, Ermənistan* ***yeni müharibəyə hazırlaşır****.*

*- Azərbaycan xalqına müraciət edərək deyirdim ki, Ermənistan bizə tarix versin, təqvim versin nə zaman bizim torpaqlarımızdan çıxır, biz* ***dərhal müharibəni dayandırmağa hazırıq****.*

**2. İnandırmaq -** Qarşı tərəfi öz tutduğu movqedən geri çəkinməyin daha faydalı olacağına inandırmağı:

*- Bildiyiniz kimi, bu gün* ***Azərbaycan Ordusu döyüşdə qalib gəlir****. Bu gün biz şəhərləri, kəndləri bir-birinin ardınca azad edirik;*

*- Ermənistan tərəfi işğal olunmuş ərazilərin boşaldılmasına dair üzərinə öhdəlik götürəcəyi təqdirdə* ***istənilən vaxt dayanmağa hazırıq;***

*- Biz ermənilər deyilik. Onlar bizə qarşı etnik təmizləmə törədiblər (.......). Lakin biz eyni qaydada davranmayacağıq.* ***Biz qisas almayacağıq****.*

**3. Çağırış –** Üçüncü tərəflərin etimadını qazanmaqla həm siyasi meydanda, həm də döyüş meydanında qələbəni təmin etmək:

*- Ermənistan işğal olunmuş ərazilərdən qoşunların çıxarılması ilə bağlı üzərinə öhdəlik götürməsə* ***biz sona qədər vuruşacağıq****;*

*- Hesab edirəm ki, Ermənistan böyük bir səhv edir, çünki lap əvvəldən bizə qulaq assaydılar, müharibə uzun müddət bundan öncə dayanardı və* ***biz artıq danışıqlar masası arxasında olardıq****;*

*- Biz ölkənin bütün dünya tərəfindən tanınan* ***ərazi bütövlüyünü bərpa edənə kimi****, sona qədər gedəcəyik;*

*- Bu gün biz onlara yerini göstəririk və dediyim kimi, onlar qalan əraziləri könüllü olaraq boşaltmasalar, biz onları axıra qədər qovacağıq.*

**4. Haqq qazandırmaq –** Müharibənin ədalətli aparıldığını bəyan etmək-

lə qarşı tərəfin təcavüzkar olmasını bəyan etmək. Beynəlxalq aləmdə öz sülhsevər imicini möhkəmləndirmək.

*-Biz döyüş meydanında döyüşürük. Biz erməni ordusuna qarşı döyüşürük. Biz mülki şəxslərə qarşı döyüşmürük. Bunun heç bir mənası yoxdur, çünki* ***bizim vəzifəmiz torpaqları azad etməkdir;***

*-Biz öz torpağımızda vuruşuruq. Erməni ordusu bizim torpağımızdadır, onlar təcavüzkardır və biz təcavüzün qurbanı olmuşuq.* ***Lakin bu gün biz qisasımızı alırıq.***

Hər bir diskurs gerçəklik haqqında təsəvvürlərin bazasını formalaşdırır. Bu mənada sözlər yalnız reallığı təsvir etmir, əslində onu formalaşdırır. Həqiqi mənada, dil heç vaxt obyektivlikdən kənar, yəni neytral deyildir. Müharibə öncəsi diskursların tarixi qələbəmizin təminatçısı kimi **PREZİDENT-XALQ-ORDU** qırılmaz birliyin formalaşmasında mühüm rolunu təsdiqlədi. ”Biz gerçəkliyi həyat təcrübəsi əsasında dərk edirik, məlum tarixi faktlardan istifadə etməklə bilgilərimizi zənginləşdiririk, öz aramızda apardığımız söhbətlərdə dəqiqləşdiririk ki, təsəvvürlərimiz daha kamil olsun”(**Debora Kemeron**). Belə ki, “... siyasi liderlər sözlə hücum çəkir, zərbələr endirir, lazım gəlsə geri çəkilib müdafiə olunurlar, öz güclərini səfərbər edib yenidən düşmənin üzərinə şığıyırlar” (1).

*-Eyni zamanda, bizim məqsədyönlü səylərimiz nəticəsində münaqişə ilə bağlı, Qarabağın tarixi ilə bağlı* ***dünya ictimaiyyətinə dolğun məlumat çatdırıldı, Ermənistanın yalançı təbliğatına son qoyuldu və bütün dünya gördü ki, Qarabağ bizim əzəli tarixi torpağımızdır.***

Hərbi-siyasi diskursun tematikası daha çox beynəlxalq və dövlətlərarası münasibətlər, hərb və sülh problemlərini əhatə edir. “Beynəlxalq münasibətlər sistemində münaqisələr həm qarşılıqlı hərbi-siyasi fəaliyyətin bir forması, həm də ziddiyyətlərin aradan qaldırılması vasitəsi kimi mövcud beynəlxalq münasibərlərin qorunmasına xidmət edir. Belə başa düşməliyik ki, münaqişələr ”qaynar qazanın” daşmaması üçün qapağının vaxtında açılmasına bənzəyir” (**Manoylo A.**).

Şifahi kommunikasiya modelləri (çıxışlar, müraciətlər, bəyanatlar, müsahibələr) hərbi-syasi diskursun daha aktual janrları sırasında durur. Diskurs bütövlükdə ünsiyyət deyildir” (2, s.81-86). Bu anlayış müəyyən məqsədləri. sosial, psixoloji, milli-mədəni, statusları olan iştirakçıları nəzərdə tutur. Ancaq kommunikasiyanın məqsədi və iştirakçıların kimliyi konkret halda diskursun tipindən asılıdır.

Biz belə qənaətdəyik ki, dildən istifadə olunması ilə gerçəkləşən məqsədyönlü və şüurlu fəaliyyətin bütün formaları diskurs adlandırılmalıdır. Ola bilər ki, bəzi hallarda bir nəfər çıxış edir. Bu monoloqun “birtərəfli diskurs” kimi şərh olunmasına yol açır. Bu yanaşma doğru yanaşma deyildir. Ölkə başçısını hərbi-siyası diskurları (xalqa müraciətləri, çıxışları beynəlxalq tədbirlərdə, konfranslarda çıxışları, bəyanatlar) dialoqun xüsusi bir formatı kimi həm daxili, həm də xarici auditoriyanın adresat qismində prosesdə istirakını inkar

etmir. Bu zaman, sadəcə, əks əlaqə imkanları məhdudlaşır.

Bir sözlə, Vətən müharibəsi insanların illər boyu vərdiş etdikləri həyat fəlsəfəsini dəyişdi, yeni bir təfəkkür hadisəsini – qalibiyyət fəlsəfəsini doğurdu.

Hərbi-siyasi diskursların analizi belə bir qənaət formalaşdırır ki, "...müharibələr heç vaxt konkret bir vaxtda başlamır və konkret bitməsi haqqında da fikir söyləmək çətindir. Hələ silahlara əl atmamışdan lokal qarşıdurmalar şəklində sanki silahların sınağı keçirilir, siyasi təzyiqlər göstərilir**.**

*- Biz erməni faşizmini məğlub etdik, **ancaq o, məhv edilməyib**. Biz bundan sonra da çalışacağıq ki, **erməni faşizminin bütün təzahürlərini yer üzündən silək və buna gücümüz çatır**;*

*-Təkcə Gəncə şəhərində 26 mülki vətəndaş namərd atəş nəticəsində həlak oldu, erməni faşizminin qurbanı oldu. Gəncə şəhəri həm "Toçka-U", həm "SCUD" **raketləri ilə atəşə tutulurdu**;*

*-Biz bu günahsız insanların, şəhidlərimizin qisasını döyüş meydanında aldıq. **Ermənistanı diz çökdürdük, məğlub etdik**. Erməni faşizmini məğlub etdik və **ədaləti bərpa etdik.***

Bunu müharibədən əvvəlki dövr kimi xarakterizə etmək olar. Ardınca hərbi əməliyyatlar və qalib olmaq "yarışı"–müharibə başlanır. Məhz bu məqamda əslində hərbçilərin xəbərsiz olduğu sülh axtarışları baş verir. Müharibə və sülh bilavasitə binar anlayışlar kimi hərbi-siyasi diskursların əsas leytmotivini təşkil edir. Sonrakı dövr isə elmi mülahizələrə rəğmən, müharibələrarası pauzalar dövrü (***inter bellum***) kimi xarakterizə olunur.

*.... Mən bunu müharibənin əvvəlindən deyirəm, əgər Ermənistanın baş naziri işğal olunmuş əraziləri boşaldacağına dair ictimaiyyət qarşısında üzərinə öhdəlik götürərsə, **biz dayanarıq**.*

*Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və **Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi.***

*-Eyni zamanda, deyirik ki, biz müzəffər xalqıq, biz qalib dövlətik. Erməni faşizmini məğlub etdik. Elə etməliyik ki, **erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın.***

Məqalədə nümunə göstərdiyimiz diskurslarda 44 günlük müharibədə qələbəmizin fəlsəfəsi çox aydın şəkildə, sadə və anlaşıqlı dillə ifadə olunur. Biz də öz növbəmizdə "Zəfər diskursu"nun linvopraqmatik xüsusiyyətlərini elmi-nəzəri dəyərləndirməklə elmdə az yayğın və birtərəfli öyrənilən diskurs probleminə işıq tutduq. Ümid edirik ki, bu istiqamətdə tədqiqatlar davamlı olacaq.

## ƏDƏBİYYAT


1.Аматов А.М., Бондаренко Е.В., Пупынина Е.В. Американский политический дискурс: метафоры войны и война метафор Серия: Гуманитарные науки. 2019. Том 38, № 1

2.Аллан. Пиз, Язык телодвижений – Н. Новгород: Ай кью, 1992. – 262с. с. 13

3. Афанасьева С. Массовая коммуникация как несиловой фактор ведения войны: история вопроса и современное состояние Журнал- Армия и общество.2012. № 2

4.Дейк ван Т. Язык. Познание. Коммуникация. - Москва, 1989, с.4

5.Касумова М.Ю. Дискурс как объект междисциплинарного исследования // Язык. Текст. Дискурс. Ставрополь; Пятигорск: СГПИ; ПГЛУ, 2009. С. 81–86.
6.Клаузевиц К. О войне: в 2 т. /пер. с нем. - Москва: Гос. воен. изд., - 1937. - Т.1. - 383 с.
7.Кубрякова, Е.С. О понятиях дискурса и дискурсивного анализа в современной лингвистике / Е.С. Кубрякова // Дискурс, речь, речевая деятельность: функциональные и структурные аспекты: сб. обзоров. Серия Теория и история языкознания. – Москва: РАН ИНИОН, 2000. – с. 5–13.
8.Наумова К.А. Специфика гибридных видов дискурса (на примере военнополитического и военнопублицистического дискурсов). Дисертация. Челябинск 202I.c.29
9.Почепцов Г. Г. Теория коммуникации. — Москва: Рефлбук, 2001. — 656 с.
10.Солопова, О.А. Гибридные форматы дискурса: проблемы классификации / О.А. Солопова, К.А. Наумова // Филологический класс. – 2018а. – № 4 (54). – с. 15–21.
11.Чернявская, В.Е. Дискурс власти и власть дискурса: проблемы речевого воздействия : учеб. пособие / В.Е. Чернявская. – Москва: Флинта: Наука, 2012. – 128 с.
12.Шейгал, Е.И. Семиотика политического дискурса / Е.И. Шейгал. – Волгоград: Перемена, 2000. – 440 с. (с. 35–45).

## ВОЙНА И ДИСКУРС: ВЛАСТЬ НАРОДА, ВЛАСТЬ ЯЗЫКА

**В.Б.ДЖАФАРОВ**

### РЕЗЮМЕ

В статье в результате научно-теоретического исследования дискурсов, характерных для военного периода, автор приходит к выводу, что более эффективной является концепция «гибридного дискурса», в целом дискурсы войны и политики представлены как бинарные понятия. Статья посвящена лингво-прагматическому подходу к военным дискурсам в международных отношениях и политике.

**Ключевые слова:** война, дискурс, политика, гибридный дискурс, победа, диалог, международные отношения, коммуникативный процесс, коммуникативное поведение.

## WAR AND DISCOURSE: THE POWER OF THE PEOPLE, THE POWER OF LANGUAGE

**V.B.JAFAROV**

### SUMMARY

In the article, as a result of a scientific and theoretical study of discourses characteristic of the war period, the author comes to the conclusion that the concept of "hybrid discourse" is more effective, in general, the discourses of war and politics are presented as binary concepts. The article is devoted to linguistics, a pragmatic approach to military discourse in international relations and politics.

**Keywords:** war, discourse, politics, hybrid discourse, victory, dialogue, inter- national relations, communicative process, communicative behavior.

# MÜNDƏRİCAT

## HÜQUQ

**İbrahimova A.N.**
Fərdi məlumatlar və əlaqədar hüquqlar; fərdi məlumatların mühafizəsi ............... 5
**Rəhimli R.Z.**
Dövlət idarəçiliyində islahatlar və dövlət qulluğu sisteminin formalaşdırılmasının müasir innovativ metodları .................................................. 19
**Əzizova S.H.**
Yetkinlik yaşına çatmayanların şəxsi (qeyri-əmlak) hüquqlarının məhkəmə müdafiəsi ........................................................................................ 34
**İsmayılov Y.D.**
Postsovet ölkələrinin cinayət qanunvericiliyində hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə əməllərinə görə məsuliyyətin tənzimlənməsi ........................................................ 46

## SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA

**İsmayılova E.S.**
Sosial sahibkarlıq – cəmiyyətin inkişafına istiqamətlənən yeni sosial xidmət sahəsidir .............................................................................. 53
**Sultan N.F.**
Autizmli uşaqların adaptasiyası prosesinə erkən müdaxilənin Denver modelinin sosial-psixoloji imkanları ......................................................... 62

## FƏLSƏFƏ

**Əliyeva D.N.**
Sosiomədəni dinamika fəlsəfi-metodoloji tədqiqat obyekti kimi .......................... 69
**Cəfərov V.B.**
Müharibə və diskurs: elin gücü, dilin gücü ........................................................... 80

## СОДЕРЖАНИЕ

### ПРАВО

**Ибрагимова А.Н.**
Личная информация и смежные права; защита персональных Данных ........ 5
**Рагимли Р.З.**
Реформы в государственном управлении и инновационные методы формирования системы государственной службы ........ 19
**Азизова С.Г.**
Судебная защита личных (неимущественных) прав несовершеннолетних ... 34
**Исмаилов Ю.Д.**
Регулирование ответственности в уголовном праве стран СНГ за сопротивление или применение силы в отношении государственного должностного лица ........ 46

### СОЦИАЛЬНЫЕ НАУКИ И ПСИХОЛОГИЯ

**Исмайлова Э.С.**
Социальное предпринимательство как новая сфера социальных услуг, направленная на развитие общества ........ 53
**Султан Н.Ф.**
Социально-психологические возможности денверской модели раннего вмешательства в процессе адаптации детей с аутизмом ........ 62

### ФИЛОСОФИЯ

**Алиева Д.Н.**
Социокультурная динамика как объект философско-методологических исследований ........ 69
**Джафаров В.Б.**
Война и дискурс: власть народа, власть языка ........ 80

## CONTENTS

### LAW

**Ibrahimova A.N.**
Personal information and related rights; protection of personal data ..................... 5
**Rahimli R.Z.**
Reforms in public administration and innovative methods
of forming the system of civil service ..................................................... 19
**Azizova S.H.**
Judicial protection of personal (non-property) rights of minors ............................ 34
**Ismailov Yu.D.**
Regulation of liability in the criminal law of the CIS countries for acts
of resistance or use of force against a government official .................................... 46

### SOCIAL SCIENCES AND PSYCHOLOGY

**Ismailova E.S.**
Social entrepreneurship as a new area
of social services aimed at the development of society ......................................... 53
**Sultan N.F.**
Socio-psychological capabilities of the denver model of early intervention
in the process of adaptation of children with autism .............................................. 62

### PHILOSOPHY

**Aliyeva D.N.**
Socio-cultural dynamics as an object of philosophical
and methodological research ........................................................................ 69
**Jafarov V.B.**
War and discourse: the power of the people, the power of language ..................... 80